İRADƏ HÜSEYNOVA

# İLHAM ƏLİYEV VƏ ZƏFƏR TARİXİMİZİN ŞANLI SƏHİFƏLƏRİ

İnv. № 26875
PREZİDENT KİTABXANASI

Bakı - 2021

Hçx

Elmi redaktor: Qasım Hacıyev,
tarix elmləri doktoru

Rəyçilər: Şikar Qasımov,
tarix elmləri doktoru, professor

Həcər Verdiyeva,
tarix elmləri doktoru

**Hüseynova İ.M. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyuzat", 2021, 224 s.**

Geniş oxucu auditoriyasının müzakirəsinə təqdim edilən bu kitab 44 gün davam edən və Azərbaycanın şanlı qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsindən bəhs edir və göstərir ki, 30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan Ermənistan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mübariz və qəhrəman Azərbaycan Ordusunun əks-hücumları nəticəsində təslim olmağa məcbur edilmişdir.

Kitabda erməni millətçiliyinin Azərbaycanın ərazi bütövlüyünə qarşı apardığı siyasətin tarixi kökləri göstərilir. Diqqətə çatdırılır ki, Qafqaz regionuna XIX əsrin birinci otuzilliyindən etibarən kütləvi şəkildə köçürülmüş ermənilər bu məkanda "Böyük Ermənistan" dövləti qurmaq üçün yerli əhaliyə qarşı etnik təmizləmə aparmışlar.

İşıq üzü görən bu əsər tarixçi-alimlər, konfliktoloqlar, beynəlxalq münasibətlər və müxtəlif sahələrdə işləyən tədqiqatçılar, mütəxəssislər, Ali məktəblərin bakalavr və magistr pillələrində təhsil alan tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-37-633-3

**© İradə Hüseynova, Bakı, 2021**

*Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik.*

**İlham Əliyev**

## GİRİŞ

İkinci Qarabağ müharibəsi! Azərbaycan hərb tarixinin daha və bəlkə də ən möhtəşəm bir zəfər səhifəsi əbədi olaraq şanlı tariximizə həkk olundu. 44 gün sürən və işğalçı Ermənistanın təslim olması ilə başa çatan bu qalibiyyət müharibəsi məğrur və qətiyyətli sərkərdəmiz – Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyevin başçılığı ilə igid və cəsur Azərbaycan hərbçilərinin - əsgər və zabitlərinin, Azərbaycan xalqının layiq olduğu qələbə ilə dünya hərb tarixinə həmişəlik yazıldı. Nə qədər xoşbəxtik ki, bizlər də bu böyük və şanlı tarixi hadisənin – 30 il sürən işğalın başa çatmasının, əzəli və müqəddəs torpaqlarımızın erməni hərbi birləşmələrinin tapdağından azad edilməsinin, hərbçilərimizin misilsiz qəhrəmanlıqlarının, əsgərlərimizin hər addımda göstərdikləri igidlik və şücaətlərin canlı şahidi olduq.

Bəşəriyyətin insanlığa məlum olan bütün tarixi boyu müharibəsiz və münaqişəsiz keçən, Yer kürəsi sakinlərinin bir-biri ilə savaşmadığı, döyüşmədiyi, vuruşmadığı - ümumi sülh və əmin-amanlığın hökm sürdüyü illər çox nadir hallarda olmuşdur. Hərbi ekspertlərin araşdırmalarına görə, Yer kürəsində insanın mövcud olduğu illər ərzində vurtut 240 (!) il müharibə baş verməyib, yəni müharibəsiz illər məhz bu qədərdir. Qalan bütün dövrlərdə insanlar və dövlətlər bir-biri ilə hərbi qarşıdurmalarda, münaqişələrdə olmuşlar. İsveçrə alimi Jan Jak Babelin 1959-cu ildə apardığı hesablamalara görə, son beş min il ərzində dünyada





nə az-nə çox – düz 15000 müharibə və silahlı münaqişə baş vermişdir[1]. Təkcə ötən əsrdə - 1945-ci ilin 14 avqustu ilə (Yaponiyanın təslim olduğu tarix) 1993-cü ilin 1 avqustu arasında - cəmi 48 il ərzində 130-dan yuxarı silahlı münaqişə müşahidə olunub. Bu toqquşmalara cəlb olunan ölkələrin sayı 832-yə çatıb. R.Ceksonun araşdırmalarına görə, 1945-ci ildən sonra planetimizdə cəmi 26 müharibəsiz gün olmuşdur[2]. Bütün müharibələrin –istər ədalətli, istərsə də ədalətsiz, istər qısamüddətli, istərsə də uzunmüddətli müharibələrin sonu, yekunu əlbəttə ki, sülhdür. Hətta ən uzun sürən müharibələr də əbədi davam etməmiş və tərəflərin qarşılıqlı razılığı ilə sona çatmışdır. Dünyanın ən uzun müharibəsi "Yüzillik müharibə" adlansa da, əslində 116 il davam edən (1337-1453) İngiltərə ilə Fransa arasındakı müharibədir. Eramızdan əvvəl qədim Roma ilə Karfagen arasında baş verən və fasilələrlə 43 il sürən 3 Pun müharibəsi bütövlükdə 118 ildən sonra başa çatmışdır. Bir sözlə, bu kiçik mavi planetin sakinləri əvvəl-axır dinc şəraitdə yaşamağa məhkumdurlar, çünki sülhün, əmin-amanlığın heç bir alternativi yoxdur.

Azərbaycan Respublikasının Ermənistan tərəfindən cəlb olunduğu və 44 gün (27 sentyabr - 10 noyabr 2020-ci il) davam edən müharibə - İkinci Qarabağ müharibəsi də artıq başa çatmışdır, tarixə qovuşmuşdur: ölkəmiz təxminən 30 il davam edən erməni işğalından sonra müqəddəs torpaqlarımızı azad edərək və Azərbaycanın ərazi bütövlüyünü bərpa edib şanlı qələbə qazanmışdır. İgid sərkərdə-

---

[1] Советская военная энциклопедия в 8 т Т 5. – Москва Воениздат. 1978, с.283.
[2] Jackson R. J. NATO and Peacekeeping. Cambridge. 1997. 34 p

mizin – dövlətimizin müdrik başçısının rəhbərliyi və əzmkarlığı ilə erməni silahlı birləşmələri tərəfindən zəbt olunmuş ərazilərimiz geri qaytarıldı. Birmənalı olaraq qeyd edə bilərik ki, bu qələbənin memarı və müəllifi müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir, həmçinin yuxarıda qeyd etdiyimiz kimi, igid hərbiçilərimizdir.

Quruda, dənizdə və yerətrafı fəzada hərbi əməliyyatların hazırlanması və aparılmasının nəzəriyyəsi və praktikası hərb sənəti adlanır. Qədim dövrlərdə bu, məhdud iqtisadi və insan resurslarına əsaslanırdı. Orduların silahla təchizatı soyuq silah və atıcı-tullayıcı silahlardan ibarət idi. İstehsal münasibətləri və hərbi-texniki təchizat gücləndikcə müharibələrin miqyası da genişlənmişdir. Ox-yay, nizə və qılıncla başlayan müharibələr XX əsrdə raket və bombalardan aktiv istifadə edilən müharibələrlə əvəz olunmuşdur. 44 gün davam edən İkinci Qarabağ müharibəsi isə dünya hərb tarixində müharibə texnikasında olan yeniliklərlə, müharibə aparmağın yeni nümunəsi ilə yadda qalmışdır. Bu, artıq XXI yüzilliyin müharibəsidir, tamamilə yeni bir hərb sənətidir! Azərbaycan ordusu beşinci nəsil silahlarla döyüşmüşdür. Azərbaycan ordusu müharibədə yeni döyüş taktikası və strategiyasını ortaya qoymuşdur. Müxtəlif ölkələrin hərbi ekspertləri, dünyanın müxtəlif hissələrində baş verən lokal və qlobal savaşları dərindən təhlil edən hərbi analitiklərin fikrincə, sentyabrın 27-də Azərbaycanın erməni hərbi birləşmələrinə qarşı əks-hücuma keçməsi ilə başlayan 44 günlük müharibə bundan sonra dünyada döyüş əməliyyatlarının aparılması taktikası sa-





həsində ciddi dəyişikliklərə səbəb olacaq. Bu barədə bir qədər sonra.

Məlum olduğu kimi, Azərbaycan Respublikası geosiyasi və geostrateji əhəmiyyətinə görə dünyanın ən əlverişli bölgələrindən birində yerləşir. Avropa ilə Asiyanın qovşağında, Şərq-Qərb sivilizasiyalarının, Şimalla Cənubun kəsişməsində, qədim karvan yollarının üzərində qərar tutan Azərbaycan lap qədim dövrlərdən səyyahların, yadellilərin, qonşu dövlətlərin marağını cəlb etmiş, öz azadlığı və müstəqilliyi uğrunda qanlı-qadalı mübarizələr aparmalı olmuşdur. Bu mübarizələrdən sonuncusu – 44 günlük Vətən müharibəsi lap bu günlərdə böyük və şanlı zəfərlə başa çatmışdır. Müstəqil Azərbaycan dövləti təxminən 30 il erməni işğalı altında qalan qədim, müqəddəs və doğma torpaqlarımızın tam azad edilməsi üçün qətiyyətli addımlar atmış, "İkinci Qarabağ müharibəsi" adını almış Vətən müharibəsində möhtəşəm və şanlı qələbə qazanmışdır.

Ümummilli liderimiz, müstəqil Azərbaycanın memarı Heydər Əliyev hələ 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında torpaq məsələsinin xalqımızın əsas amalı olduğunu göstərərək deyirdi: "Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını, övladlarını qurban verməkdən çəkinməmişdir"[3].

---

[3] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, s.55.

# ERMƏNİLƏR QAFQAZIN ALLOHTON ƏHALİSİDİR - TARİXƏ QISA EKSKURS

30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan, lakin bu gün mübariz və qəhrəman Azərbaycan Ordusunun əks-hücumları nəticəsində geri çəkilməyə, döyüş meydanını qorxaqcasına qoyub qaçmağa və təslim olmağa məcbur edilən işğalçı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən terror, soyqırımı və təcavüz siyasəti yüz illərlə əvvəl başlayan tarixə malikdir.

XX əsrin 90-cı illərindən etibarən yenidən amansızlıqla həyata keçirilən həmin işğalçı-terror siyasətinin prioritet istiqamətlərini "dənizdən-dənizə Böyük Ermənistan" dövlətinin qurulması, bu məqsədlə qonşu dövlətlərə, ilk növbədə isə Azərbaycan və Türkiyəyə, eləcə də Gürcüstana və hətta Rusiyaya qarşı ərazi iddialarının irəli sürülməsi təşkil edir. Məsələn, hətta sovet dövründə, 1961-ci ildə B.S.Nalbandyanın Yerevanda (İrəvanda) "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı əsəri dərc edilmiş və burada Tbilisi qədim erməni şəhəri kimi təqdim olunmuşdur. Tanınmış gürcü ziyalısı İlya Çavçavadze hələ XX yüzilliyin əvvəllərində - 1902-ci ildə Tiflisdə nəşr etdirdiyi "Erməni alimləri və ağlayan daşlar" əsərində XIX əsrdə erməni yalanlarının bütün Rusiya, Avropa və Qafqazda "ayaq tutub yeridiyindən", onların əsassız "Böyük Ermənistan" iddialarından bəhs edirdi. O, yazırdı ki, ermə-





nilər aborigen albanları süni şəkildə qriqorianlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" adlandırırmışlar. Bunun hamısı yalandır. Öz işğalçı siyasətlərindən əl çəkməyən ermənilər vaxtilə gəlib sığındıqları Azərbaycan torpaqlarını "Şərqi Ermənistan" adlandıraraq, həmin əraziləri tarixi vətənləri, doğma mədəniyyət mərkəzləri kimi uydurmalarla mənimsəmək fikrinə düşüblər[4].

Bəs gəlin görək, Azərbaycana və ümumən, Cənubi Qafqaza gəlmə olan qeyri-köklü, allohton ermənilərin yaşadıqları ərazilərdə yerli xalqlara qarşı bitib-tükənməyən ərazi iddiaları haradan qaynaqlanır? Tarixi faktlara və əldə edilmiş tədqiqat materiallarına əsasən qeyd edə bilərik ki, hazırkı ermənilər nə vaxtsa Kiçik Asiyada yerləşən Ərməniyyə adlı coğrafi vilayətdə yaşayan tayfaların nəslindəndirlər. Ermənilərin etnogenezini tədqiq edən alimlərin fikrincə, onlar kimmerlərin Balkan yarımadasından qovub çıxartdığı və sonradan Kiçik Asiyada, Dəclə-Fərat çayları arasında, yunanların Mesopotamiya adlandırdıqları ərazidə sığınacaq tapan muşk və digər kiçik tayfaların konqlomeratından ibarətdir.

Ermənilərin Qafqaz regionuna gəlmə olduqları və son bir neçə əsr ərzində Qacarlar İranı və Osmanlı imperiyasından kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına miqrasiya etmələri barədə kifayət qədər elmi-tarixi faktlar vardır. Onların allohton - Cənubi Qafqazın yerli xalqı olmaması ayrı-ayrı dövrlərdə müxtəlif tədqiqatçılar tərəfindən

[4] Чавчавадзе И. Армянские ученые и вопиющие камни. Баку, 1990, с.225.

birmənalı olaraq qəbul edilmişdir. Hələ e.ə. V əsrdə "tarixin atası Herodot bildirirdi ki, ermənilər Kiçik Asiyaya qərbdən gəliblər və frikiyalıların nəslindəndirlər[5]. XIX əsrin fransız mənşəli rus tədqiqatçısı, qafqazşünas alimi İ.Şopen qeyd edirdi ki, "ermənilər mahiyyətcə gəlmədirlər. Onlar Anadolu dağlarının şimal vadilərinə gələn frikiyalıların və ioniyalıların bir qoludurlar"[6]. O. iddia edirdi ki, ermənilər haykanların (hay) və yəhudilərin qarışığından yaranıblar. İnqilabaqədərki Rusiya apologeti V.Veliçko da bu məsələdə İ.Şopenlə eyni fikirdə idi və qeyd edirdi ki, Babil əsarəti zamanı və Yerusəlimin dağılmasından sonra yəhudilərin bir hissəsi haylarla qarışmışlar. XX əsrin görkəmli rus alimi-şərqşünas İ.M.Dyakonov isə bu fikrə gəlmişdi ki, ermənilər – frigiyalıların bir hissəsidir[7]. Onun sözlərinə görə, haylar özlərinə heç vaxt "erməni" deməmişlər.

Ermənilərin regiona sonradan emiqrasiyası məsələsi təkcə Qərb alimlərinin deyil, habelə ayrı-ayrı erməni tədqiqatçılarının araşdırmalarında da öz əksini tapmışdır. XX əsrin tanınmış ermənişünası Q.A.Kapantsyan yazmışdır: "ermənilərin vətəni" - Xayasa-Asiya onların Balkanlardan miqrasiyasından sonra Kiçik Asiyada yerləşir"[8]. Erməni tarixi ilə bağlı bir sıra kitabların müəllifi olan məşhur erməni tarixçisi N.Adons 1908-ci ildə öz nəşrlərinin birində ermənilərin tarixi haqqında danışarkən bu fikirləri qeyd etmişdir: "VII əsrdə kimmerlərin basqını xalqların yerdəyişməsinə səbəb oldu. Öz hüdudlarından sıxışdırılmış Frigiya tayfaları Kiçik Asiyanın şimal-qərbindən Fərat çayı sahillərinə gəldilər və yerli Aramey əhalisi ilə qarışdılar. Gəlmə frigiyalıların aramey mənşəli aborigenlərlə qarışmasından erməni xalqı formalaşdı"[9]. Erməni ictimai xadimi və publisisti B.İşxanyan yazırdı ki, "Tarixi qədimlik təsəvvürünə görə, ermənilərin Böyük Ermənistan hesab edilən həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndir. Bir hissəsi təqib və hücumlardan qurtulmaq üçün Azərbaycan torpaqlarında sığınacaq tapan İran və Türkiyə qaçqınlarıdır"[10].

Ermənilərin qərbdən - Balkanlardan gəldiyini onlara xas olan və təbabətdə "dövri" və ya "erməni xəstəliyi" adını alan xəstəlik də sübut edir. Bu nisbətən nadir xəstəlik ermənilər və Aralıq dənizi hövzəsi xalqları üçün səciyyəvidir[11]. Bu xəstəlik Qafqazın yerli xalqlarına təsir etmir[12].

Aleksandr Anninski yazır: "Erməni xalqının qədim tarixi haqqında Movses Xorenatsinin guya ki, qədim tarixi

---

[5] Геродот. История в девяти книгах. I 180, 194; III:93; V 49.52; VII.73

[6] Шопен И. Новые заметки на древнюю историю Кавказа и его обитателей. С.-Петербург. 1896. с. 26

[7] Дьяконов И.М. Предыстория армянского народа. Ереван. 1968. 202-203. 212.

[8] Капанцян Г.А. Хаяса-колыбель армян. Этногенез армян и их начальная история. Ереван. 1947.с 240-242

[9] Адонц Н. Армения в эпоху Юстиниана. СПб. 1908. с. IX.

[10] İşxanyan B. Qafqaz xalqları. Petroqrad. 1916. c 18

[11] Большая медицинская энциклопедия. том XIX. Москва. Советская энциклопедия. 1931, с. 67

[12] Гусейнзаде Р. Журнал "IRS-НАСЛЕДИЕ". 2004. № 10, с. 34-36.

mənbələrə istinad edərək yazdıqları uydurulmuş, tarixi faktların fantastik dərəcədə təhrif olunmuş, əfsanələşdirilmiş şəklindən başqa bir şey deyil. Nəzərə alsaq ki, tarixdə qədim ermənilərin nə siyasi birliyi və gücü, nə də mədəniyyəti haqqında heç bir iz yoxdur, o zaman belə düşünmək lazımdır ki, elə onların heç biri erməni xalqında olmayıb da. Görünür ermənilər həmişə azsaylı, vəhşi qəbilə şəklində yaşayıblar"[13].

Ermənilərin dövlətçilik ənənələri olmadığından onlar daim böyük dövlətlərin tərkibində və himayəsi altında mövcud olmuşlar. E.ə. 590-cı ildə Maday Urartu dövlətini süquta uğratdı. 550-ci ildə isə Maday Əhəmənilər sülaləsinin tabeliyinə keçdi. 521-518-ci illərdə Armini vilayəti bu dövlətin canişinliyinə daxil edilmişdi. Bu ərazi indiki Türkiyə ərazisinin şərq hissəsini əhatə edir. E.ə. 312-ci ildə Ön Asiyanın bir hissəsi və Kiçik Asiya, o cümlədən Ərməniyyə Selevkilər dövlətinin tərkibinə daxil edildi. Selevkilər dövlətinin süqutundan sonra bu dövlətin tərkibində olan ölkələr müstəqil dövlətlərə çevrildilər. Armini də müstəqilliyini elan etdi. E.ə.189-cu ildə Fəratətrafı ərazidə Artaşetlər dövləti yaradıldı. Bu dövlətin əsasını I Artaş qoymuşdur. Onun nəvəsi II Tiqranın işğalçı müharibələri nəticəsində Artaşetlər Ərməniyyəsinin ərazisi genişləndi. Lakin e.ə. 66-cı ildə Roma ordusu II Tiqranı məğlub etdi və Artaşetlər Ərməniyyəsi Roma imperiyasının əyalətlərindən birinə çevrildi. Eramızın 387-ci ilində Ərməniyyə Sasani və Roma imperiyaları arasında bölüşdürüldü[14].

[13] Аннинский А. История армянской церкви Кишинев, 1900, с.324
[14] Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı, 2008, s.15-28.





I Pyotrun Xəzərsahili vilayətlərə yürüşü ilə aktiv ekspansiv siyasətə başlayan Rusiya imperiyası ermənilərin timsalında Cənubi Qafqazda özünə sadiq xidmətçilərini görürdü. Rusiya Qafqaz meqaregionunda mövcudluğu boyu bu ərazidə öz işğalçı siyasətini həyata keçirmək, nüfuz dairəsini genişləndirmək üçün hər zaman ermənilərdən istifadə etmişdir. Rusiya imperiyasının apardığı məhz bu siyasət nəticəsində Arazdan şimalda yerləşən Azərbaycan torpaqlarına[15], xüsusən Naxçıvan, Zəngəzur, Qarabağ bölgələrinə, Gürcüstana[16], Axalçexi-Axalkalaki, Abxaziya, Acarıstana ermənilər köçürülmüş və yerli türk-müsəlman əhalisi sıxışdırılaraq bölgənin etno-siyasi xəritəsi dəyişdirilmişdir.

1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqaviməti ilə rastlaşmışdı. O zaman Rusiya imperatoru "erməni kartını" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakıda və Dərbənddə ermənilərin məskunlaşdırılması ilə bağlı göstəriş vermişdi. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdir. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina olmuşdur. O, 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermişdi. 1802-ci il-

[15] Hüseynova İ. Tarix Zaman. Düşüncələr. III cild. Bakı: Elm və təhsil. 2020, s.229
[16] Yenə orada, s.265.

də isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərmişdi: "Ermənilərdən nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır". 1805-ci il mayın 14-də Yelizavetpol dairəsində Kürəkçay yaxınlığında Rusiya ilə imzalanmış Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı Rusiya imperiyasına qatılır və 1822-ci ildə isə çar xanlığı ləğv edir. Ərazinin daha yaxşı və ətraflı mənimsənilməsi üçün çar rejimi bir sıra tədbirlərə əl atır ki, onlardan biri də xristianların, xüsusən də ermənilərin Qacarlar İranından bu torpaqlara köçürülməsi idi.

1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimalı Azərbaycan torpaqlarında erməni elementinin kəmiyyətcə artımı prosesini sürətləndirmişdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinin müəllifi olan Aleksandr Qriboyedov xristianların, yəni ermənilərin Qacarlar İranından Cənubi Qafqaz ərazilərinə köçürülməsinin və burada onlar üçün güzəştli şərtlərin təmin edilməsi siyasətinin müəlliflərindən olmuşdur. Türkmənçay müqaviləsindən dərhal sonra – 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılmışdı. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın faktiki təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, cəmi 2369 erməni ailəsi yaşayırdı. 1828-ci ildə təkcə üç ay ərzində 40000 nəfərə qədər erməni ölkə ərazisdə yerləşdırıldı. 1828-1829-cu illər rus-osmanlı





müharibəsindən sonra isə daha 90 min erməni köçüb gəldi[17]. Bu proses eyni zamanda minlərlə azərbaycanlının doğma torpağından qovulması və qətlə yetirilməsi ilə müşayiət olunmuşdu.

Məlum olduğu kimi, azərbaycanlıların əcdadlarından biri olan albanlar böyük bir ərazidə zəngin mədəniyyət formalaşdırmışdılar. Albanların öz əlifbaları, ədəbiyyatları, memarlıq abidələri vardı. Hazırda ölkəmizin ərazisində yaşayan, udinlər, ingiloylar, xınalıqlılar, buduqlar, qırızlar da məhz albanların nəsillərindəndir.

Ermənilərin Qafqaza köçürülmələri nəticəsində təkcə bizim əzəli torpaqlarımız tutulmadı, həm də maddi mədəniyyət nümunələrimizin də erməniləşdirilməsinə başlandı. Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra yerli alban əhalisi buraya köçürülən ermənilərin hesabına erməniləşdirilmişdi. 1836-cı ildə Çar Rusiyasının qərarı ilə Alban həvari kilsəsi erməni qriqorian kilsəsinin idarəçiliyinə verilmişdi. Ermənilər Albaniyaya məxsus olan bütün tarixi "özəlləşdirmiş", özlərini dünyaya qədim xalq kimi təqdim etmişlər.

Ermənilər tarixi saxtalaşdırmaqda böyük "təcrübəyə" malikdirlər. Bu proses orta əsrlərdən davam edir. 1184-cü ildə Albaniya əhalisi üçün Mxitar Qoş tərəfindən tərtib edilən "Alban qanunnaməsi"ni 1265-ci ildə Kilikiyada Smbat Sparapet yeni erməni hüquq qanunnaməsi kimi hazırlamışdır.

M.Abeqyanın fikrincə, "güman olunur ki, ermənilərin

[17] Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. М: Наука, 1978, s. 235-238.

(hayların) əcdadları eramızdan əvvəl Avropada, yunanların və frakiyalıların əcdadlarının yaxınlığında yaşamış, oradan Kiçik Asiyaya köçmüşlər. Eramızdan əvvəl V əsrdə Herodotun dövründə yaxşı xatırlayırdılar ki, ermənilər öz ölkələrinə qərbdən gəlmişlər"[18]. Ermənilərin haradan – qərbdən, cənubdan, yoxsa şərqdən gəlmələri barədə müxtəlif təzadlı mülahizələr vardır. Bu məsələdə hətta ermənilərin özləri də vahid fikrə gələ bilmirlər. Ermənişünas alim Q.A.Kapantsyan da ermənilərin Qafqaza gəlmə olduqlarını, lakin qərbdən deyil, cənubdan köçdüklərini qeyd edir: "Hayasa-Asiya ölkəsinin yerləşdiyi yer, əsasən, Fərat (Kara-su), Çorox və Araz çayları arasındakı ərazidir"[19].

Kapantsyanın obyektiv fikirlərinin əlavə şərhinə heç bir ehtiyacı yoxdur. Müasir dövrdə də bu cür tədqiqatçılara rast gəlmək olur. Erməni əsilli Ukrayna tarixçisi Filip Ekozyans yazır ki, "...heç zaman ermənilərə məxsus olmayan torpaqlara onlar tərəfindən irəli sürdükləri tələblərə son qoymaq gərəkdir. Bizim buna heç bir haqqımız yoxdur, nə hüquqi, nə də əxlaqi". Ermənilərə məbəd tikməyə icazə verən xalqlar sonradan buna peşman olmuşlar, ermənilər yerli əhalini oradan qovmuş və özlərini həmin ərazinin sahibi hesab etmişlər[20].

Azərbaycanın qədim dövlətlərindən olmuş və ərazisinin bir hissəsini təşkil edən Qafqaz Albaniyası Arşakilər Ərməniyyəsindən fəqli olaraq, xristianlığı daha erkən qəbul

[18] Абегян М. История древнеармянской литературы. Ереван, 1975, с.12

[19] Капанцян Г.А. Хаяса-колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947, с. 242

[20] https://vestikavkaza.ru/news/filipp-ekozanc-ne-vrite-sebe-i-vsemu -miru-o-nagorno-karabahskom-konflikte.html





etmişdir. Alban həvari kilsəsi də erməni qriqorian kilsəsindən fərqli olaraq həvari kilsə olmuşdur. Alban tarixçisi Moisey Kalankatlının sözlərinə görə, "müqəddəs Yelisey Yerusəlimdən gələrkən Ermənistandan kənar keçməklə, Albaniyaya gəldi, Ermənistana nisbətən daha tez orada, məhz Giş kəndində (Şəki rayonunun hazırkı Kiş kəndi) kilsə tikdi. Bu kilsə bütün şərqdə kilsələrin ulu anası idi və o zaman ermənilərdə kilsəyə bənzər heç bir şey yox idi"[21]. XIX əsrin birinci otuzilliyində mövcud olan Alban həvari kilsəsinin erməni-qriqorian kilsəsinin idarəçiliyinə verilməsi xalqımızın tarixi yaddaşına böyük zərbə oldu. Bu barədə akademik Ziya Bünyadov yazırdı: "Nə qədər ki, Qandzasarda alban patriarxlığı mövcud idi və fəaliyyət göstərirdi, erməni katolikosluğu yeni torpaqlarda ehtiyatla fəaliyyət göstərirdi. Lakin 1836-cı ildə Eçmiədzin Müqəddəs Sinodu ələ ala bildi və onun köməyi ilə alban patriarxlığını ləğv etdirdi. Erməni katolikosluğu çox sürətlə bütün alban prixodlarını öz əlinə keçirdi və Qarabağda albanların nəsilləri arasında qriqorian təriqətləri yaymaq üzrə geniş fəaliyyətə başladı"[22].

Alban həvari kilsəsinin mülklərinin erməni qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi üçün rus çarı I Nikolay xüsusi olaraq fərman da imzalamışdı. Bundan öncə də, Arazdan şimalda yerləşən Azərbaycan torpaqlarının qərb ərazilərində, daha dəqiq desək, Qarabağ regionunda pəra-

[21] Kalankatuklu M. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm,1993, s.84.

[22] Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722 гг.) Bakı: Elm,1989, s.4

Inv. № -26175-

kəndə ermənilərin kütləvi şəkildə məskunlaşdırılması nəticəsində bu torpaqlarda yerli xristian əhalinin qriqoryanlaşdırılması, yəni erməniləşdirilməsi prosesi başlandı [23].

Bu proses Gürcüstan ərazisində də baş vermişdir. Belə ki, əsrlər boyu yüzlərlə gürcü məbədi erməniləşdirilmiş, və Gürcüstanda "erməni" kilsələri yetərincə çoxalmışdır. Gürcü alimləri bu tarixi prosesi iki dövrə bölürlər: Birinci dövr qədim zamanlardan 1801-ci ilə - Gürcüstanın Rusiya tərəfindən ilhaq olunmasına qədər olan dövrü, ikinci dövr isə XIX-XX əsrləri əhatə edir[24]. V.Veliçko hələ XIX yüzillikdə yazırdı ki, ermənilər gürcülərə məxsus tarixi-arxeoloji abidələri vicdansızcasına çapıb-talayırlar. Belə ki, onlar abidələrdən gürcü yazılarını silir, boşalmış qədim kilsələri zəbt edir, tarixi saxtalaşdırır, gürcü çarlığından xəbər verən abidələrin guya qədim erməni abidəsi olduğunu iddia edirlər. 2014-cü ildə erməni-qriqorian kilsəsinin yepiskopu Vazgen Mirzəxanyan Gürcüstanın baş nazirinə məktubunda Gürcüstanda 442 erməni kilsəsinin olduğunu iddia edir. Beləliklə, əgər əvvəllər erməni-qriqorian kilsəsi Gürcüstanda 5 kilsəyə iddia edirdisə də, bu gün isə bu rəqəm təxminən 100 dəfə artmışdır.

Yuxarıda adını çəkdiyimiz və Azərbaycanın ikiyə bölünməsi ilə nəticələnən müqavilələrin bağlanılmasından sonra ermənilərin bizim ərazilərə kütləvi miqrasiyası başladı. Əgər XIX əsrin əvvəllərində erməni-qriqorianlar (bu qrupa alban-qriqorianlar da daxil idilər) Qarabağda əhali-

[23] İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı. 2016. s 14

[24] Гурбанов А. Сказки армянских мудрецов. Bakı. 2005, s.46





nin 20% təşkil edirdilərsə də[25], 1897-ci ilin statistik göstəricisinə görə, Qarabağın dağlıq hissəsini əhatə edən Şuşa qəzasında ermənilər 54%, azərbaycanlılar isə 46% təşkil edirdilər[26]. Bu demoqrafik dəyişikliklər XIX əsrin birinci otuzilliyində Araz çayından şimalda yerləşən Azərbaycan torpaqlarına Qacarlar İranından və Osmanlı imperiyasından ermənilərin kütləvi şəkildə köçürülməsi nəticəsində baş vermişdi[27].

Birinci dünya müharibəsi illərində isə qaçqın dalğası sayəsində Qarabağda ermənilərin sayı daha da artdı[28]. İnqilaba qədərki rus apologeti Nikolay Şavrov bu haqda yazırdı: "Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb"[29]. Bu qeydlərə əsasən, XX əsrin əvvəllərində də ermənilərin Cənubi Qafqaza miqrasiyası davam etmişdir və pərakəndə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi prosesi minlərlə azərbaycanlının doğma torpağından qovulması və qətlə yetirilməsi ilə müşayiət olunmuşdur.

[25] Verdiyeva H.Y. XIX əsrin birinci yarısında ŞimaliAzərbaycanın əhalisi. Bakı. 1993. s. 44.

[26] Первая Всеобщая Перепись населения Российской империи. 1897 г. Спб. 1904 б/с

[27] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.) Историко-демографическое исследование (II издание, с изменениями, дополнениями) Баку. 2016

[28] "Azərbaycan" jurnalı 1988. №2. s 189

[29] Şavrov N.N. Zaqafqaziyada rus işinə yeni təhlükə. Muğanın yadellilərə satışının gözlənilməsi. SPB. 1911. s.59-61

## ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZDA ƏSASSIZ ƏRAZİ İDDİALARI VƏ "ERMƏNİ SİNDROMU"

Qafqaz regionu qədim dövrlərdən bəri digər millət və etnoslara qarşı qonaqpərvər, fərqli konfessiyalara tolerant münasibət bəsləmiş, zülmdən, əsarətdən qaçan insanlar üçün, böyük imperiyaların təqiblərindən xilas olmağa çalışan xalqlar üçün əsl sığınacaq olmuşdur. Buna misal olaraq yəhudiləri göstərmək olar. Artıq min illərdir ki, qədim Azərbaycan ərazisinə pənah gətirən yəhudilər bu torpaqlarda sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Lakin XIX əsrin əvvəllərində Qafqaza kütləvi şəkildə köçürülən pərakəndə ermənilər isə yeni ərazilərdə möhkəmləndikdən sonra yerli xalqların tarix və mədəniyyətini, qədim abidələrini, məbədlərini, habelə toponimlərini mənimsəməyə başladılar. Azərbaycanın tarix elmi tarixi Ermənistanın Kiçik Asiyada coğrafi vilayət kimi mövcudluğunu təkzib etmir. Lakin müasir erməni alimləri isə tarixi Ermənistanı, onun toponimlərini, kilsələrini və s. Kiçik Asiyadan Qafqaza "daşımaq" siyasəti aparırlar. Təəssüflər olsun ki, 30 il ərzində işğal altında qalmış və ordumuzun rəşadəti ilə artıq azad edilmiş Qarabağ torpaqlarında və indiki Ermənistan ərazilərində çoxsaylı alban məbədləri və digər tarixi-memarlıq abidələri erməniləşdirilməyə məruz qalmışdır. Alban kilsə, məbəd və monastırları özünün bir çox xüsusiyyətlərinə görə xristianlığın digər müvafiq abidələrindən və ibadət yerlərindən fərqlənir. Terroru və işğalçılığı dövlət siyasəti səviyyəsinə qaldıran, Azərbaycan maddi-mədəni irsi ilə bağlı hər bir şeyi görünməmiş şəkildə mənimsəyən ermənilər tərəfindən bu abidələr tamamilə erməniləşdirilmiş və ya məhv edilmişdir. Erməni millətçiləri öz işğalçılıq siyasətlərinə haqq qazandıraraq bəyan edirlər ki, Alban həvari kilsəsinin bütün abidələri guya "qədim erməni abidələri"dir.





Artıq iki yüz ildir ki, ermənilər tərəfindən davam edən bu proses Azərbaycanın işğal altında qalmış ərazilərində daha sürətlə həyata keçirilmişdir. Azərbaycanın xanlıqlarından biri olan İrəvan xanlığında yüzlərlə toponim hətta sovet dövründə belə, erməni adları ilə əvəzlənmişdir. Qeyd edilməlidir ki, "yeni erməni toponimləri əvəz etdikləri Azərbaycan toponimlərindən fərqli olaraq ərazinin, landşaftın xüsusiyyətlərinə və tarixi hadisələrə heç cür bağlanmamışdır. Əgər Ermənistan Respublikasının hazırkı xəritəsinə diqqət yetirilərsə, dərhal görmək olar ki, orada Azərbaycan toponimlərinin heç bir izi qalmayıb... Beləliklə, Basarkeçər – Vardenisə, Qaranlıq – Martuniyə, Hamamlı – Spitaka, Cəlaloğlu – Stepanavana, Qarakilsə - Sisiyana, başqa Qarakilsə - Vanadzora, Keşişkənd – Yexeqnadzora, Uluxanlı və ya Zəngibasar – Masisə, İstibulaq və ya Karvansaray – İcevana, Dəvəli – Ararat qəsəbəsinə, Gözlü Kəmərli – Metsamora, Üç-Müədzin – Eçmiadzinə– Vaqarşapata, Alagöz – Araqatsa, Göyçə gölü – Sevana, Arpaçay - Axuryana və s. çevrilmişdir. Lakin ilkin əsl toponimlər öz əcdadlarının tarixi yaddaşını yaşatmağa hazır olan yüz minlərlə azərbaycanlının yaddaşında yaşamaqda-

dır"[30].

Yuxarıda xatırlatdığımız "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin qədim Azərbaycan torpaqlarına köçürülməsi mütəşəkkil qaydada həyata keçirilmişdir. Belə ki, onların Qacarlar İranından və Osmanlı imperiyasından miqrasiyası mütəmadi olaraq həyata keçirilmiş, onlar kəmiyyətcə artmış, bunun əvəzinə yerli azərbaycanlılar öz yurd-yuvalarından didərgin salınmış, ən yaxşı və münbit torpaqlar ermənilərə verilmişdir. Lakin ən təhlükəli vəziyyət isə ondan ibarət idi ki, pərakəndə ermənilər XIX əsrin sonlarında Şərqi Anadoluda və Qafqazda türk-müsəlman əhalini fiziki cəhətdən məhv etmək məqsədilə daim silahlanır və terror təşkilatları yaradırdılar. Müasir dövrümüzdə terrorizmi dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan Respublikası hazırda bəlkə də dünyada ən "zəngin" terrorçuluq təcrübəsinə malikdir. Beynəlxalq terrorizmin ayrılmaz hissəsi olan erməni terrorizmi yüz əlli ilə yaxındır ki, mövcuddur. Belə ki, erməni millətçiləri 1885-ci ildə Osmanlı imperiyasının ərazisində terror və gərginlik strategiyasını mübarizə vasitəsi olaraq götürən "Armenakan" partiyası yaratmışdılar. Azərbaycan, Osmanlı imperiyası və Gürcüstan ərazilərində "Böyük Ermənistan" dövləti qurmaq xülyasına düşmüş erməni millətçiləri "Hnçaq" (1887, Cenevrədə), "Daşnaksütyun" (1890, Tiflis), "Erməni Vətənpərvərləri İttifaqı" (1895, Nyu-York) kimi siyasi-terror təşkilatlarını yaratmışdılar. Sözügedən təşkilatların fəaliyyət proqramında azərbaycanlılara

[30] Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва, 2014, s.24-26, 56-57





qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tuturdu. "Hnçaq" və "Daşnaksütyun" partiyalarının silahlı dəstələri Birinci dünya müharibəsindən sonra Azərbaycan və Şərqi Anadolu ərazilərində şəhər və kəndləri yandırmış və qarət etmiş, insanları yalnız türk və müsəlman olduqlarına görə kütləvi şəkildə məhv etmişdilər.

Terrorçu qurumlardan biri olan və 1890-cı ildə yaradılan "Daşnaksütyun" partiyası terror əsasında fəaliyyət göstərirdi. Partiyanın proqramının 8-ci və 11-ci bəndlərində deyilirdi: "Hakimiyyət nümayəndələrini terrora məruz qoymaq, hökumət müəssisələrini viran qoymaq və dağıtmaq". "Daşnaksütyun" insanların girov götürülməsi üsulundan da hakimiyyətə təzyiq vasitəsi kimi istifadə etməyin qızğın tərəfdarı və reallaşdırıcısı idi. Məsələn, ilk dəfə bu üsuldan İstanbulda – Beynəlxalq Osmanlı Bankının tutulması zamanı istifadə edilmişdi. Belə ki, bankın 150 nəfər xidmətçisini girov götürən daşnaklar tələb edirdilər ki, əgər xarici ölkələr onların istəyini yerinə yetirməzsə, bankı insanlarla birgə partladacaqlar...

1975-ci ildə "Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu" (ASALA) yaradıldı. Terrorçu dəstənin məqsədi türk diplomatlarını qətlə yetirmək olsa da, onların qurbanları arasında Avropa dövlətlərinin vətəndaşları da vardı. ASALA ilk aksiyasını Beyrutda Ümumdünya Kilsələr Şurasının binasını partlatmaqla həyata keçirdi. 1975-1982-ci illərdə təşkilatın silahlıları müxətlif ölkələrdə 136 hücum aktı törədərək 50-dən yuxarı Türkiyə səfiri və konsulunu qətlə yetirdilər. ASALA Avropada da bir sıra Ya-

xın Şərq ölkələrinə məxsus terror təşkilatları ilə birgə əməliyyatlar keçirmişdir. Bu fakt da bir daha onu göstərir ki, erməni terroru beynəlxalq terrorizmin ayrılmaz tərkib hissəsidir. ASALA-nın son antitürk aksiyası 1991-ci il dekabrın 19-da Budapeştdə türk diplomatının öldürülməsi olmuşdur[31]. Hələ 1983-cü ildə ABŞ Prezidenti Ronald Reyqan ASALA-nı vəhşi, qeyri-insani və sivil cəmiyyətə uyğun gəlməyən cinayətkar təşkilat adlandırmışdı. ABŞ Dövlət katibi C.Şultsun 1985-ci il martın 4-də Nümayəndələr Palatasının spikeri Tomas O'Neylə yazdığı məktubda hazırkı erməni terrorizminin təhlükəli bir problem olması göstərilir: "Ən böyük erməni terrorçu təşkilatlarından olan ASALA belə bir fəaliyyət göstərir; o, başlıca hədəf obyektini amerikalılar təşkil edən digər terrorçu qruplara da yardım edir. ASALA Livan ərazisində terror aktlarının əksəriyyətinə görə məsuliyyət daşıyan iranpərəst "İslami cihad" terrorçu təşkilatını dəstəklədiyini bildirmişdir".

Bu illərdə Fransa, Almaniya, Roma, Beyrut və başqa yerlərdə terror aktları törədən "Daşnaksütyun" partiyası, ASALA, "3 oktyabr" təşkilatı, CSAQ, "Soyqırımı əleyhinə erməni döyüşçüləri dəstəsi" və başqa erməni terror təşkilatları tərəfindən türk diplomatlarına, onların ailələrinə, səfirlik və konsulluqlara hücum edilir, şirkət və idarələr partladılırdı. "Ermənilik" xəstəliyinə tutulmuş bu qəddar terrorçular təkcə türklərə və azərbaycanlılara qarşı terror

[31] Армянские террористические организации // www.mns.gov.az/armenian terjrgs_ru html





törətmir, həmçinin digər ölkələrin də müxtəlif təyinatlı obyektlərinə hücumlar təşkil edirdilər. Məsələn, Parisdə İsveçrənin turizm bürosunun, ABŞ, İtaliya və Fransa avia şirkətlərinin, Beyrutda Fransanın 3 ofisinin, Almaniyada Fransa konsulluğunun binalarında baş verən partlayışlar məhz erməni terror dəstələri tərəfindən törədilmişdir.

"Daşnaksütyun" partiyası 1985-ci ildə Afinada özünün XXIII qurultayında başlıca məqsədini, "vahid və müstəqil Ermənistanın yaradılması" vəzifəsini irəli sürmüşdür. Partiyanın bu qərarı Azərbaycan torpaqları – DQMV, Naxçıvan Muxtar Respublikası və habelə Gürcüstanın Cavaxetiya regionu hesabına gerçəkləşdirilməli idi.

2002-ci ilin əvvəllərində Rumıniya paytaxtı Buxarestdə fəaliyyət göstərən erməni dini mərkəzində dünyanın müxtəlif ölkələrindən olan erməni təşkilatlarının nümayəndələri toplaşaraq, Azərbaycana və Türkiyəyə qarşı yeni terror aktlarının həyata keçirilməsi ilə bağlı plan qəbul etmişdilər.

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI

Həqiqətən də erməni terrorizminin hədəfi – Azərbaycandır və bu dağıdıcı zəlzələnin dalğaları bütün dünyaya yayıldığından, o, mahiyyətcə beynəlxalq terrorizmdir: beynəlxalq erməni terrorizmi dünyanın bir çox ölkələrində şəbəkələnmiş, başlıca olaraq, dünyanın türk dövlətlərinə (əsasən, Azərbaycan və Türkiyəyə) qarşı funksiyalaşdırılmış cinayətkar bir qurumun təhlükəli ideologiyasıdır; beynəlxalq erməni terrorizmi, sözün əsl mənasında, təkcə ayrı-ayrı dövlətləri təhdid edən vasitə deyildir. Erməni terrorizmi beynəlxalq təhlükəsizliyin özünü sarsıdan, beynəlxalq səviyyədə sabitliyi, dinc-yanaşı yaşamaq prinsiplərini pozan, dövlətlərarası münasibətləri dramatikləşdirən, dünya birliyinə doğru inkişafı ləngidən və xüsusilə, milli dövlətlərin suverenliyinə qarşı yönəlmiş fəaliyyətləri təhrik edən antihumanist təmayüldür[32].

Tarixi faktlara əsasən söyləyə bilərik ki, pərakəndə ermənilər hələ ötən yüzilliyin əvvəllərindən etibarən azərbaycanlılara qarşı soyqırımı siyasətinin həyata keçirilməsinə başlamışlar. Belə ki, 1905-1907-ci illərdə Birinci Rus inqilabı zamanı imperiyada yaranmış ictimai-siyasi qarışıqlıqdan istifadə edən erməni millətçiləri Bakı, Şuşa, Zəngəzur qəzalarında, Qarabağda kütləvi qırğınlar törədə-

[32] Səmədov V., Vəlizadə R. "Leyla Əliyeva "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) Bakı. 2014, II cild. s.53-60.





rək azərbaycanlı kəndlərini talan etmişdilər. Bu həqiqətləri arxiv sənədləri işıqlandırmışdır: "İrəvanda ermənilərin törətdikləri çaxnaşmalara görə yaşamaq mümkün deyildir. Bütün şərqi Zaqafqaziyanı əhatə edən azərbaycanlılarla ermənilər arasındakı qanlı qırğınlar həmçinin Bakıda və ətraf ərazilərdə, zavod və mədən rayonlarında xüsusilə şiddətlidir. İl ərzində (*1905-ci il* – **red.**) iki dəfə dəhşətli qırğınlar yaşanmışdır"[33].

Birinci Rus inqilabından sonra azərbaycanlıların soyqırımı prosesi örtülü şəkildə davam edirdi. Bunu Rusiya imperiyasının o vaxtkı statistik məlumatları da təsdiqləyir. Lakin azərbaycanlılara qarşı yönəlmiş təzyiqlərə baxmayaraq, bölgənin azərbaycanlı əhalisinin sayı bu dövrdə 4,6 dəfə artmışdı. Hətta bu qədər sıxışdırılma və təzyiqlərə baxmayaraq, 1916-cı ildə İrəvan quberniyasının əhalisinin təxminən 35 faizi, yəni 373.582 nəfəri yenə də azərbaycanlılar idi[34]. 1914-cü ildə başlanan Birinci dünya müharibəsi və onun gedişində 1917-ci ildə Rusiyada baş verən Fevral inqilabı və oktyabr çevrilişi pərakəndə ermənilərin "Böyük Ermənistan" əfsanəsi üçün əlverişli şərait yaratdı.

1915-ci ilin əvvəllərində Osmanlı imperiyasının şimal-şərq bölgələrinin erməni əhalisi Osmanlı dövlətinə qarşı qiyama başladı və dinc türk əhalisini kütləvi qırğınlara məruz qoydu. Vanda erməni millətçi dəstələri türk müsəl-

[33] Azərbaycan Respublikasının Dövlət Arxivi (bundan sonra –ARDA), 276. siy.8, sax.vah. 1

[34] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-началеXX вв.) Историко-демографическое исследование. (II издание, с изменениями, дополнениями) Баку, 2016, с. 373.

manlara qarşı soyqırımı törətdilər. Bunun cavabında Osmanlı dövləti Şərqi Anadoludan erməni əhalisinin köçürülməsi barədə əmr vermək məcburiyyətində qaldı. Osmanlı ərazisindən İrəvan quberniyasına, Qarabağa və Zəngəzura erməni yaraqlı dəstələri ilə birlikdə böyük miqdarda erməni əhalisi köçüb gəldi. Rusiya ordusuna arxalanan erməni yaraqlıları əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda, Azərbaycanın digər bölgələrində dinc azərbaycanlı əhalisinə divan tutmağa başladılar...

Məlum olduğu kimi, Qafqazda ilk erməni dövləti, XX əsrin əvvəllərində,1918-ci ildə Azərbaycanın İrəvan xanlığı ərazisində yaradılan Ararat Respublikası olmuşdur. 26 may 1918-ci ildə Zaqafqaziya Seyminin erməni fraksiyası rəsmi olaraq Azərbaycan nümayəndələrinə İrəvan şəhərinin yeni yaradılan Ermənistana verilməsi xahişi ilə müraciət etmişdi. Belə ki, onların dövlət müstəqilliyi haqqında aktı elan etmək üçün hətta paytaxtları belə, yox idi. Xahiş edənlər tərəfindən erməni silahlı qüvvələrinin və quldur birləşmələrinin silahı yerə qoyacaqları, yerli əhaliyə qarşı soyqırıma son qoyacaqları və iki xalqın yaxınlaşmasına dəstək verəcəkləri barədə şərtlər qəbul edildikdən sonra rəsmi Azərbaycan bu müraciətə müsbət cavab verdi. Bundan sonra – Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 29-da İrəvan şəhərini Ermənistana güzəştə gedilməsinə razılıq verdi[35]. Beləliklə, erməni tarixçiləri tarixi saxtalaşdırmağa cəhd etsələr də, fakt faktlığında qalır – indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında – Qərbi Azərbaycanda formalaşdırılmışdır. Azərbaycan Xalq

[35] Гурбанов А. Сказки армянских мудрецов. Бакı. 2005, s. 441-442





Cümhuriyyətinin rəhbərliyi müharibəyə və qarşıdurmaya son qoymaq, dinc şəraitdə yaşamaq məqsədilə məkrli ermənilərin vədlərinə inanaraq İrəvan şəhərini 1918-ci ildə Ermənistana güzəştə getmişdir. İrəvan xanlığı əzəli və qədim Azərbaycan torpağıdır. Ermənilər bu bölgənin allohton əhalisidir[36].

Lakin İrəvan şəhəri göstərdiyimiz şərtlərlə ermənilərə güzəştə gedilsə də, təəssüf ki, onlar öz ənənəvi destruktiv mövqelərindən əl çəkmədilər. Gənc Azərbaycan dövlətinin ayrı-ayrı şəhər və kəndlərində erməni millətçiləri tərəfindən 1918-1920-ci illərdə kütləvi qırğınlar və soyqırımı törədildi, dinc əhali məhv edildi. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə martın 31-i azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması da dövlətimizin ədalətli, tarixi həqiqətlərə əsaslanan mövqeyinin göstəricisidir. Bu sənədin imzalanması ilə bir daha tariximizin faciəli səhifələrinə işıq salındı, əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı. Tarixi faktlar da təsdiqləyir ki, azərbaycanlıların kütləvi şəkildə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından qovulması və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir.

Əfsanəvi "Böyük Ermənistan" yaratmaq arzusundan ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Erməni millətçilərinin İrəvandan, Qarabağdan, Bakıdan başladıqları vəhşiliklər Azərbaycan qu-

[36] Hüseynova İ. Azərbaycan Xalq Cümhuriyyəti - Dövlətçilik ənənələrinin davamı kimi. "Səs" qəzeti. № 92. 15 may 2018-ci il.

berniyalarında o cümlədən indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərində, habelə Cənubi Azərbaycanın bir sıra şəhər və yaşayış məskənlərində tüğyan edirdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edilmiş, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi. Bu cinayətlərin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə mane olaraq azərbaycanlıların "vəhşi" obrazını yaratmış, ermənilərin qəsbkar torpaq iddialarını pərdələmiş, azərbaycanlılar dünya ictimaiyyətinə "zalım xalq" kimi təqdim olunmuşdur. 1917-ci ilin sonlarından etibarən erməni vəhşilərinin törətdikləri ağlasığmaz cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmiş, erməni millətçiləri onların evlərinə od vurmuş, insanları diri-diri yandırmışlar. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, İrəvanda, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər bölgələrdə xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli-tarixi əhəmiyyət kəsb edən maddi-mədəni abidələr dağıdılıb məhv edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ölkə rəhbərliyi 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi. Komissiya Bakıda mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisin-





də ermənilərin törətdikləri ağır cinayətləri araşdırmışdı. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum da yaradılmışdı. Komissiyanın vəzifəsi Birinci dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində dilindən, dinindən, cinsində, yaşından asılı olmayaraq, dinc əhaliyə qarşı erməni millətçilərinin törətdikləri soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməkdən ibarət idi. Hökumətin bu qərarı ilə, əslində, müstəqil Azərbaycanın milli təhlükəsizlik sisteminin yaradılmasının əsası qoyuldu. Fövqəladə İstintaq Komissiyasının təşkil edilməsi ilə əlaqədar hökumətə məruzə edən xarici işlər naziri M. Hacınski bildirirdi: "Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələri quldur dəstələri tərəfindən dağıdılır, bolşevik adı altında özbaşına erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda, həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yanlış məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə yönəldilir"[37].

1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm gününün ildönümü kimi qeyd edilmişdi. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımına və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin 1920-ci ilin aprelində bolşeviklərin hakimiyyəti qəsb etməsi nəticəsində Xalq Cümhuriy-

[37] I hissə HÖKUMƏTƏ MƏRUZƏ/ http //soyqırım az/link/6524

yətinin süqutu bu işləri yarımçıq qoymuş və nəticədə, Azərbaycan xalqı erməni-rus bolşevik qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. Əvəzində isə pərakəndə ermənilər istər dünyaya səpələnmiş böyük diasporları və güclü lobbiləri vasitəsilə, istərsə də indiki Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovet hakimiyyətinin təbliğat maşınının köməyi ilə özlərinin guya qondarma "soyqırımı" kampaniyasına geniş vüsət vermiş, yenidən ərazi iddialarına başlamışdılar.





## İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏN SONRA XARİCDƏ YAŞAYAN ERMƏNİLƏRİN ERMƏNİSTAN SSR-ə KÖÇÜRÜLMƏSİ

Xatırladaq ki, İkinci dünya müharibəsi illərində də erməni lobbisi "Böyük Ermənistan" xülyasını reallaşdırmaq istiqamətində məkrli siyasətlərini davam etdirmişdir. Belə ki, lobbi həm Türkiyənin Qars və Ərdəhan vilayətlərinə ərazi iddiaları irəli sürür, həm də dünyaya səpələnmiş ermənilərin bu torpaqlarda məskunlaşdırılmasına təkid edirdi. 1944-cü ildə Ermənisan SSR Kommunist Partiyası MK-nın birinci katibi Q.Arutyunov Moskvada İ.Stalinlə görüşmüş, xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi məsələsi müzakirə edilmişdi. Potsdam konfransında SSRİ Türkiyədən ərazi əldə edə bilmədiyindən, erməni lobbisi yenidən Azərbaycan torpaqlarını ələ keçirmək fikrinə düşmüşdü. 1945-ci ildə Stalinlə yenidən görüşərkən Q.Arutyunov 300 mindən çox ermənini Ermənistana miqrasiya etmək istədiyini bildirir və bu məqsədlə həm Dağlıq Qarabağın, həm də Naxçıvanın Ermənistana verilməsini xahiş edir. Lakin erməni millətçiləri məqsədə çatmasalar da xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə nail oldular. Belə ki, 1945-ci il noyabrın 21-də SSRİ Xalq Komissarları Soveti "Xaricdə yaşayan ermənilərin sovet Ermənistanına köçürülməsinin praktik tədbirləri haqqında" qərar qəbul etdi. 1946-cı ildə Suriya, Yunanıstan, Livan, Bolqarıstan və Rumıniyadan

50.900 erməni Ermənistana immiqrasiya etdi[38]. 1947-ci ildə 63 min ermənin Ermənistan SSR-ə köçürülməsi nəzərdə tutulmuşdu, lakin cəmi 35,4 min erməni "doğma" vətənə qayıtmışdı. 1948-ci ildə isə xaricdən yalnız 86.346 erməni immiqrasiya etmişdi[39].

Qeyd etmək lazımdır ki, Ermənistan rəhbərliyi xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi ilə yanaşı, eyni zamanda azərbaycanlıların Ermənistan SSR ərazisindən çıxarılmasına da nail oldu. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul etdi. Bu qərara əsasən, 1948-1950-ci illərdə 100 min azərbaycanlı "könüllülük prinsipi"əsasında Azərbaycan SSR-ə köçürülməli idi. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər[40]. İnsan hüquqlarının ciddi pozuntusu ilə həyata keçirilən bu qərarlar Ermənistan SSR-i monoetnik respublikaya çevirmək məqsədi daşıyırdı. Sosial-iqtisadi şəraitin dözülməzliyi və iqlim şəraitinin uyğunsuzluğu nəticəsində köçürülənlərin bir hissəsi həyatını itirdi, bir hissəsi 1948-1951-ci illərdə yenidən doğma torpaqlarına qayıtdı. Bütövlükdə, 1948-1951-ci illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 37.387 nəfər azərbaycanlı və ya 8 min 759 ailə deportasiya edildi. Bu proses sonrakı dövrdə də aparıldı: 1956-cı ildə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına və digər rayonlarına köçürülənləin sayı 58.421 nəfərə çatmışdı[41].

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır. Fərmanda göstərilirdi ki, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR-də yaşayan azərbaycanlı əhali dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin

[38] Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018, s 161

[39] Yenə orada

[40] https://iravan.preslib.az/1948-1953_deportasiyasi.html

[41] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (bundan sonra - AR Pİİ SSA). f.1, siy 33,sax.v. 230,v.11.

öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır. Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir"[42].

[42] 1948—1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI/ http://www e-qanun.az/framework/4099





## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ERMƏNİSTANIN İŞĞALÇI SİYASƏTİNƏ QARŞI MÜBARİZƏSİ

XX əsrin axırlarında – keçmiş SSRİ imperiyasının dağılması ərəfəsində Ermənistanın əsassız torpaq iddiaları yenidən baş qaldırdı. Azərbaycan ərazilərini işğal etmək və indiki Ermənistan ərazisini isə "türksüz Ermənistana" çevirmək planlarının gerçəkləşdirilməsi üçün əlverişli şəraitin yarandığını zənn edən Ermənistan SSR rəhbərliyi qanlı cinayət əməllərini məqsədyönlü şəkildə həyata keçirməyə başladı.

Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından qovuldu. Onlar yenidən Azərbaycana pənah gətirdilər. 1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən də soydaşlarımız qovuldu. Erməni silahlı qüvvələrinin 1991-ci ilin sonlarından başlayan hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionu və ətrafındakı 7 rayonun 600 mindən çox sakini də öz yaşayış yerlərindən məhrum edilərək respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox məskunlaşma obyektində məcburi köçkün həyatı yaşamağa başladı. XX əsrin sonlarında Ermənistanın Azərbaycana növbəti təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizdən çox hissəsi, başqa sözlə 17 min kv.km-dən yuxarı ərazi işğal olundu. Respublikamızın təx-

minən 900 yaşayış məntəqəsi qarət olundu və məhv edildi. Bütövlükdə, Birinci Qarabağ müharibəsində 20 mindən yuxarı azərbaycanlı həlak olmuş, 50 mindən çox soydaşımız isə yaralanmış və ya xəsarət almışdır ki, nəticədə, onlar əlil və şikəst olmuşlar. Minlərlə insan itkin düşmüşdür.

İşğal olunmuş ərazilərdə azərbaycanlıların erməni faşistləri tərəfindən məhkəməsiz və istintaqsız kütləvi qətli, əsirlərin və mülki əhalinin döyülməsi, soydaşlarımıza ağlasığmaz işgəncələr verilməsi və saysız-hesabsız qəddar, qeyri-insani rəftar, habelə azərbaycanlı əhalidən Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində ən ağır işlərdə məcburi istifadə adi hala çevrilmişdi. Bütün bu faciələr məhz Ümummilli lider Heydər Əliyevin ermənipərəst M.Qorbaçov tərəfindən sovet dövlətinin rəhbərliyindən istefaya göndərilməsindən dərhal sonra baş vermişdi.

Dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı törədilən silahlı təcavüzə cavab olaraq xalqımızın başladığı mübarizə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə başlanmışdır. Bu gərgin, hərtərəfli iş, Ermənistanın törətdiyi dəhşətli cinayətlərə görə beynəlxalq hüquqi məsuliyyətin reallaşdırılması ilə bağlı strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə və böyük əzmkarlıqla davam etdirilir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının 12-ci çağırış birinci sessiyasında çıxışı (7 fevral 1991-ci il) mühüm əhəmiyyətli bir tarixi sənəddir. İlk dəfə olaraq bu sənəddə 1988-ci ildən başlayaraq Azərbaycanda





baş verən siyasi hadisələrə düzgün qiymət verilirdi. Ümummilli lider Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında öz fikir və təkliflərini Ali Məclisə çatdırdı. Heydər Əliyevin çıxışında irəli sürülən fikirlər bütün ölkədə siyasi, iqtisadi və dövlət üsuli-idarəsinin keçirdiyi böhranı dərk etməyə kömək etdi. Yaranmış vəziyyətin səbəblərini açıb göstərdi. Bu səbəblər sırasında milli siyasət sahəsində buraxılmış böyük səhvlər nəticəsində SSRİ-nin bir çox respublikalarında faciəli vəziyyətin yaradılması da vardı. Çünki bu siyasət nəticəsində müttəfiq respublikaların hüquqları tapdalanmış, mərkəzin imperiya siyasəti ağır nəticələr vermiş, cəmiyyəti fəlakət həddinə gətirib çıxarmışdı. Ulu öndər göstərdi ki, ölkədə yaranmış vəziyyətin günahkarları hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, o cümlədən partiya və dövlət hakimiyyətini ələ keçirmiş M.Qorbaçovdur. Ölkədəki vəziyyətə Heydər Əliyev qiyməti mühüm elmi, siyasi əhəmiyyət daşıyırdı.

Ümummilli lider Heydər Əliyev öz çıxışında "Dağlıq Qarabağ" probleminin yaradılması, onun tarixi torpaqlarının ermənilər tərəfindən ələ keçirilməsi və münaqişənin səbəblərinin təhlilinə mühüm yer vermişdi. O, bildirmişdi ki, 1988-ci ildə Dağlıq Qarabağ məsələsi qaldırılan vaxt Azərbaycan hökuməti bu problemin qarşısını ala bilərdi. Qorbaçov və onun ətrafında olan erməni müşavirləri, erməni millətçiləri Azərbaycanın bacarıqsızlığından, zəifliyindən və xəyanətindən istifadə edərək vəziyyəti daha da gərginləşdirdi.

Heydər Əliyev ilk günlərdən Dağlıq Qarabağ "məsə-

lə"sində Mərkəzin xəyanətkar addımlarının xronikasını və Azərbaycan rəhbərliyinin səhvlərini şərh etmişdi.

1988-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın siyasi, sosial-iqtisadi inkişafına dair qərar qəbul etmişdi. Heydər Əliyev bu qərarı Azərbaycan Respublikasının, necə deyərlər, kürəyinə sancılmış ox kimi qiymətləndirirdi. Həmin qərar Ermənistana Dağlıq Qarabağın işlərinə qarışmağa ixtiyar verirdi. O qərarın qəbul olunmasına yol vermək olmazdı. Belə ki, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında ( iyul 1988-ci il) Qarabağ məsələsi müzakirə olunan vaxt Azərbaycan deputatları ilə yanaşı, Ermənistan deputatları da eyni hüquqla iştirak edirdilər. Bu da səhv idi. Sonra A.Volski idarə-üsulu Dağlıq Qarabağı Azərbaycan qanunlarına tabe olmamağı təmin etdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında Dağlıq Qarabağ haqqında danışmaqla Azərbaycan tarixinin daha bir həqiqətini göstərdi. Azərbaycan torpaqlarının tarixən ermənilər tərəfindən işğal edilməsi faktlarını meydana çıxardı. Hələ 1918-ci ildən ermənilərin Azərbaycan torpaqlarının fasilələrlə ələ keçirməsi nəticəsində Azərbaycan ərazisi 1918-ci ildəki 114 min kvadrat kilometr sahədən 1990-cı ildə 86 min kvadrat kilometrədək azaldığını qeyd etdi. Qeyd etmək lazımdır ki, torpaq məsələsi Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində bundan əvvəl də müzakirə edilmişdi. Müzakirədə aşkar edilmişdi ki, 1929-cu ildən sonra Naxçıvan Muxtar Respublikasının





ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 6 kənd Ermənistana verilmişdir. Bu da 62 min hektar kənd təsərrüfatına yararlı torpaq idi[43]. Göstərmək lazımdır ki, Naxçıvan həmişə öz torpaqlarını müdafiə etmiş, ərazi bütövlüyünü qoruyub saxlamışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll etdi. Vətəndaş müharibəsinin qarşısı alındı, torpaqların işğalı dayandırıldı, respublikanın parçalanması təhlükəsi aradan qaldırıldı. İnsanlarda Azərbaycanın gələcəyinə inam yarandı. Azərbaycan xalqı hakimiyyətə Heydər Əliyevi çağırmaqla ümidlərinin doğrulduğunu və respublikanı gələcəyə inamla aparan yeganə liderinə daha çox etimad və etibar etdiyini göstərdi. 1993-cü il 15 iyundan sonrakı dövrlərdə respublikanın müxtəlif yerlərindən Prezident Aparatına, Milli Məclisə və digər dövlət orqanlarına göndərilən məktublarda, müraciətlərdə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması gününü - 1993-cü il iyunun 15-ni Azərbaycan xalqının Milli Qurtuluş günü elan edilməsi xahiş olunurdu[44]. Azərbaycan Respublikasının Milli Məclisi bütün təklif və müraciətləri nəzərə alaraq, 1997-ci il 27 iyun tarixli iclasında deputatların təklifi ilə Azərbaycan dövlətçiliyinin müqəddəratı tarixində taleyüklü əhəmiyyəti

[43] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, f. 2941, siy. la. sax.vah. 239, v. 96; Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, 472 s.

[44] Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку, 2005, s 159.

olan 15 iyun gününü Milli Qurtuluş günü elan etdi[45]. Bununla da 15 iyun 1993-cü il Azərbaycan tarixinə "Qurtuluş günü" kimi daxil oldu.

1993-cü ilin iyununda xalqın təkidi ilə Azərbaycanın siyasi rəhbərliyinə gələn ulu öndər Heydər Əliyev Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan, dünyanın siyasi xəritəsindən silinməkdən qurtardı. Ölkədə bir çox həyati vacib sahələrdə köklü islahatlara start verildi, möhkəm, güclü və nizami ordu quruculuğuna başlanıldı. Heydər Əliyev dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycan dövlətçiliyi üçün möhkəm təminata deyil, əksinə, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə respublikamızda qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsi subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi və onun dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyinə çevrilmişdi. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı

[45] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004. s.67.





ciddi mübarizə aparıldı və son nəticədə, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail olundu.

1993-cü il iyunun 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verildi.

Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinin həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin 2 iyul 1993-cü il tarixli bəyanatında deyilirdi: "Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam edəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçiriləcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcək, ayrı-ayrı xarici şirkətlərlə imzalanması nəzərdə tutulmuş bütün müqavilələrlə bağlı götürülmüş öhdəliklər sivilizasiya normaları çərçivəsində yerinə yetiriləcəkdir. Ölkəmizin daxili ictimai-siyasi vəziyyəti sabitləşdikcə, həmin məsələlərlə daha fəal məşğul olmağa imkan yaranacaqdır"[46].

[46] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004. s.71.

Yuxarıda vurğuladığımız kimi, Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı ata-baba yurdlarından zorla köçürülməsinin, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə obyektiv, olduğu kimi çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır[47].

İmzalanmış bu fərmandan bir müddət sonra – 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayan ulu öndər Heydər Əliyev gənclərin tarixi həqiqətlərin öyrənilməsinə daha geniş meydan açmış, onları mübarizə ruhunda kökləmişdir. 1918-ci ilin məlum mart hadisələrinin 80-ci ildönümündə imzalanmış fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu fərman gənc nəsildə milli yaddaşın qorunması baxımından bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən tarixi sənəd əsasında martın 31-i hər il Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Fərmanda göstərilirdi ki,

[47] 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı. "Azərbaycan" qəzeti, 19 dekabr 1997-ci il





"Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir"[48]. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 martın Azərbaycanlıların soyqırımı Günü kimi qeyd olunması da dövlətimizin ədalətli, tarixi həqiqətlərə əsaslanan mövqeyinin göstəricisidir. Bu sənədin imzalanması ilə bir daha tariximizin faciəli səhifələrinə işıq salındı, əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı.

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində də böyük dönüş əmələ gəldi. Əldə edilmiş müstəqilliyin ilk illərində bacarıqsız, işi bilməyən siyasətçilərin "fəaliyyəti" nəticəsində xarici siyasətdə buraxılan səhvlər beynəlxalq aləmdə Azərbaycan Respublikasına mənfi münasibət yaratmışdı. 1991-1992-ci illərdə xarici siyasət sahəsində respublikamızın beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl xarici siyasət kursunun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərdi. Keçmiş iqtidarın düşünülmə-

[48] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Xalq qəzeti". 1998, 27 mart, №80

miş bəyanatları üzündən yaxın qonşular olan Rusiya, İran, Mərkəzi Asiya dövlətləri ilə münasibətlər kəskinləşmişdi.

Azərbaycanın dövlət başçısının xaricdə respublikamızın imicini qaldırmaq və onun haqqında yaradılmış qeyri-obyektiv fikirlərin, xoşagəlməz miflərin dağıdılması, dövlətlər arasında normal münasibətlər yaradılması, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq məqsədi ilə xarici səfərləri qısa müddətdə öz müsbət nəticələrini göstərməyə başladı.

Azərbaycan Respublikasının Prezidenti dövlətimizin xarici siyasət sahəsində fəaliyyət istiqamətlərini belə qiymətləndirirdi: "Azərbaycan Avropa ilə Asiyanın qovuşağındadır, lakin həm Avropa, həm Asiya, həm də Qərb ölkələri ilə, dünyanın bütün ölkələri ilə xoş münasibətlər yaratmağa çalışıram. Əlbəttə, biz bu zaman onu əsas götürürük ki, bu münasibətlər hər hansı digər dövlət tərəfindən Azərbaycanın daxili işlərinə qarışmamaq prinsipini nəzərdə tutmalı, Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə, sərhədlərimizin toxunulmazlığına xələl gətirməməlidir. Bununla belə Azərbaycan qonşu ölkələrlə daha sıx əlaqələr yaradılmasına böyük əhəmiyyət verir. Şimal qonşumuz Rusiya ilə, habelə bizimlə həmsərhəd olan Türkiyə və İranla aramızda normal münasibətlər var. Biz Gürcüstanla normal münasibətlər yaratmışıq, lakin aramızda böyük sərhəd olan Ermənistanla müharibə vəziyyətindəyik"[49].

Azərbaycanın dünyada tanınması, dünya ölkələri ilə münasibətlər, əməkdaşlıq yaradılması üçün respublika

[49] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994, s.99





prezidentinin xarici ölkələrə tarixi səfərləri başladı[50].

Hesab edirəm ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonrakı dövrdə fəaliyyətinin əsas istiqamətlərindən birini məhz Azərbaycan ətrafında yaradılan informasiya blokadasının aradan götürülməsi təşkil edirdi. Dahi şəxsiyyətin xarici ölkələrə hər bir səfəri ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin açıqlanmasında, dünya ictimaiyyətinin diqqətinə obyektiv şəkildə çatdırılmasında əhəmiyyətli rol oynayırdı. Tarixi faktlar əsasında bəyan edilirdi ki, pərakəndə ermənilərin özlərinə saxta tarix yazıb, apardıqları yalan təbliğatın əksinə olaraq, soyqırımına məruz qalan onlar yox, məhz azərbaycanlılardır.

Azərbaycanlıların soyqırımından danışarkən, onu da vurğulayaq ki, 1988-ci ildən başlayan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən dəhşətli hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı oldu. 6 min nəfər azərbaycanlının yaşadığı bu şəhər bir gecə ərzində məhv edildi. 1992-ci il fevralın 26-da Xocalının yer üzündən tamamilə silinməsində erməni silahlı qüvvələrinə sovet ordusunun 366-cı alayı yardım etdi. Nəticədə, 613 nəfər qətlə yetirildi, 150 nəfər itkin düşdü. Qanlı faciədə 1000 nəfər dinc sakin şikəst oldu. Bu soyqırımı XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Babi Yar, Xatın, Liditse, Sonqmi faciələri ilə eyni səviyyədə durur. Xocalı-

[50] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, s.137

da mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda ermənilər tərəfindən güllələnmişdilər. Xocalıdan çıxan əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və başqa silahlardan güllləbaran edilməsi faktı bunu bir daha təsdiqləyir. Bütün bunlar ermənilərin 29 il öncə Xocalı şəhərində törətdikləri qeyri-insani hərəkətlərinin kökündə məhz genosid (soyqırımı) niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır. Genosid cinayəti üçün xüsusi niyyətin olması zəruri şərt sayılır və bu dəhşətli akt hökmən milli, etnik, irqi, dini qruplara qarşı yönəlmiş olur. Bu soyqırıma hüquqi müstəvidən yanaşdıqda aydın görünür ki, erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olmuşdur. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırımı cinayətinə şüurlu, məqsədli şəkildə, bilərəkdən əl atmış, misli görünməmiş qətliam törətmişdilər.

Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırımı cinayəti kimi tövsif olunması üçün kifayət qədər ciddi əsaslar verir. Xocalı soyqırımı ilə bağlı aparılmış istintaqla müəyyən edilmişdir ki, bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" 1948-ci il 9 dekabr tarixli Konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətinin tərkibi vardır.





Ulu öndər Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin, qondarma Dağlıq Qarabağ probleminin, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və qorunması məsələlərinin həll edilməsində ilk gündən beynəlxalq təşkilatların gücündən istifadə edilməsinə, onların vasitəsilə bu məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırdı.

Azərbaycan Respublikasının Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarında çalışarkən dünyanın böyük dövlət və hökumət başçıları ilə daim görüşlər keçirmiş, bu imkanlardan da istifadə etməyə üstünlük vermişdir. Bu faktı qeyd etmək kifayətdir ki, 1999-cu ilin fevralına qədər Heydər Əliyev 68 ölkənin prezidentləri, dövlət başçıları ilə 485 görüş keçirmişdir. Amerika Birləşmiş Ştatlarının prezidenti, xarici işlər naziri ilə 18 dəfə, Fransanın prezidenti və xarici işlər naziri ilə 16 dəfə, Rusiya Federasiyasının rəhbərləri ilə 28 dəfə, Türkiyənin rəhbərlərinin hamısı ilə dəfələrlə, 78 dəfə görüş keçirmişdir. Bu görüşlərdə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini irəli sürmüş, bu barədə geniş məlumat vermiş və eyni zamanda Azərbaycana kömək etmələrini, Azərbaycana tərəfdar olmalarını xahiş etmişdi.

Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə - keçmiş Baş katibi Butros Butros Qali ilə, ondan sonra sədrlik edən Koffi Annan ilə 10 dəfə görüş keçirmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi barədə söhbət aparmışdı.

Ulu öndər Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının üç zirvə görüşündə çıxış etmiş, bu çıxışlarda Azərbay-

canın vəziyyətini ətraflı təhlil etmiş, onun işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması üçün köməklik edilməsini xahiş etmişdi. Eyni zamanda BMT TŞ-nin qəbul etdiyi qətnamələri (30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993), 1993-cü il noyabrın 12-də 884 saylı) yerinə yetirmədiyinə görə bu təşkilatı tənqid etmişdi.

Ümummilli lider NATO-da üç zirvə görüşündə iştirak etmiş, buradakı çıxışlarında da Azərbaycanda qaçqınların vəziyyəti, respublikamızın ərazilərinin işğal edilməsi, Dağlıq Qarabağın işğalı və oradakı beynəlxalq hüquq normalarına, qanunlara zidd hərəkətlər haqqında məlumatlar vermiş və Azərbaycana kömək göstərilməsini xahiş etmişdi.

Ulu öndər İslam Konfransı Təşkilatının iki zirvə görüşündə iştirak etmiş və ətraflı çıxış etmişdi. İqtisadi Əməkdaşlıq Təşkilatının-EKO-nun dörd zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının beş zirvə görüşündə çıxış etmışdi.

Ümummilli lider Müstəqil Dövlətlər Birliyinin üzvü kimi dövlət başçılarının bütün iclaslarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini qaldırmış, ona münasibət bildirməyi xahiş etmişdi[51].

Ulu öndər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və ədalətli şəkildə həll olunması, ümumiyyətlə Qafqaz regionunda bütün münaqişəli durumların dinc vasitələrlə və

[51] Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004, s.154.





danışıqlarla çözülməsi, beləliklə də regionun sülh və sabitlik regionuna çevrilməsi istiqamətində yorulmadan çalışırdı. Hazırda Qafqaz qloballaşan və qloballaşdıqca terrordan əziyyət çəkən narahat dünyamızın ən qaynar nöqtələrindən və strateji baxımdan ən əhəmiyyətli geosiyasi məkanlarından sayılır. “Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq” deyə, Heydər Əliyev Gürcüstanda yaşayan azərbaycanlılarla görüşdə söyləmişdi[52]. Bütün tarixi reallıqları, zəmanəmizin gerçəkliklərini, çağdaş dünyada baş verən qlobal və regional hadisələri düzgün qiymətləndirən Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda “Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!” konsepsiyası mühüm yer tuturdu. Həmin bu konsepsiya əsasında həyata keçirdiyi qlobal tədbirlər sayəsində Heydər Əliyev “Ümumqafqaz evi” ideyasının əsas müəlliflərindən biri, “Ümumqafqaz evi”nin ağsaqqalı kimi nəinki Qafqazda, eləcə də bütün dünyada tanınmış və şöhrət qazanmışdı. Bu, bir tarixi reallıqdır ki, hazırda Qafqazda sülh, əmin-amanlıq təkcə region ölkələri üçün deyil, bütün dünya dövlətləri üçün də iqtisadi və mədəni inteqrasiyanın ən mühüm şərtlərindən biri sayıla bilər.

1994-cü il mayın 5-də Ermənistanla Azərbaycan arasında Bişkek protokolunun imzalanması və mayın 12-də qüvvəyə minməsi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qara-

[52] Hüseynova İ. Tarix Zaman Düşüncələr. I cild. Bakı, 2016, s.87.

bağ münaqişəsində atəşkəsə nail olundu. Bu sənədə əsasən, cəbhə xəttində aktiv hərbi əməliyyatlar müvəqqəti olaraq dayandırıldı. Mayın 19-da isə atəşkəs müqaviləsinin həyata keçirilməsinə nəzarət məqsədilə ATƏT-in Dağlıq Qarabağ üzrə daimi komitəsi yaradıldı. Lakin atəşkəs sazişi qüvvədə olsa da, Ermənistan tərəfi Azərbaycana qarşı mütəmadi təxribatlar törədib, atəşkəsi pozur, yaşayış məskənlərimizi və ordumuzun mövqelərini daim atəşə tuturdu. AR Baş Prokurorunun verdiyi məlumata əsasən, atəşkəslə bağlı müqavilənin imzalanmasından sonra 2020-ci il sentyabr ayının 27-nə qədər ayrı-ayrı vaxtlarda 398 nəfər hərbçi və 31 mülki şəxs olmaqla, 429 Azərbaycan vətəndaşı ermənilər tərəfindən öldürülmüşdür.

Beynəlxalq qurumlar və vasitəçilər tərəfindən danışıqların təşkili, hüquqi bazanın formalaşdırılması və münaqişənin həlli prosesində hər hansı bir irəliləyiş cəhdləri olsa da, Ermənistan daim bu təşəbbüslərdə öz destruktiv mövqeyi ilə yadda qalmış və mövcud tendensiya hər dəfə təkrarlanmışdır. 1999-cu ildə Ermənistan Respublikasının parlamentinə təşkil olunan silahlı hücum və parlament sədrinin qətlə yetirilməsi, Ermənistan Prezidenti Serj Sarkisyanın 2009-cu ildə Yenilənmiş Madrid prinsiplərində əks olunmuş öhdəliklərə əməl etməkdən boyun qaçırması və nəhayət, 2019-cu ildə Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsini işlətməsi isə bu kimi faktların ən sonuncusu oldu. Hətta Azərbaycan və Ermənistan rəhbərləri arasında 2019-cu ildə Vyanada baş tutan görüşlə paralel zamanda Ermənistanın Müdafiə naziri D.Tonoyanın ABŞ-a səfəri çərçivəsində Nyu-Yorkda erməni icması ilə görüşündə "yeni ərazilər üçün yeni müharibə" planının olması barədə açıqlamasını nəinki yerli erməni mənbələri, o cümlədən "Regnum", "Eadaily", "Вести Кавказа", "Sputnik" kimi xəbər agentlikləri də işıqlandırmışdılar.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ÖLKƏNİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASI UĞRUNDA MÜBARİZƏSİ

2003-cü ildə xalqımızın, seçicilərin mütləq əksəriyyətinin dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev ulu öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasətini uğurla davam etdirməyə başladı. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyərək, müqəddəs Qurana və Azərbaycan Respublikasının Konstitusiyasına and içən dövlət başçımız verdiyi bütün vədlərin yerinə yetirilməsi üçün gecə-gündüz çalışdı və buna nail oldu. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağını, işğalçı ermənilərin qədim və müqəddəs torpaqlarımızdan çıxarılacağını, məcburi köçkünlərin öz dədə-baba yurdlarına geri dönəcəklərini qəti əminliklə bəyan etmişdi; cənab Prezident, müzəffər Ali Baş Komandan bu vədinə də xilaf çıxmadı, bu sözünü də yerinə yetirdi – Azərbaycan ordusu Ermənistanın hərbi birləşmələri tərəfindən zəbt olunmuş ərazilərini azad etdi.

Belə bir ibrətamiz deyim var: əgər sülh istəyirsənsə, o zaman müharibəyə hazırlaşmalısan. Azərbaycan Respublikası torpaqlarımızın işğal altında olduğu bu onilliklər ərzində bir qayda olaraq münaqişənin dinc yolla, danışıqlar vasitəsilə, diplomatik yolla həllinə tərəfdar olub və bunu





əməli şəkildə sübut edib. Ölkə rəhbərliyi daim danışıqlara sadiq olmuş, konstruktiv mövqe nümayiş etdirmişdir. Sülhpərvər xarici siyasət yeridən rəsmi Bakı danışıqlar heç bir nəticə vermədiyi təqdirdə işğal edilmiş ərazilərimizin azad edilməsi naminə bütün məqbul üsullardan istifadə ediləcəyini dəfələrlə bildirmişdi: Azərbaycan heç vaxt torpaqlarının işğal altında qalması ilə barışmayacaq və bütün ərazilərimizi geri qaytaracaq! Ona görə də Azərbaycanda güclü, texniki təchizatı müasir standartlara cavab verən nizami ordunun formalaşdırılması prosesi prioritet əhəmiyyət kəsb edirdi. Mübariz, güclü Milli Ordu quruculuğu həm ulu öndər Heydər Əliyevin, həm də cənab İlham Əliyevin xüsusi önəm verdikləri mühüm bir məsələ idi.

Ümummilli lider Heydər Əliyevin yaratdığı və formalaşdırdığı Azərbaycan Milli Ordusu hazırda dünyanın güclü ordularından biridir; belə ki, rəşadətli ordumuz dünyanın 30 ən güclü ordusundan biridir. Bu mübariz ordu işğal altında olan torpaqlarımızın tamamilə azad edilməsi üçün bütün zəruri vasitələrlə təmin edilmişdir. Azərbaycan Milli Ordusu Vətənin ərazi bütövlüyünün bərpa edilməsi naminə döyüşə atılmaq üçün böyük ruh yüksəkliyinə malikdir və bunu 2016-cı il 4 günlük aprel döyüşləri də, 2020-ci il Tovuz döyüşləri də, həmin il sentyabrın 27-də başlayan 44 günlük İkinci Qarabağ müharibəsi – uğurlu döyüş əməliyyatları da sübut etdi. Prezidentimiz İlham Əliyev ulu öndərin siyasətinə sadiq qalaraq, torpaqlarımızın bir qarışının da düşmənə verilməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına xalqımızın heç vaxt yol verməyəcəyini dəfələrlə və qətiyyətlə bəyan et-

miş və bunu əməldə gerçəkləşdirmişdir.

Fəxr edirik ki, Ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan siyasətini və ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev hazırda çox böyük uğurla və həm də qətiyyətlə davam etdirir. Bu uğurları davamlı olaraq biz həyatımızın demək olar ki, bütün sahələrində görürük. Təbiidir ki, hərbi sahə də istisna deyil. 44 günlük İkinci Qarabağ müharibəsindəki şanlı qələbə, Ermənistanın faktiki təslim olması bunun bariz nümunəsidir. Ölkə Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən "Biz müdafiədə deyil, hücumda olmalıyıq" - deyərək erməni işğalçılarına qarşı effektiv əks-hücumun təşkilini ordumuzun qarşısında duran mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Elə bu taktika da son illərin döyüşlərində effektivliyini sübut etmişdir. İstər 2016-cı il Aprel döyüşləri, istər 2018-ci il "Günnüt" əməliyyatı, istərsə də İkinci Qarabağ müharibəsi zamanı ermənilər öz destruktiv mövqelərinə uyğun hərəkət etmiş, atəşkəsi pozmuş, təxribat törətmiş və dövlət sərhədini pozmağa cəhd göstərmişlər. Torpaqlarımızın 20 faizini işğal edən Ermənistan yeni-yeni ərazilərimizi də zəbt etmək həvəsi ilə hücuma birinci olaraq keçmişdir. Bütün hallarda onların qarşısı nəinki müvəffəqiyyətlə alınmış və Ermənistan qoşunları geri oturdulmuş, üstəlik cəsur ordumuzun uğurlu əks-hücumu nəticəsində 2016 və 2018-ci illərdə bir sıra ərazilərimiz də azad edilmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprelində cəbhə xəttində rəşadətli Azərbaycan Ordusunun əks-hücumu və erməni hərbi birləşmələrinə vurduğu ağır zərbələr nəticəsində erməni silahlı birləşmələri ciddi itki – həm canlı qüvvə və həm də texnika sarıdan – verərək geri çəkilmişdilər. 4 günlük müharibə zamanı igid əsgərlərimiz bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini ələ keçirmiş və üçrəngli bayrağımızı işğalçılardan azad edilmiş həmin ərazilərimizdə dalğalandırmışdılar. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelərimiz erməni hərbi birləşmələrindən azad olunmuşdu. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin verdiyi məlumata görə, "erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi"[53].

Hazırda işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində dövlətimizin hərtərəfli qayğısı və dəstəyi sayəsində soydaşlarımız üçün hər cür şəraiti olan evlər tikilmiş, infrastruktur formalaşdırılmış, insanlarımız bütün zəruri vasitələrlə təmin edilmişlər. Haşiyə çıxaraq onu da qeyd edək ki, bu gün artıq azad edilmiş və ermənilər tərəfindən viran edilmiş cənnət sımalı, behişt camallı Qarabağın işğaldan

[53] https://mod.gov.az/az/pre/21662.html

azad olunmuş ərazilərində gecəli-gündüzlü quruculuq işləri gedir, dövlətimizin hərtərəfli qayğısı və diqqəti ilə regionun bütün kənd, qəsəbə və şəhərlərində intensiv şəkildə infrastruktur yenidən bərpa olunmaqdadır. Tezliklə bu ərazilərimiz yenidən əvvəlki gözəlliyinə qovuşacaq və hətta daha da möhtəşəm olacaq, daha da yüksək səviyyədə inkişaf etdiriləcək. Yetər ki, müqəddəs torpaqlarımız artıq erməni hərbçilərinin tapdağından qurtulmuş və qurub-yaratmaq həyat amalı olan yurddaşlarımız azad olunmuş tarixi torpaqlarımıza yenidən qədəm qoymağa başlamışlar.

Beləliklə, qəti əminliklə deyə bilərik ki, 2016-cı il Aprel döyüşləri Böyük qayıdışın başlanğıcı oldu. Əslində, elə bu döyüşlərdən dərhal sonra həmin hərbi əməliyyatın "Böyük qayıdış"ın başlanğıcı olduğu böyük ruh yüksəkliyi ilə bəyan edilmişdi.

Aprel döyüşləri qəhrəman Azərbaycan ordusunun yenilməzliyini, mərdliyini, əsl şücaətini göstərdi!

Aprel döyüşləri Ermənistan qoşunlarının əsgərlərimiz qarşısında nə qədər aciz durumda olduğunu sübut etdi!

Aprel döyüşləri Böyük qayıdışın çox yaxında olduğunu "bəyan etdi"!

Aprel döyüşləri Azərbaycan xalqının bir qarış belə, torpağı ermənilərin tapdağı altında saxlamayacağını göstərdi!

Aprel döyüşləri zamanı Azərbaycan insanpərvərlik nümayiş etdirdi və beynəlxalq hüququ, humanitar normaları daim pozan, dinc əhalinin yaşadığı müxtəlif məntəqələrə - şəhər və kəndlərimizə artilleriya və raket zərbələri endirən Ermənistandan fərqli olaraq yalnız hərbi hədəflərə zərbə endirdi. Bunu erməni hərbi həkimləri də sonradan etiraf et-





mişdilər. Məsələn, Ağdərə hospitalının həkimi qeyd etmişdi ki, Azərbaycanın hərbi pilotsuz uçuş aparatı (PUA) hospitalın üzərində fırlanaraq müşahidə aparsa da, bu obyektə heç bir zərbə endirməmişdir. Azərbaycan PUA-ları ermənilərin hərbi obyektlərini, cəbhəyə dislokasiya olunan ehtiyat qüvvələrini aşkarlayaraq məhv edirdi. Ağdərə hospitalının üzərindəki uçuşdan bir qədər əvvəl də Azərbaycan PUA-lar vasitəsilə Suqovuşanda qərargah və sursat anbarını dağıtmışdı. Lakin Azərbaycan ordusu heç bir halda düşmənin qeyri-hərbi obyektlərinə, dinc vətəndaşlarına zərbə vurmamışdır.

Prezident İlham Əliyev Aprel döyüşləri ilə bağlı qeyd etmişdir ki, "Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və

özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın"[54]. Yenə də haşiyə çıxaraq qeyd edək ki, cənab Prezidentimiz həmişə olduğu kimi o zaman da Azərbaycanın gücünün, qüvvəsinin nəyə qadir olduğunu dəqiq və sərrast vurğulamışdı. Dediyi hər kəlmənin, verdiyi hər vədin, bəyan etdiyi hər bir sözün arxasında möhkəm dayanan və onu tam yerinə yetirən Silahlı Qüvvələrin Ali Baş Komandanı deyirdi ki, biz pilotsuz uçuş aparatlarımızdan və s. texnikadan istifadə etsək, düşmən tamamilə məhv ediləcək. Bu, söz xatirinə deyilmiş sözlər deyildi, bu, həqiqət idi, bu, Ermənistana gerçək xəbərdarlıq idi. Bu gün – Aprel döyüşlərindən 4 il sonra – 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsindən sonra cənab İlham Əliyevin bu sözləri əbəs demədiyinin bir daha şahidi oluruq.

2016-cı il aprelin 5-dən etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırıldı. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdi. Dörd günlük döyüşlər zamanı ermənilər canlı qüvvə və texnika baxımından ciddi itki verdi, yüzlərlə yaraqlı isə yaralandı. Sonradan Ermənistanda üç yüksək rütbəli hərbi və müdafiə rəsmiləri dördgünlük müharibədə uğursuzluğa görə işdən qovuldular.

2020-ci il noyabrın 23-də işğaldan azad edilmiş Ağ-

[54] İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüş keçirib / https://president.az/articles/23230





damda səfərdə olarkən müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi məsələsinin hər an gündəmdə prioritet məsələ olduğuna diqqəti çəkərək demişdir: "Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır"[55]. Həqiqətən də ötən illər ərzində ölkə rəhbərliyi tərəfindən beynəlxalq müstəvidə böyük işlər görülürdü. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul edilmişdi, sonradan isə BMT Baş Assambleyası, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası müvafiq qərar və qətnamələr qəbul etmişdilər. Bu hüquqi baza Azərbaycanın hələlik yalnız siyasi müstəvidə qələbə qazanmasını göstərirdi

İşğalçı Ermənistan üzərində möhtəşəm qələbə qazanmaq naminə düşünülmüş siyasət yeridən, bu yolla addım-addım irəliləyən müdrik Azərbaycan rəhbərliyi ölkə iqtisadiyyatının güclənməsi və iqtisadi potensialımızın daha da

[55] https://president.az/articles/47685

artırılması üçün lazımi islahatlar aparırdı. İqtisadi cəhətdən müstəqil olmayan hər hansı dövlət siyasi müstəqillik də əldə edə bilməz. Digər bir mühüm məsələ Azərbaycanın hərbi qüdrətinin artırılması idi ki, Prezident bunu ən prioritet məsələlərdən hesab edirdi. Məlum olduğu kimi, hazırda ölkəmizin hərbi büdcəsi Ermənistanın hərbi büdcəsindən demək olar ki, 5 dəfə çoxdur. Prezidentimizin vurğuladığı kimi, "bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə də bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları "Azadlıq" meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi"[56].

Məlum olduğu kimi, humanist, sülhpərvər siyasət yeridən Azərbaycan rəhbərliyi torpaqlarımızın yalnız sülh və danışıqlar yolu ilə qaytarılacağına çalışır, hərbi əməliyyatları yalnız son çıxış yolu hesab edirdi. İlham Əliyev bəyan edirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın qeyri-konstruktiv, aqressiv mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq

[56] "Azərbaycanı Cənubi Qafqazda yenilməz güc sahibinə çevirən 44 möhtəşəm gün" / "İki sahil" qəzeti, 2 dekabr 2020-ci il





norma və prinsiplər də qəbul edir. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilmişdir. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik. Ermənistanın hazırkı rəhbərliyi isə daha aqressiv bəyanatlar verərək, danışıqlara heç bir yer qoymurdu. Üstəlik, erməni hərbi birləşmələri atəşkəs dövründə də daim təxribatlar törətməkdə, dinc sakinləri güllləbaran etməkdə davam edirdi.

Aprel döyüşlərindən cəmi 2 il sonra – 2018-ci il mayın 20-27-də Naxçıvan Muxtar Respublikasında ermənilər tərəfindən növbəti hərbi münaqişə törədildi; nəticədə, eyni adlı kəndin adı ilə adlanan "Günnüt əməliyyatı" baş verdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı işğalçılardan azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə qüdrətli Azərbaycan ordusunun nəzarəti altına keçdi. "Günnüt əməliyyatı" adlanan bu döyüşlər nəticəsində ümumi olaraq 11.000 hektarlıq ərazi azad edildi. 2016-cı ilin Aprel zəfərinin davamı olan Günnüt döyüşlərində Qızılqaya yüksəkliyi işğalçılardan tamamilə təmizləndi. O zaman Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna mübariz ordumuzun nəzarət etməsinə imkan verməsidir. Həyata keçirilən əməliyyat nəticəsində paytaxt İrəvanı Ermənistanın cənubu və eləcə də işğal altındakı Qarabağ ərazisi ilə birləşdirən əsas magistral yolun mühüm bir hissəsinin Əlahiddə Ümumqoşun Ordu bölmələrinin bir neçə istiqamətdə tam

vizual nəzarəti altına keçməsi idi və mühüm hərbi üstünlük demək idi[57].

2018-ci ildə Əlahiddə Ümumqoşun Ordusunun keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində qazanılan "Günnüt qələbəsi" sayəsində müzəffər ordumuz Sədərək istiqamətindəki ətraf əraziləri də nəzarətə götürdü. Müdafiə məqsədilə süni təpəciklərin yaradılması, mühəndis-istehkam işlərinin möhkəmləndirilməsi, ərazilərin minalardan təmizlənərək etibarlı qorunması Sədərək rayonunun həmin ərazilərində lazımi təsərrüfat işlərinin görülməsinə şərait yaratdı. 2018-ci il iyunun 26-da ölkə başçısı İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda çıxış edərkən bildirmişdir: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı bu bayram ərəfəsində - keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi

[57] https://mod.gov.az/az/prc/23254.html





bütövlüyünü bərpa etsin"[58].

Ermənistanın baş naziri Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən bir qədər sonra Ermənistan rəhbərliyi daha aqressiv və məntiqsiz siyasət yeritməyə başladı. Onun siyasətçiyə yaraşmayan hərəkətləri, qeyri-ciddi davranışları, məsuliyyətsiz çıxışları Ermənistanın bugünkü kapitulyasiyasını sürətləndirdi. Belə ki, Ermənistanın əvvəlki rəhbərlərinin etmədiklərini və demədiklərini siyasətlə heç bir əlaqəsi olmayan bu baş nazir etməyə başladı. Onun Şuşada rəqs etməsi, qondarma "Dağlıq Qarabağ Respublikası"nın paytaxtını Şuşaya keçirmək planı, Şuşada qondarma rejimin inaqurasiya mərasiminin keçirilməsi və nəhayət, "Qarabağ Ermənistandır." kimi sərsəm bəyanatı fəqət iki ölkə arasındakı münasibətləri daha da gərginləşməyə, danışıqlar prosesini tamamilə pozmağa xidmət edirdi. Onun "Qarabağ Ermənistandır." kimi destruktiv bəyanatından sonra axı hansı danışıqlardan söhbət gedə bilərdi ki?! ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən danışıqların format və prinsipləri müəyyən olunmuşdu və bu, həm Azərbaycan, həm də Ermənistan tərəfindən qəbul edilmişdi. Ermənistanın baş naziri isə bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparılmalı olduğunu bəyan edirdi. Heç bir hüquqa və məntiqə sığmayan bu sərsəm bəyanatın müəllifi olan baş nazir özü də yaxşı bilirdi ki, bu qondarma qurumu Ermənistan özü də daxil olmaqla

[58] http://yap.org.az/az/view/news/28157/ali-bash-komandan-naxchivan-emeliyyati-gosterdi-ki-azerbaycan-ordusu-guclu-ordudur-ve-istenilen-vezifeni-yerine-yetire-biler

heç bir dünya ölkəsi tanımamışdır.

Bundan başqa, 2020-ci ilin iyul döyüşləri, avqust təxribatı məhz Ermənistan tərəfindən törədilmişdi. Bəs iyulda və avqustda nə baş vermişdi?

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki mövqelərini ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərmişdilər. İyulun 13-14-də Tovuz rayonu istiqamətində şiddətli döyüşlər zamanı ermənilərə sarsıdıcı zərbələr endirildi. Ermənistan qoşunlarının 100-ə qədər canlı qüvvəsi, çoxlu sayda döyüş və nəqliyyat texnikası, mühüm obyektləri məhv edildi. Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) vuruldu və ermənilərin atəş mövqeyində yerləşən artilleriya qurğusu döyüş heyəti ilə birlikdə məhv edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il oktyabrın 4-də "Əl-Ərəbiyyə" telekanalına müsahibə verərkən demişdir: "Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə Ermənistan iyul ayında bizə qarşı hərbi





hücuma keçdi və biz onlara adekvat cavab verdik"[59]. Tovuz istiqamətində hərbi əməliyyatlar zamanı Ermənistanı heç bir dövlətin və ya təşkilatın dəstəkləməməsi işğalçı ölkənin diplomatik baxımdan növbəti uğursuzluğu oldu. Hətta Ermənistan üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) rəsmən müraciət etsə də buna heç bir cavab verilmədi. Belə ki, Ermənistanın bu təşkilata haqsız müraciəti ciddiyə alınmadı. Ermənistanın iyulun 12-də bu qurumdan xahiş edərək təcili olaraq KTMT-nin iclasının keçirilməsi tələbinə məhəl belə, qoyulmadı. Ölkə Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələyə toxunaraq göstərdi ki, KTMT-nin Ermənistandan başqa bütün üzvləri Azərbaycanın dostlarıdır.

2020-ci ilin avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərildi. Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi. Cəbhənin bu istiqamətində yerləşmiş yenilməz və qəhrəman Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində əks tərəf itki verərək geri çəkilməyə məcbur edildi. Döyüş ərəfəsində erməni diversiya qrupunun komandiri, baş leytenant Q.Alberyan əsir götürüldü. Diversiya qrupu başçısının ifadələrinə əsasən, bu qrup

[59] https://president.az/articles/41712

Azərbaycana məhz terror aktları törətmək üçün göndərilmişdi.

Bütün bu hadisələrlə yanaşı, Ermənistanın hərbi və siyasi rəhbərliyi İkinci Qarabağ müharibəsi başlamamışdan bir müddət öncə də açıq-aşkar yeni müharibəyə hazırlaşdıqlarını və Azərbaycanın yeni ərazilərini işğal etmək niyyətində olduqlarını bəyan etmişdi. Ermənistanın müdafiə naziri Amerika Birləşmiş Ştatlarında olarkən demişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə başlayacaq. İkinci Qarabağ müharibəsi başlamamışdan bir neçə gün öncə - sentyabrın 24-də cənab Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatları zamanı bu məsələni bəyan etmişdi. O, ümumi debatlarda videoformatda çıxış edərkən bildirmişdi ki, "Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna – Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarca dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir"[60]. Dövlət başçımız daha sonra əlavə etmişdi ki, Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob

[60] Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib. "Respublika" qəzeti, 26 sentyabr 2020





bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını bir daha nümayiş etdirir. Prezidentimizin çıxışında BMT və beynəlxalq ictimaiyyət Ermənistan Respublikasını növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edilmişdi.

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ – ZƏFƏR TARİXİMİZİN ŞANLI SƏHİFƏSİDİR

İkinci Qarabağ müharibəsinin başladığı gün – sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladılar. 30 il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, danışıqlar masası arxasında, beynəlxalq hüquq əsasında ədalətli şəkildə həll olunması üçün səylə çalışan Azərbaycan Respublikası sentyabrın 27-ə qədər məhz bu istiqamətdə fəaliyyət göstərdi. Lakin ermənilərin bütün cəbhə boyu genişmiqyaslı hücuma keçməsi, baş nazir N.Paşinyanın son vaxtlar verdiyi sərsəm bəyanatlar və Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-konstruktiv mövqeyi münaqişənin hərbi yolla həllindən başqa heç bir digər yolun qalmadığını sübuta yetirdi. Ermənistan silahlı qüvvələrinin hücumunun elə ilk günü, sentyabrın 27-də rəşadətli ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində bir sıra kəndlər erməni işğalçılarından təmizləndi: Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri; Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri; Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əks-hücum əməliyyatının başladığı vaxtdan bir an belə, hadisələri diqqətdən kənarda





qoymadı, gecə-gündüz cəbhə xətti ilə operativ əlaqə saxladı, ordumuza, komandirlərə bütün lazımi göstəriş və əmrləri verdi – bir sözlə, igid sərkərdə kimi əsgər və zabitləri öz ətrafında səfərbər etdi. O, eyni zamanda, ölkəmizin ətrafında hadisələrlə bağlı informasiya blokadasının aradan qaldırılmasında da, baş verənlər barədə obyektiv, operativ, arqumentli, faktlara söykənən məlumatların yayılmasında da yetərincə fəal idi. Məsələn, Prezidentimizin ilk müsahibələrindən biri İkinci Qarabağ müharibəsi başlayandan cəmi 2 gün sonra - sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında oldu. Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə İlham Əliyev verilişin aparıcılarının suallarına dəqiq, tutarlı və məntiqli cavabları ilə aciz durumda olan Ermənistanın baş nazirindən tamamilə fərqləndi. Aparıcıların Türkiyənin əməliyyatlarda rolu ilə bağlı sualına cavab olaraq cənab İlham Əliyev qeyd etdi ki, Türkiyə bizə mənəvi dəstək göstərir. Qardaş xalq həmişə - bütün çətin məqamlarda, tarixin taleyüklü dönəmlərində Azərbaycanın yanındadır. Ölkəmizin başçısı demək olar ki, bütün xarici KİV-lərə müsahibələrində bu məsələyə toxundu və qəti şəkildə bildirdi ki, Türkiyənin Azərbaycanın yanında olması yalnız mənəvi məsələdir, başqa heç nə. Türkiyə Azərbaycanı İkinci Qarabağ müharibəsində siyasi və diplomatik kontekstdə dəstəkləyir. Bu dəstəyə görə biz Türkiyə Cümhuriyyətinə, bütün qardaş türk xalqına minnətdarıq. Türkiyə bizə qardaş, dost ölkədir, münaqişənin bütün dövrlərində bizim yanımızda olub. Türkiyə beynəlxalq aləmdə də, beynəlxalq təşkilatlarda da Azərbaycanın

haqlı mövqeyini həmişə dəstəkləyib. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə çox mühüm bəyanatlar verdi. İkinci Qarabağ müharibəsi başlayan zaman parlamentin açılış sessiyasında çıxış edərkən o, daha bir mühüm bəyanat verdi ki, Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan tək deyil.

Qədirbilən Azərbaycan xalqı qardaş Türkiyənin ölkəmizə dəstəyini həmişə yüksək qiymətləndirmişdir və bu, bütün səviyyələrdə özünü büruzə vermişdir; yəni yaşından, sosial durumundan və ictimai-siyasi mövqeyindən asılı olmayaraq bütün azərbaycanlılar türklərə səmimqəlbdən, qardaş məhəbbəti bəsləmişlər. Ulu öndər Heydər Əliyevin "Bir millət - iki dövlət" kəlamı həqiqətən də hər iki dövlətin vətəndaşları tərəfindən onların qəlbindən, ürəyindən xəbər verən fikir kimi qəbul olunur. 2020-ci il dekabrın 10-da Bakıda "Azadlıq" meydanında Zəfər Paradı keçirildi, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da tədbirdə iştirak edirdi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyev dəfələrlə olduğu kimi, yenə də Türkiyəyə, qardaş ölkənin rəhbərliyinə və bütün sıravi türk vətəndaşlarına öz dərin minnətdarlığını bildirdi: "Bu gün Türkiyə-Azərbaycan tarixində çox əlamətdar bir gündür, önəmli bir gündür. Bu gün biz birlikdə Zəfər paradını seyr edərkən bir-birimizi təbrik etdik. Bu Zəfər münasibətilə xalqlarımızı təbrik etdik. Bu tarixi Zəfər bizim birliyimizin təcəssümüdür. Türkiyə və onun Cümhurbaşqanı müharibənin ilk saatlarından Azərbaycana, Azərbaycan xalqına öz dəstəyini göstərmişdir. Onun bəyanatları həm Azərbaycan xalqı üçün





çox dəyərli, qiymətli idi, eyni zamanda, bütün dünyaya bir mesaj idi ki, Azərbaycan tək deyil, Azərbaycana heç kimsə maneə olmasın, Azərbaycan haqq davasına çıxıbdır, Vətən savaşına çıxıbdır və Türkiyə Azərbaycanın yanındadır. Bu mesaj, əslində, həmrəyliyin bir təcəssümü idi, onu göstərdi ki, Azərbaycan öz haqlı davasında haqlıdır. Biz tarixi ədaləti bərpa etdik. Biz uzun illər sürən işğala son qoyduq. Türkiyə kimi qardaşımızın yanımızda olması bizi daha da ruhlandırırdı, bizə əlavə güc verirdi. Biz gücdən istifadə edərək öz tarixi torpaqlarımızı işğalçılardan azad etdik"[61]. Necə də sərrast və səmimi deyilmiş sözlərdir! Ərdoğan Türkiyəsini dünya üçün müstəqillik, mərdlik, cəsarət və inkişaf örnəyi hesab edən Prezidentimizin sözlərinə görə, dünyada məhz Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ölkə yoxdur. Burada söhbət təkcə coğrafi yaxınlıqdan getmir, çünki coğrafi yaxınlıqdan da üstün olan meyar məhz mənəvi yaxınlıqdır. Türkiyə-Azərbaycan birliyi sarsılmazdır, əbədidir, səmimidir, iki doğma qardaşın ayrılmaz bağlılığıdır, mənəvi ittifaqıdır. İşğaldan azad edilmiş və viran edilmiş Qarabağın yenidən dirçəldilməsi və ölkəmizin inkişaf etmiş regionlarından birinə çevrilməsi istiqamətində görüləcək möhtəşəm işləri də iki dövlət əl-ələ verərək birgə edəcəklər. Ölkə Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Qarabağ dünyanın ən gözəl bölgələrindən biri olacaqdır: "Əminəm ki, türk qardaşlarımızın yardımı ilə biz buna nail olacağıq. Biz bu gün artıq konk-

[61] Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər/ https://apa.az/az/apa-tv/xeber/xeberler/azerbaycan-ve-turkiye-prezidentleri-metbuata-birge-beyanatlarla-cixis-edibler-61519

ret layihələr haqqında danışdıq – yol layihələri, dəmir yolları layihələri, infrastruktur layihələri. Bütün bu layihələrdə Türkiyə və Azərbaycan şirkətləri bərabər iştirak edəcəklər. Bütün bu layihələrin qısa vaxt ərzində həyata keçirilməsi bölgəyə yeni nəfəs gətirəcəkdir"[62].

Azərbaycan Respublikasının sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarında və bütövlükdə, İkinci Qarabağ müharibəsində Türkiyənin münaqişənin tərəfi kimi iştirak etməsi isə tamamilə dezinformasiyadır. Təbii ki, ermənilər belə bir saxta məlumatları yaymaqla artıq ilk günlərdən acı məğlubiyyətin dadını hiss etdiklərini sübut edirdilər. Bununla onlar digər ölkələrdən, ilk növbədə KTMT-dən dəstək əldə etmək istəyirdilər. Həm də "məğlubedilməz" erməni ordusunun guya Azərbaycan ordusu ilə döyüşmədiyi barədə fikir yaratmağa cəhd göstərirdilər. Türkiyə Silahlı Qüvvələrinə məxsus F-16 təyyarəsinin guya Ermənistanın SU-25 təyyarəsini vurması xəbəri də tam saxta, feyk xarakterli informasiya idi, heç nəyə əsaslanmırdı. Əcnəbi xəbər agentlik və televiziyalarının hər dəfə toxunduqları, elə hər dəfə də cənab prezident tərəfindən yüksək məntiqlə təkzib edilən bu uydurma xəbər sonradan təbii ki, heç bir təsdiqini tapmadı və tapa da bilməzdi. Əgər Azərbaycan tərəfindən bu qırıcı təyyarələrdən istifadə edilsəydi, belə bir faktı qətiyyən gizlətmək mümkün olmazdı. Biz elə bir dövrdə yaşayırıq ki, peyk vasitəsilə hər bir hadisə qeydə alınır.

"Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Prezident İlham Əliyevin ətraflı və tutarlı çıxışından sonra "Национальная оборона" jurnalının baş redaktoru İqor Korotçenkonun söylədiyi fikirlər də maraqlıdır: "Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün olmazdı. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır"[63].

Digər tərəfdən, Azərbaycan Respublikası Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən bildirildi ki, bu təyyarələr döyüş əməliyyatlarında iştirak etmir və buna heç ehtiyac da yoxdur. Bunu əslində, hadisələrin sonrakı inkişaf mərhələsi də sübut etdi və bütün dünya gördü ki, İkinci Qarabağ savaşında bu təyyarələrdən istifdə edilmədi, onlara heç zərurət də duyulmadı. Bu savaş dünyada baş verən müharibələrin gedişində pilotsuz uçuş aparatlarından (PUA) demək olar ki, kütləvi şəkildə istifadə edildiyi ilk müharibə idi. Doğrudur, 2020-ci ilin fevralında Türkiyə tərəfindən Suriyanın şimalında müəyyən qədər PUA-lar tətbiq edilmişdi. Lakin İkinci Qarabağ müharibəsi PUA-ların geniş formatda istifadə edildiyi ilk müharibədir. Elə bu səbəbdən də dünyanın hərbi ekspertləri tərəfindən

[62] https://president.az/articles/48792

[63] https://president.az/articles/41172

PUA-lardan istifadə praktikası öyrənilir. Həmçinin alınmaz qala, təbii istehkam olan Şuşanın igid əsgərlərimizin inanılmaz şücaəti, misilsiz qəhrəmanlığı ilə, hətta yaxın məsafədən - əlbəyaxa döyüşlərlə azad edilməsi də dünya hərb tarixinə düşmüşdür. Hazırda dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Azərbaycan ordusunun nadir döyüş taktikası öyrənilməkdədir. Məsələn, Almaniya kimi hərbi və iqtisadi cəhətdən inkişaf etmiş dövlət Azərbaycanın 44 günlük müharibə təcrübəsini öyrənməklə bağlı qərar verdi. Belə ki, Almaniya ordusunun yüksək rütbəli hərbçiləri Azərbaycan ordusunun İkinci Qarabağ müharibəsi zamanı istifadə etdiyi pilotsuz uçan aparatlarla bağlı təcrübəni araşdıraraq, hökuməti silahlanma konsepsiyasına yenidən baxmağa çağırmışlar. Almaniyanın "Frankfurter Allgemeine" qəzeti 2021-ci il yanvarın 22-də yazırdı ki, "Federal hökumət dərhal bu pilotsuz döyüş sistemlərinin silahlanmaya daxil edilməsi üçün tədbir görməlidir. Sosial Demokrat Partiyası isə özünün Hans-Peter Barteles, Frits Felgentro və Eva Högel kimi ekspertlərinə qulaq asıb ordunun dronlarla silahlandırılmasını bloklamaqdan əl çəkməlidir".

Xatırladaq ki, ölkəmiz döyüşlər zamanı Türkiyə və İsrail istehsalı olan PUA-lardan istifadə etmişdir. Bu aparatlar müxtəlif profilli - həm hücum, həm kəşfiyyat, həm də "kamikadze" tipli dronlardır. Türkiyənin "Bayraktar TB2" aparatı yüksək texniki göstəricilərə malikdr. Təkcə "Bayraktar TB2" dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etdi. Bir çox hərbi ekspertlər Türkiyəni PUA-lar sayəsində qlobal müdafiə sənayesinin liderlərindən hesab edirlər. İsarilin "Harop", "Heron", Sky Striker, "Hermes-4507" dağıdıcı dronlarından da İkinci Qarabağ müharibəsində istifadə edilib. Məsələn, sentyabrın 29-dan 30-na keçən gecə, saat 00:20 radələrində Azərbaycan Ordusunun İsrail Dövlətinin istehsalı olan "Harop TP" dağıdıcı dronu vasitəsilə dəqiq zərbəsi nəticəsində yüksək rütbəli erməni zabitlərinin toplaşdığı bunker dağıdılmışdır. Ümumiyyətlə, pilotsuz aparatların vurduğu hədəflər arasında, əsasən, hərbi texnika, anbarlar və ya hərbi personal olmuşdur. Hücuma məruz qalan obyektlər sırasında Osa və Strela-10 zenit-raket sistemləri də var. Mətanətli və şücaətli Azərbaycan Ordusunun dəqiq zərbələri nəticəsində erməni hərbi birləşmələrinin 82 "Qrad" qurğusu, 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, bir "TOS" sistemi məhv edilmişdir. Bundan başqa, 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", bir "KRUQ", 2 "S-125" zenit-raket kompleksləri və qurğuları zərərsizləşdirilib. Həmçinin, 6 "S-300" atıcı qurğusu, bir aşkaretmə stansiyası, bir lokator, bir "Toçka-U", 2 Elbrus əməliyyat taktiki raket kompleksləri də hərbçilərimiz tərəfindən məhv edilmişdir.





Yeri gəlmişkən, qeyd edək ki, ölkəmiz də pilotsuz uçuş aparatları istehsal edir. Azərbaycanın "İti qovan" adlanan öz milli döyüş aparatları gecə və gündüz, istənilən mürəkkəb hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona güclü zərbələr endirmək imkanına malikdir.

Daha bir feyk xəbər yenilməz Azərbaycan ordusunun tərkibində guya Suriya muzdlularının döyüşməsi ilə bağlıdır. Erməni millətçiləri həmişə özlərini "məzlum, yazıq

millət" kimi qələmə verir, guya "soyqırımı"na məruz qaldıqlarını uydururlar. Halbuki, hər şey tərsinədir. Məhz onlar türkləri və azərbaycanlıları soyqırımına məruz qoymuş, azərbaycanlıları öz doğma torpaqlarımızdan deportasiya etmişlər. Erməni milləti həmişə musiqimizi, tarixi abidələrimizi, mətbəx mədəniyyətimizi və s. maddi və qeyri-maddi mədəniyyət nümunələrimizi öz adlarına çıxarmışdır. Bu, onların etno-xarakterik xüsusiyyətidir - erməni xislətidir. İkinci Qarabağ müharibəsində də onlar yalnız saxta xəbərlər yaymaqla dünyanı çaşdırmaqla məşğul olmuşlar. Belə ki, Azərbaycan ordusunun tərkibində əcnəbi muzdluların döyüşməsi kimi yalan informasiyalar da məhz ona xidmət edirdi ki, cəsur və mübariz Azərbaycan ordusu guya zəifdir və ölkə rəhbərliyi müharibə qanunlarını pozur, kənardan yaraqlılar dəvət edir. Lakin məlum olduğu kimi, bu məsələdə də onlar bizə böhtan atmış və əslində, özləri muzdluların xidmətlərindən istifadə etmişlər. Erməni tərəfinin döyüşlərdə Orta Şərq ölkələrinin muzdlularından istifadə etmələri ilə bağlı faktlar və videogörüntülər Azərbaycanda var. Bizim ordumuzda guya əcnəbilərin döyüşmələri kimi qeyri-ciddi iddia ilə bağlı isə Silahlı Qüvvələrin Ali Baş Komandanı dəfələrlə müsahibələr zamanı iddiaçılar tərəfindən ortaya fakt və sübut qoyulmasını tələb etmişdir.

Fakt və dəlil isə yoxdur və ola da bilməz. Qəhrəman Azərbaycan ordusunun muzdlulara heç bir ehtiyacı yoxdur, erməni ordusunun isə var. Birincisi, Azərbaycanın əhalisi Ermənistan əhalisindən beş dəfə artıqdır və bu fərq get-gedə daha da çoxalır. Ermənistanda 2 milyon insan yaşayır, ermənilər ağır iqtisadi durum, müxalif siyasi partiya rəhbərlərinə qarşı təzyiqlər, korrupsiya və digər səbəblərə görə ölkəni müntəzəm tərk edirlər. Təbii ki, bizim silahlı birləşmələrimiz – hələ texniki təchizat və mənəvi-psixoloji tərəflərə toxunmuruq – hətta say baxımından belə, düşmən ordusundan üstündür, çoxdur. İkincisi, sonuncu Qarabağ savaşı başlayanda Azərbaycan qismən səfərbərlik etsə də, Ermənistan tam səfərbərlik elan etdi. Bizim tam səfərbərliyə də ehtiyacımız yox idi. Üçüncüsü, Ermənistan ordusunda fərarilik halları kütləvi hal almışdı, son məlumatlara görə bu, 10000 nəfər təşkil edir və bu müharibənin elə ilk günlərindən baş vermişdir. Müzəffər Azərbaycan ordusunda isə bunun tam əksi müşahidə olunurdu: əsgərlərimizin və zabitlərimizin böyük ruh yüksəkliyi, torpaqları işğalçı erməni qoşunlarından tam azad etmək əzmi, könüllü olaraq Dağlıq Qarabağ və işğal olunmuş ətraf 7 rayonda döyüşmək arzusu kütləvi idi. Onların öz həyatlarını qurban vermək bahasına döyüş yoldaşlarını xilas etmək halları və s. yetərincədir. Erməni yalan maşını və erməni psixologiyası bu məsələdə də özünü büruzə verdi və beləliklə, onlar guya muzdlulara qarşı döyüşdükləri barədə yalanları tirajladılar. Azərbaycan Prezidenti müraciət və müsahibələrində dəfələrlə vurğuladı ki, bizim heç bir muzdluya ehtiyacımız yoxdur. Azərbaycanın 100 min nəfərlik peşəkar, yaxşı hərbi-taktiki və texniki hazırlıq keçmiş, ən modern silahlarla təchiz edilmiş ordusu var. Gerçəkdən də bu ordu dünyanın ən güclü ordularından biri hesab olunur.

Oktyabrın 2-də igid sərkərdə - Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı "Əl-Cəzirə" televiziya kana-

lına verdiyi müsahibədə münaqişənin həlli ilə bağlı kifayət qədər hüquqi bazanın olması məsələsinə toxundu. Bildirdi ki, hələ 1993-cü ildə beynəlxalq ali orqan olan BMT-nin Təhlükəsizlik Şurası tərəfindən Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından geri çəkilməsini tələb edən 4 qətnamə qəbul olunmuşdur. Belə ki, 1993-cü il aprelin 30-da Kəlbəcərin işğalından sonra qəbul edilən 822 saylı qətnamə (bu sənəd erməni qoşunlarının təkcə Kəlbəcərdən deyil, ümumiyyətlə, həmin ərəfədə işğal etdiyi bütün Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi), həmin ilin 29 iyulunda Ağdamın işğalından sonra qəbul edilən 853 saylı qətnamə, cəmi üç ay sonra -14 oktyabr 1993-cü ildə işğalçı qoşunların Azərbaycanın Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının ərazilərindən geri çəkilməsini tələb edən 874 saylı qətnamə və nəhayət, hərbi əməliyyatların dərhal dayandırılmasını, ermənilərin Zəngilan və digər rayonlardan çıxarılmasını, həmçinin bundan əvvəl qəbul edilmiş üç qətnaməyə əməl edilməsini tələb edən 884 saylı qətnamə qəbul edilmişdi[64].

Bundan başqa, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti və digər nüfuzlu təşkilatlar da təxminən eyni addımı atmışlar. Avropa Parlamentinin 2020-ci ilin 15 yanvar tarixində Strasburqda keçirilən plenar sessiyası zamanı "Birgə Xarici və Təhlükəsizlik Siyasətinin həyata keçirilməsi üzrə illik məruzə" (Annual report on the implementation of the Common Foreign and

[64] BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri / http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf





Security Policy) adlı qətnamənin 36-cı bəndində Avropa İttifaqı Şərq Tərəfdaşlığının bütün üzv dövlətlərinin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə dəstəklə bağlı öz öhdəliyini növbəti dəfə təsdiqləmişdir. Bundan 10 il əvvəl də Avropa Parlamenti "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb" adlı qətnamə qəbul etmişdi. Bu qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilmiş, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindən və ona bitişik rayonlarından dərhal çıxarılması barədə tələb öz əksini tapmışdı. Digər bir sənəd - Avropa Parlamentinin 2012-ci ildə qəbul etdiyi "Azərbaycan və Ermənistanla assosiasiya haqqında saziş çərçivəsində Avropa İttifaqı ilə danışıqlar üzrə" qətnaməsi də təsdiq edir ki, dünya ictimaiyyəti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Bununla belə, sənəddə qeyd edilir ki, nə qədər ki Azərbaycanın işğal edilmiş əraziləri geri qaytarılmayıb, ərazilər Azərbaycanın nəzarəti altina keçməyib, qaçqınlar öz doğma torpaqlarına qayıtmayıb Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycan və Ermənistanla assosiasiya haqqında saziş də imzalanmayacaq.

Avropa İttifaqının qəbul etdiyi sənədlərdən başqa, ayrı-ayrı ölkələrin parlamentləri, Vaşinqton Senatı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlar qəbul etmişlər. Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını qətiyyətlə pisləyən qətnamə qəbul edib. Pakistandan söz

düşmüşkən onu da vurğulayaq ki, İkinci Qarabağ müharibəsinin başlandığı vaxtdan Pakistan İslam Respublikası Azərbaycana dəstək nümayiş etdirmişdir. Əslində, münaqişə başlayandan, yəni ötən əsrin 90-cı illərindən – SSRİ parçalandıqdan və müttəfiq respublikalar müstəqil dövlətlərə çevrildikdən sonra Pakistan Ermənistanla diplomatik münasibətlər qurmamaış və bu ölkə Azərbaycan torpaqlarını işğal etdiyinə görə Pakistan tərəfindən rəsmən tanınmamışdır. Azərbaycan dövləti və xalqı da obyektiv mövqe göstərərək, Kəşmir məsələsi ilə bağlı həmişə Pakistanı dəstəkləmişdir. 2021-ci il martın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini və nümayəndə heyətini videoformatda qəbul edərkən, bildirdi ki, "Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır. Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana dirəndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq. Yəni, beynəlxalq hüquq işləmədiyi halda, o, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya əyani şəkildə nümayiş etdirdik"[65].

[65] İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib / https://president.az/articles/50785





ATƏT-in məhz münaqişəni aradan qaldırmaq məqsədilə yaradılan Minsk qrupu isə 28 il ərzində fəaliyyət göstərsə də, heç nəyə nail olmamışdır. Prezidentin qeyd etdiyi kimi, bu qətnamələrin icra edilməməsinin və münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq və sərhədlərin toxunulmazlığı çərçivəsində həll olunmamasının bir səbəbi qeyri-konstruktiv Ermənistandırsa, digər tərəfdən isə BMT qətnamələrinin kağız üzərində qalmasıdır. Dövlətimizin rəbəri bu məsələ ilə bağlı bildirmişdir: "Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı. Çünki 1993-cü ildə Ermənistan ərazilərimizin bir hissəsini işğal etdikdə BMT Təhlükəsizlik Şurası qoşunların bizim ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr kağız üzərində qalmaqdadır. Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Qeyd etdiyim kimi, əsas səbəb Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır. Bir çox hallarda mən bu məsələni qaldırmışam və demişəm ki, Ermənistanı qətnamələrin tələblərinə əməl etməyə məcbur etmək və torpaqlarımızın boşaldılmasına başlamaq üçün ona qarşı beynəlxalq sanksiyalar

tətbiq olunmalıdır"[66].

Ölkə başçısı bəyan etmişdir ki, münaqişənin həlli üçün hüquqi çərçivəmiz var, lakin təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, biz burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir. Məlum olduğu kimi, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakın bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. 27 ildən bəri bu sənədlərin icrası istiqamətində qətiyyən heç bir addım atılmamışdır. Əslində, qətnamələrin qəbul edilməsindən sonrakı aylarda Ermənistana – işğalçı ölkəyə qarşı sanksiyalar tətbiq edilməliydi. BMT-nin bu cür təcrübələri vardır. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin bu qədər uzun çəkməsinin əsas səbəblərindən biri olmuşdur.

Məlum olduğu kimi, "Vətən", "torpaq" anlayışlarının heç bir mənəvi dəyər kəsb etmədiyi pərakəndə ermənilər firavan həyat naminə dünyanın dörd bir yanına səpələnmiş və çoxsaylı diaspor və etiraf edək ki, güclü lobbi formalaşdırmışlar. Torpaqlarımızın 30 il əvvəl işğal olunmasında erməni lobbisi və diasporunun, həmçinin bu lobbinin təsirinə məruz qalan bir çox dövlətlər Ermənistana dəstək vermişlər. Belə bir dəstək İkinci Qarabağ müharibəsi zamanı da özünü aydın büruzə verirdi. Məsələn, Fransa açıq-aşkar Ermənistanı, qondarma "Dağlıq Qarabağ Respublikası"nı

[66] https://president.az/articles/41429





dəstəkləyir. 2020-ci il noyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan və Ermənistan arasında Azərbaycanın Dağlıq Qarabağ regionunda müharibənin dayandırılması ilə bağlı imzalanmış üçtərəfli bəyanatdan bir qədər sonra – noyabrın 25-də Fransa Senatı qondarma qurumu və separatçı rejimi tanıyan qətnamə qəbul etdi. Sənəddə göstərilirdi ki, "Fransa Avropada "erməni soyqırımı"nı tanıyan ilk ölkə oldu, indi də Dağlıq Qarabağın müstəqilliyini tanıyan ilk dövlət olmalıdır"[67]. Lakin bütün bu ikili standartlara və qərəzli mövqelərə baxmayaraq, Azərbaycan dünyanın əksər ölkələrinin, beynəlxalq hüquqa hörmət edən, dövlətlərin ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını müdafiə edən, terrorizmi və separatizmi pisləyən dövlətlərin dəstəyini qazandı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2021-ci il yanvarın 7-də ötən 2020-ci ilin yekunlarına həsr olunmuş videokonfrans şəklində müşavirədəki giriş nitqində bu məsələyə ətraflı toxundu: "Baxmayaraq ki, dünyada kifayət qədər güclü erməni lobbisi var. Dünyada bir çox aparıcı dövlətlər Ermənistanı dəstəkləyir və müharibə dövründə biz bunu açıq-aşkar görürdük, bəzi ölkələr bunu gizlədə bilmirdilər. Bu dəstək Ermənistana nə verdi? Heç nə. Bizim gücümüz, iradəmiz qarşısında bu dəstək sıfıra bərabər oldu. Hər kəs gördü ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən deyəndə ki, biz axıra qədər gedəcəyik, sözümə əməl etdim. O vaxt dayandıq ki, Ermənistan öz alçaldıcı məğlubiyyətini etiraf etdi, diz

[67] Fransa Senatı terrorçuları "tanıdı": Paris Qarabağda yeni müharibə istəyir - GÜNÜN MÖVZUSU / https://news.milli.az/politics/900086.html

çökdü, ağ bayraq qaldırdı, təslim oldu. Hesab edirəm ki, bu, Ermənistan üçün tarixi dərs oldu. Onlar bir daha Azərbaycan xalqının böyüklüyünü gördülər"[68].

Ərazi bütövlüyü bərpa olunduqdan sonra təbii ki, Azərbaycanın dövlət sərhədlərinin də müvafiq şəkildə bərpası məsələsi aktuallaşmışdır. Ölkəmizin 30 ilə yaxın müddət ərzində zəbt olunmuş əraziləri işğaldan azad edildikdən sonra İran və Rusiya ilə dövlət sərhədləri yaranmışdır. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə yekun çıxışında dövlət sərhədi məsələsi ilə bağlı demişdir: "Sərhədlərin qurulması istiqamətində təxirəsalınmaz işlər aparılmalıdır. Çünki bizim Ermənistanla 100 kilometrlərlə sərhədimiz yaranıb. Yəni, artıq bu sərhəd bizim nəzarətimizə keçib. Orada bütün sərhəd infrastrukturu təşkil edilməlidir. Dövlət Sərhəd Xidmətinə müvafiq göstərişlər verilib. Hazırda Dövlət Sərhəd Xidməti Zəngilan-Qubadlı sərhədinin mühafizəsi ilə məşğuldur. Kəlbəcər-Laçın istiqamətində Müdafiə Nazirliyinin qoşunları xidmət göstərirlər. Gələcəkdə bu məsələyə də baxılacaq. Hər halda sərhədin mühafizəsi xüsusi əhəmiyyət daşıyır. Çünki Ermənistanda revanşist qüvvələr var və biz onların bəyanatlarını diqqətsiz qoya bilmərik. Amma hər kəs bilməlidir ki, əgər bizim sərhədlərimiz pozularsa, onu pozan mütləq cəzalandırılacaq və belə təxribatlar bu qüvvələrə çox baha başa gələcək"[69]. 2021-ci il aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad

[68] https://president.az/articles/49937

[69] Prezident: "Ermənistanla sərhədlərin qurulması istiqamətində təxirəsalınmaz işlər aparılmalıdır" / https://pravda.az/news/34171





edilmiş bölgələrimizə növbəti səfəri zamanı bu məsələyə bir daha toxunaraq qeyd etdi ki, Azərbaycan-İran sərhədi tam bərpa edilmişdir, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilmişdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işlərinin görülməsinə başlanımışdır. Azərbaycan sərhədçiləri hazırda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruyurlar. Bu sərhəd də bərpa edilmişdir və sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır. Ermənistanla sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi. İkinci Qarabağ müharibəsində Azərbaycan zəfər qazanaraq bu sərhədi də tam bərpa etmişdir.

İkili standartlar özünü İkinci Qarabağ müharibəsi zamanı Ali Baş Komandandan müsahibələr alan bəzi KİV nümayəndələrinin hadisələrə yanaşmalarında, verdikləri suallarda da özünü qabarıq şəkildə göstərirdi. Əslində isə jurnalistlər tam bitərəf olmalı, hansı mövqedə olduqlarını hiss etdirməməli, yalnız obyektiv informasiya verməlidirlər. Cənab İlham Əliyev dəfələrlə və bütün müsahibələrində birmənalı şəkildə Türkiyənin Azərbaycana yalnız mənəvi və siyasi dəstək göstərdiyini vurğulamasına baxmayaraq, jurnalistlər bəzən erməni mövqeyindən çıxış edir və eyni məsələlərə təkrar-təkrar toxunurdular. Məsələn, Fransanın Xarici İşlər nazirinin xəbərdarlığına görə, "Türkiyənin Azərbaycanın arxasında durması bu münaqişənin beynəlxalq münaqişəyə çevrilməsinə gətirə bilər" kimi məsuliyyətsiz və qərəzli fikrə münasibət bildirən cənab Ali Baş Komandan buna çox sərrast və tutarlı cavab vermişdir:

"Türkiyə regionda və xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə sabitləşdirici rol oynayır. Hər bir ölkənin tərəfdaşı və ya müttəfiqi ola bilər. Azərbaycan və Azərbaycan xalqı Türkiyə kimi tərəfdaşa, müttəfiqə və qardaş ölkəyə malik olmaqdan çox xoşbəxtdir. Biz Ermənistanın Fransanı özünə müttəfiq hesab etməsinə etiraz bildirmirik və Fransa hazırda Ermənistana ən çox dəstək göstərən ölkədir. Eyni zamanda, biz görürük ki, müttəfiqlərin seçilməsi ölkələrin özündən asılıdır. Məsələn, Fransanın xarici işləri naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat deyil və o, bunun münaqişəni beynəlxalq bir münaqişəyə çevirəcəyini düşünmür. Lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə bu, narahatçılıq yaradır. Səmimi desəm, bir NATO ölkəsinin digər NATO ölkəsinə qarşı belə hərəkət etməsini başa düşə bilmirəm. NATO-ya üzv ölkələr müttəfiq olmalıdırlar, lakin biz bunu görmürük"[70].

Fransa ilə bağlı bir məqama da toxunaq ki, Minsk qrupunun üç həmsədrindən biri və bununla da əslində, həm Ermənistana, həm də Azərbaycana bitərəf münasibət bəsləməli olan Fransa Respublikası İkinci Qarabağ müharibəsi zamanı və aktiv döyüş əməliyyatları bitdikdən sonra belə, Ermənistanı açıq-aşkar dəstəkləməkdən çəkinməmişdir. Hətta Azərbaycan müharibədə qalib gəldikdən, üç ölkənin - Rusiya, Azərbaycan və Ermənistanın iştirakı ilə birgə üçtərəfli bəyanat imzalandıqdan və döyüşlər dayandıqdan sonra belə, bu razılaşma Fransaya sərf etməmişdir. Bunu

---

[70] "44 günlük diplomatiya dərsləri" / ideya müəllifi A.Mustafazadə. Bakı 2021.





ölkə Senatının qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanıması da sübut edir. Belə çıxır ki, münaqişə tərəfləri razılaşıb birgə bəyanat imzalasalar da, Fransa bu bəyanatla razı deyil və döyüşlərin yenidən başlanmasını istəyir, bu, ona sərf edirmi?! Əks təqdirdə, Senat belə yanlış və qızışdırıcı qərar qəbul etməzdi.

Ümumilikdə, Silahlı Qüvvələrin Ali Baş Komandanı, respublika Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı Rusiya, Türkiyə, Fransa, Böyük Britaniya, İspaniya, Almaniya, İtaliya, Yaponiya və ABŞ-ı təmsil edən KİV nümayəndələrinə üç dildə - rus, türk və ingilis dillərində cəmi 26 müsahibə vermiş və bu müsahibələr zamanı 600-dən çox suala cavab vermişdir. Prezidentin bütün bu müsahibələri, verdiyi sərrast, dəqiq, tutarlı, məntiqi, yeri gələndə bəzən lakonik, bəzənsə ətraflı cavablarının hər biri ayrı-ayrılıqda öyrənilməyə, araşdırılmağa layiq cavablardır. Ölkə başçısının mövzusundan asılı olmayaraq hər bir sualı məharətlə və peşəkarcasına cavablandırması heyrət doğurur. O, özü bu barədə belə demişdir: "İndi Xarici mətbuat da, Azərbaycan xalqı da görür ki, mən bütün bu suallara cavab verirəm və necə lazımdır. Onların səviyyəsinə də düşmürəm. Heç vaxt. Necə lazımdır cavab verirəm də, susurlar da. Çünki cavab verə bilmirlər. Deyirəm get güzgüyə bax, sən burada bizi ittiham etməyə gəlmisən? Sual vermir. Elə bil ki, prokurordur, ittiham edir bizi. Sən kimsən ki? Jurnalistlərə mənim hörmətim böyükdür. Buna görə ondan istifadə edirlər. Mən onlarla belə mülayim tərzdə danışıram. Amma bilirlər ki, istənilən formada danışa bilərəm onlarla. Bax, budur reallıq. Bizə qarşıdır bu

reallıq. Amma biz reallığı dəyişdirdik"[71].

Yuxarıda bir sıra KİV nümayəndələrinin hadisələrə ikili standartlar mövqeyindən yanaşdıqlarını qeyd etdik. Lakin İkinci Qarabağ müharibəsini obyektiv, qərəzsiz şərh edən və işıqlandıran əcnəbi jurnalistlər də az deyildir. Onlar aktiv döyüş əməliyyatlarının getdiyi ərazilərdən xeyli uzaqda yerləşən şəhərlərimizin bombalanması, dinc sakinlərimizin həlak olması və yaralanması ilə bağlı hadisə yerlərindən birbaşa video və foto çəkilişlər aparmış, operativ süjetlər hazırlamışlar. KİV təmsilçiləri Azərbaycan Ordusunun qəhrəmanlıqla dolu mübarizəsinin, torpaqlarımızın azad edilməsinin canlı şahidi olaraq bundan vəcdə gəlirdilər. Məsələn, 2020-ci il noyabrın 7-də Fransanın "Le Monde" qəzetinin müxbiri Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşa şəhəri uğrunda gedən döyüşlər haqqında yazırdı: "Azərbaycan qoşunları hücumun əsas hədəfinə çevrilən tarixi şəhərə - Şuşaya çatdılar. Şuşadakı erməni qoşunları darmadağın edildi. Onlar mübarizəni davam etdirə bilməyəcəklərini görərək, döyüş yerini biabırçıcasına tərk etdilər və dağdan enərək qaçmağa məcbur oldular..."[72]. Ermənipərəst fransız mətbuatının bu dəfə vicdanlı hərəkət edərək belə bir informasiya yayması Azərbaycan Ordusunun, igid əsgərlərimizin şəksiz qələbəsinin, Ermənistanın isə məğlubiyyətinin açıq etirafı idi.

Sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci

[71] Qərəzli suallara müdrik və məntiqli cavablar. "Xalq qəzeti", 31 oktyabr 2020-ci il.

[72] https://www.lemonde.fr/international/article/2020/11/07/la-bataille -de-chouchi-cle-du-conflit-au-haut-karabakh-fait-rage_6058893_3210.html?utm_medium=





Qarabağ müharibəsinin hər bir günü Azərbaycanın işğal olunmuş şəhər, kənd, qəsəbə və strateji yüksəkliklərinin azad edilməsi ilə nəticələnirdi. Ölkə vətəndaşları hamılıqla böyük sərkərdə - müzəffər Ali Baş Komandanımızın müjdə dolu xəbərlərini intizarla gözləyirdilər. Bütün hərbi əməliyyatlar ordumuzun şücaəti, həmçinin Ali Baş Komandanın qətiyyəti sayəsində müvəffəqiyyətlə aparılırdı. Müharibənin ilk günü artıq bir neçə kəndin 30 illik işğaldan azad edildiyini vurğuladıq. Oktyabrın 3-də Madagiz də Ermənistan qoşunlarının tapdağından qurtuldu və onun əvvəlki adı – Suqovuşan bərpa edildi. Torpaqlarımızı işğaldan qurtarmaq naminə canından- qanından keçən igid Azərbaycan əsgərinin şücaəti sayəsində oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun 9 kəndi 27 ildən sonra işğalçı ermənilərdən tam azad edildi. Silahlı Qüvvələrin Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyev bu münasibətlə xalqa müraciətində demişdir: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar... Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq"[73].

Cəbrayılın azad edilməsindən cəmi 5 gün sonra mühüm

[73] https://ordu.az/az/news/173302

əhəmiyyətli daha bir yaşayış məskəni – Hadrut qəsəbəsi işğaldan qurtuldu. Ermənilər Hadrutun alınmasından sonra özlərinə gələ bilmir və bunu etiraf etmirdilər. Hətta Ermənistan Müdafiə Nazirliyinin əslən Hadrutdan olan mətbuat katibi Ş.Stepanyan da hər vəchlə Hadrutun ermənilərin nəzarəti altında olması haqqında dezinformasiya yayırdı. Ali Baş Komandanımızın sözlərinə görə, Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz oldu. Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Bu yaxınlarda Hadrutda olan cənab Prezident İlham Əliyev bu məsələyə ətraflı toxunaraq bildirmişdir: "Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir – oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik... Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq"[74]. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı – Xocavənd adı qaytarılmışdır.

Lakin ermənilər öz ənənəvi xarakterlərinə sadiq idilər: onlar döyüş meydanını qoyub-qaçmaqla paralel olaraq, cəbhə xəttindən xeyli kənarda yerləşən şəhər və kəndlərimizi atəşə tutur, dinc sakinləri qətlə yetirirdilər. Cəsur Azərbaycan ordusu isə düşmənin yalnız hərbi qüvvələrinə və obyektlərinə zərbə endirir, mülki əhalini və obyektləri isə hədəfə almırdı. 4 oktyabr 2020-ci il tarixdən başlayaraq döyüş bölgəsindən xeyli uzaqda – 60 km məsafədə yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, o cümlədən strateji sənaye əhəmiyyəti daşıyan Beyləqan və Mingəçevir şəhərlərinin yaşayış məntəqələri raket və mərmilərlə atəşə tutuldu, nəticədə ölən və yaralananlar oldu. Erməni həyasızlığı heç bir sərhəd tanımır; erməni tərəfi Gəncənin raket zərbələri ilə dağıdılmış görüntülərini yayaraq, bunu azərbaycanlıların dağıtdığı erməni şəhəri kimi qələmə verdilər! Erməni qəsbkarları Tərtər, Bərdə və digər

[74] Hadrutdan verilən mesaj: Bu əməliyyat dünya hərb elmində xüsusi yer tutacaq – TƏHLİL / https://apa.az/az/xeber/siyasi/Hadrutdan-veriln-mesaj-Bu-mliyyat-dunya-hrb-elmind-xususi-yer-tutacaq-colorredTHLILcolor-634092

şəhərlərimizi də atəşə tutdular. Ermənistanın təcavüzkar siyasətinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinə - dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbəsinin endirilməsi nəticəsində 22 nəfər həlak oldu, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən baş vermiş hadisələrlə bağlı toplanmış materiallar əsasında Cinayət Məcəlləsinin 100.1-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama), 116.0.7-ci (müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə), 116.0.8-ci (hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) maddələri ilə cinayət işləri başlanılıb, istintaq qrupları yaradılmaqla operativ istintaq hərəkətləri icra olunmaqdadır.

Döyüş əməliyyatlarına rəhbərlik edən müzəffər Ali Baş Komandan İlham Əliyev müharibə zamanı müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına müsahibələr verərək, beynəlxalq aləmdə formalaşmış yanlış təsəvvürləri büsbütün dağıtmağa nail oldu. Bu müsahibələrin hər biri, hər bir cümləsi, hər bir sözü altından qırmızı xətt çəkiləsi, xalqın ürəyindən xəbər verən, yaddaşlara əbədi həkk olan sözlərdir. Türkiyənin "A Haber", ABŞ-ın "Fox News", İtaliyanın Rai-1, Almaniyanın ARD və s. televiziya kanallarına,





Rusiyanın TASS və İnterfaks, İspaniyanın EFE informasiya agentliklərinə, Yaponiyanın "Nikkei", Fransanın "Figaro", İtaliyanın "La Repubblica" qəzetlərinə və s. müsahibələr zamanı dövlətimizin başçısı erməni faşizminin əsl simasını, siqlətini açıb-göstərmiş, erməni vandallığının ağlasığmaz cinayətlərini faktlarla sübut etmişdir. Müdrik prezidentimiz bəzi xarici müxbirlərin bəzən ittiham xarakterli, böhtan səpkili, qərəzli mövqe nümayiş etdirən qeyri-obyektiv və dezinformasiya səciyyəli suallarını güclü məntiq, əsaslı fakt və dəlillərlə cavablandırmış, onları dəmir məntiqli arqumentləri əsasında susdurmuşdur. Müsahibələr zamanı jurnalistlərə Azərbaycanın yalnız öz doğma və müqəddəs torpaqlarını azad etdiyinə və hərb qayda-qanunlarını qətiyyən pozmadığını göstərmiş, həqiqətin, haqq-ədalətin kimin tərəfində olduğunu açıqlayaraq, beynəlxalq hüququn da bizim tərəfimizdə olduğunu söyləmişdir. Məsələn, Almaniyanın ARD telekanalı müxbirinin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına cənab İlham Əliyev necə də gözəl, lakonik, lakin məntiqli və sərrast cavab vermişdir: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükə-

sizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik". Daha sonra ermənilərin guya etnik təmizləməyə məruz qalmasını iddia edən müxbirin fikirlərini təkzib edən ölkə Prezidenti qeyd etmişdir ki, əslində etnik təmizləməyə məruz qalan məhz biz olmuşuq. Ermənilər Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edəndə məhz azərbaycanlılar etnik təmizləməyə məruz qaldılar. Lakin Azərbaycan ermənilərə qarşı etnik təmizləmə aparmır, bunu planlaşdırmır və bildirir: "Biz birlikdə yaşamalıyıq"[75].

"BBC News" müxbirinin də təxminən eyni məzmunlu sualını – Dağlıq Qarabağ regionunda yaşayan erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağı ilə bağlı zəmanət verilməsinə aydınlıq gətirilməsini ordumuzun Ali Baş Komandanı çox qısa, lakin kəskin və tutarlı cavablandırmışdır: "Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq"[76].

---

[75] Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi. "Respublika" qəzeti. 1 noyabr 2020-ci il

[76] "44 günlük diplomatiya dərsləri" / ideya müəllifi A.Mustafazadə. Bakı. 2021.





44 günlük Vətən müharibəsi zamanı rəşadətli və qalib Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində ermənilərin zəbt etdiyi şəhər və qəsəbələrimiz bir-birinin ardınca işğaldan azad olunmuşdur: Füzuli şəhəri, Horadiz qəsəbəsi, Cəbrayıl, Zəngilan, Hadrut, Qubadlı rayonları... nəhayət, alınmaz qala, Qarabağın ürəyi - gözəl və qədim Şuşa!

2020-ci il noyabrın 8-də rəşadətli Azərbaycan Ordusunun igidcəsinə və dünyanın hərb tarixinə düşəcək döyüşlərinlərdən sonra Şuşa şəhərini düşməndən azad etməsi nəticəsində üçrəngli Azərbaycan bayrağı artıq bu füsunkar şəhərimizdə də dalğalanır. Məhz Şuşa azad edildikdən sonra Ermənistan yeganə çıxış yolunun kapitulyasiya olduğunu, nəhayət, başa düşdü. Müzəffər Azərbaycan Ordusu qarşı tərəfin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək Qarabağ dağlarının zirvəsini - milli kimliyimiz, qürurumuz, qeyrət və mənliyimizin rəmzi olan, 28 il həsrət qaldığımız qədim Şuşamızı, Cıdır düzünü, İsa bulağını, Xarı Bülbülümüzü öz canı və qanı bahasına yenidən və əbədi olaraq fəth etdi[77]. Bu böyük hərbi qələbə münasibətilə ordumuzun Ali Baş Komandanı İlham Əliyev Şəhidlər Xiyabanına gedərək, xalqa müraciət etdi. Prezidentimiz hakimiyyətə gəldiyi zamandan bəri həmişə ulu öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasətinə sadiq qalacağını vəd etmiş və bunu real fəaliyyəti ilə də sübut etmişdir.

Yaxşı yadımızdadır, 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli lider Heydər Əliyevin

---

[77] https://ikisahil.az/post/menc-qardash-deyen-diline-qurban

Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə ulu öndərin deyil, bütövlükdə Azərbaycan xalqının İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"[78].

Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı vaxtdan ulu öndər Heydər Əliyevin siyasi kursunun heç bir alternativi olmadığını bəyan edən və onun xarici və daxili siyasətini uğurla davam etdirən ordumuzun Ali Baş Komandanı İlham Əliyev Şuşanın alınması münasibətilə xalqımızı təbrik edərkən bu məsələyə də toxunmuşdur: "...Mən bu gün, eyni zamanda, ulu öndər Heydər

[78] "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" / "İki sahil" qəzeti, 15 oktyabr 2019-cu il.





Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"[79].

Onu da vurğulamaq vacibdir ki, Şuşa şəhərinin azad edilməsi çox mühüm əhəmiyyət kəsb edirdi. Bu şəhər o qədər müdafiə cəhətdən əhəmiyyətli, o qədər coğrafi-strateji baxımdan önəmli bir məkandır ki, noyabrın 8-də məhz Şuşanın azad edilməsi Ermənistanın təslim olması ilə nəticələndi. Strateji yüksəklikdə yerləşən və ermənilər tərəfindən güclü müdafiə sisteminin yaradıldığı bu şəhəri almaq sanki mümkünsüz görünürdü. Lakin müzəffər Azərbaycan Ordusu, igid əsgərlərimiz qeyri-adi şücaət göstərərək, hərb tarixinə düşəcək bir səviyyədə döyüşmüş, yaxın məsafədən əlbəyaxa döyüşlərdə erməni əsgərlərinə qalib gəlmişlər. Prezidentimizin qeyd etdiyi kimi, "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir". Silahlı Qüvvələrin Ali Baş Komandanı, ölkə

[79] Şuşa şəhəri işğaldan azad edildi! https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540

Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərmiş 4646 hərbi qulluqçu "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunub. Bu medala layiq görülən hərbi qulluqçuların 1-i general-leytenant, 4-ü general-mayor, 31-i polkovnik, 141-i isə polkovnik-leytenantdır.

44 günlük Vətən müharibəsindən sonra Prezidentimiz İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar. Məlum olduğu kimi, məhz Şuşanın işğaldan azad edilməsindən sonra təcavüzkar Ermənistan təslim olmağa məcbur oldu. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev qədim və gözəl Şuşaya müzəffər sərkərdə kimi qədəm qoydu. Prezidentimiz 2021-ci il yanvarın 14-də Şuşa şəhərində əsgərlərimizin qarşısında çıxış edərkən demişdir: "Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa





edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar?".

Yəqin ki, çoxları Bakıda İncəsənət Muzeyinin həyətində Xan qızı Natəvanın, dahi sənətkarlarımız Üzeyir Hacıbəyli və Bülbülün güllələnmiş büstlərini uzun müddət müşahidə ediblər. Yuxarıda qeyd etdiyimiz kimi, "məzlum ermənilər" nəinki dinc sakinlərimizlə, tarixi və dini abidələrimizlə, meşələrimizlə "döyüşmüş", həmçinin heykəl və büstləri də güllələbaran etmiş, özünün analoqu olmayan barbarlığını bir daha sübuta yetirmişlər. Bu büstlər əridilmək məqsədilə Ermənistana aparılmışdı. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və köməkliyi ilə güllələnmiş, təhqir edilmiş büstlər çox çətinliklə pulla alınmış və Bakıya gətirilmişdi. Preidentimiz Şuşada səfərdə olarkən onilliklər ərzində Bakıda muzeyin həyətində saxlanılan həmin büstləri də yenidən öz əvvəlki məkanına – Şuşaya qaytarılmışdır.

Şuşa şəhəri Azərbaycanın və Qafqazın nadir və bənzərsiz şəhəridir. İgid Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ermənilər 30 ilə yaxın işğal altında saxladıqları ərazilərimizi tərk etdikdən sonra elə təəssürat yanamr ki, bu ərazilərdən vəhşi bir qəbilə keçib-gedib. Məsələn, Azərbaycan musiqisinin beşiyi, Qafqazın konsertvatoriyası adlanan qədim və gözəl Şuşanın məscidləri, tarix və mədəniyyət abidələri uçurdulub, mu-

zeyləri viran edilib. "Natəvanın sarayı dağıdılıb, Bülbülün evi praktiki olaraq yarıdağıdılmış vəziyyətdədir. Üzeyir Hacıbəylinin evi isə artıq yoxdur, onun yalnız divarları qalıb. Bu, barbarlıqdır, bu, mədəni soyqırımıdır və buna heç cür haqq qazandırmaq olmaz"[80].

Erməni vandalizmi haqqında danışarkən Prezident İlham Əliyev demişdir: "Şuşa demək olar ki, dağılıb, bütün binalar dağılıb. Dövlət başçımızın sözlərinə görə, bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdır, bir də xunta başçısının villası və bir-iki də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Orada başqa bina yoxdur. Bir də "xruşşovkalar", hansılar ki, çoxdan öz ömrünü bitirib, orada da 2 min erməni yaşayırdı"[81].

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə açılmışdır. Şuşa şəhərində Cıdır düzünün yaxınlığında inşa edilmiş bu möhtəşəm məqbərə gözəl görünüşə malik idi və burada səksənə yaxın eksponat sərgilənirdi. Təbii ki, bu abidə ermənilər tərəfindən dağıdılmış, acınacaqlı vəziyyətə salınmışdır. Kompleksdəki eksponatlar məhv edilmişdir. Erməni vandalları tariximizi hər yerdə silməyə çalışmış, abidələrimi-

[80] https://president.az/articles/50282/print
[81] Qarabağın bərpası necə həyata keçiriləcək? / https://sia.az/az/news/politics/851330.html





zi, eksponatlarımızı məhv etmiş və ya oğurlamış, bu da mümkün olmadıqda onları saxtalaşdıraraq öz adlarına çıxmağa çalışmışlar. Qarabağ xanının vəziri və şair Molla Pənah Vaqifin qəbri üzərində 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə əzəmətli məqbərə kompleksinin saxlanılması işğalçı ermənilərə heç cür sərf etmirdi; onlar Qarabağın, o cümlədən Şuşanın guya qədim erməni şəhəri olduğunu iddia etmək üçün bu regionun gerçək tarixini və əsl sahiblərinin kim olduğunu əks etdirən və sübut edən bütün fakt və dəlilləri məhv etməyi vacib sayırdılar. Ermənilər Molla Pənah Vaqifin məqbərəsini dağıdıb, məzar daşını sındırıb, şairin barelyefini qırıb və büstünü məhv ediblər.

Azərbaycan tarixinin həqiqətlərini gələcək nəsillərə çatdırmaq məqsədi ilə möhtərəm Prezidentimiz Şuşanı Azərbaycanın mədəni paytaxtı elan etmişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir"[82]. Yeri gəlmişkən, artıq bununla bağlı - Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də

[82] https://azertag.az/bolme/politics

Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı da verilmişdir. 7 may 2021-ci il tarixli "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Sənəddə göstərilir ki, "Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır"[83]. 1992-ci il mayın 8-də Şuşa şəhərinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində bu qədim şəhərin qiymətli tarixi-mədəni irsi məhv edilmişdir.2020-ci il noyabrın 8-də şəhər Ali Baş Komandan, ölkə prezidenti cənab İlham Əliyevin qətiyyəti və əsgərlərimizin igidliyi sayəsində düşmən tapdağından tam azad edilmiş, dərhal da Şuşanın bərpa-quruculuq işlərinə başlanılmış, vurulmuş ziyanın hesablanması üçün müvafiq inventarizasiya aparılmışdır. Sərəncamda o da vurğulanır ki, "Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi

[83] Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://president.az/articles/51394





dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır"[84].

Müxtəlif elm sahələrini gözəl bilən və daim diqqətdə saxlayan cənab İlham Əliyev ədəbiyyat və incəsənətə də lazımi hamilik göstərir. Dövlətimizin başçısı artıq 2021-ci ildən Şuşa şəhərində Vaqif poeziya günlərinin və həmçinin "Xarıbülbül" festivalının bərpa olunmasının məqsədəuyğunluğunu bildirmişdir. Lakin bir sıra məmurların Şuşada rəhbərlik etdikləri qurumların filiallarını və ya regional bölmələrini yaratmaq barədə müraciətləri dövlət başçımızın haqlı narazılığına səbəb olmuşdur. Prezident demişdir ki, mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, "məmurlar paytaxtı" yox. İşğaldan azad edilmiş regionlar ilk növbədə minalardan təmizlənməli, sonra dəyən ziyanın qiymətləndirilməsi aparılmalı və daha sonra infrastruktur layihələri icra edilməlidir. Sonda tikinti işlərinə başlanılacaqdır. Prezidentin sözlərinə görə, tikinti işləri "ağıllı şəhər" konsepsiyası, "ağıllı kənd" konsepsiyası əsasında hazırlanacaq baş plana uyğun gerçəkləşdiriləcəkdir: "Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir tor-

[84] Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://president.az/articles/51394

paq zəbt oluna bilməz. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin"[85].

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Şuşanın islam dünyasının paytaxtı olması barədə təklif irəli sürmüşdür. Bundan başqa, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev isə 2022-ci ildə Şuşanın türk dünyasının mədəni paytaxtı elan edilməsi fikrində olduqlarını bəyan etmişdir. Çünki Şuşa şəhəri bütün türk və islam dünyası üçün böyük mədəni əhəmiyyət daşıyır.

Prezident Şuşanın necə bərpa edilməsi məsələsinə toxunarkən demişdir: "Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra "xruşşovkalar"la bağlı, - indi qabaqlamaq istəmirəm, - mənim fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir. Ancaq bununla bağlı mən, sadəcə olaraq, öz fikirlərimi bölüşürəm. Amma necə olacaq, onu mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir"[86].

---

[85] İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak edib/ https://president.az/articles/50466

[86] https://525.az/news/161292-susani-medeniyyet-paytaxti-elan-etmisem-memurlar-paytaxti-yox---prezident-ilham-eliyev





Minillər boyu torpaqlarımız uğrunda, Azərbaycanın azadlığı naminə minlərlə oğul-qızlarımız şəhid olublar və sübut ediblər ki, Azərbaycan bizim Vətənimizdir! Ötən yüzilliklərdə - eramızdan əvvəl də, eramızdan sonra da öz şücaəti ilə adı nağıl qəhrəmanlarına çevrilən çoxlu qəhrəmanlarımız olubdur. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Cəmşid xan Naxçıvanski, Həzi Aslanov, Mehdi Hüseynzadə və başqaları.

Elə keçən əsrdə hər iki cahan savaşında, həm 1914-1918-ci illəri əhatə edən Birinci dünya müharibəsində, həm də 1939-1945-ci illərin İkinci dünya müharibəsində nə qədər azərbaycanlı əsl igidlik göstərərək adını tarixə qızıl hərflərlə yazmışdır. Lakin 1988-ci ildən başlayan, keçmiş SSRİ-nin dağılması ərəfəsində davam edən və ölkəmiz öz istiqlaliyyətini əldə etdikdən sonra daha da şiddətlənən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsi dövrümüzün müasiri olan qəhrəmanların yaranmasına səbəb oldu. İşğalçı Ermənistan tərəfindən zorla cəlb edildiyimiz müharibədə dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq qəhrəman oğul və qızlarımız, vətənpərvər övladlarımız Vətən uğrunda tərəddüd etmədən həyatlarını qurban verərək göstərdikləri rəşadət və igidliklərlə öz ulu əcdadlarının, ata-babalarımızın ruhunu yaşatdıqlarını sübut etdilər – Əlif Hacıyev, Albert Aqarunov, Salatın Əsgərova, Yuri Kovalyov, Alı Mustafayev, Əliyar Əliyev, Mübariz İbrahimov, Polad Haşımov, Dmitri Solntsev ... İşğalçı ermənilərlə aparılan döyüşlər göstərdi ki, vətən hamımızındır, biz onu müqəddəs hesab edirik və bu müqəddəs torpaq uğrunda canından keçməyə hazır olan oğul

və qızlarımız çoxdur. Vətənin dar günündə, torpaqlarımızın 20 faizinin işğal altında qaldığı bir vaxtda igidlərimiz öz canları bahasına olsa belə, düşmənlə döyüşə atıldılar. Neçə-neçə zabit və əsgərimiz Vətən uğrunda mərdliklə vuruşdu, qəsbkarlara layiq olduqları cəzanı verdilər.

Beləliklə, İkinci Qarabağ müharibəsinin elə ilk günlərindən etibarən işğalçı ordunun "yenilməzliyi" barədə mif qısa müddər ərzində dağıdıldı. Erməni yaraqlı dəstələri yalnız dinc sakinlərlə, mülki əhali ilə "mübarizə" aparmağı yaxşı bacarır, özü də gecə yarısı, şəhər və qəsəbə sakinləri yatdıqları zaman. Azərbaycanın döyüş əməliyyatlarının aparıldığı ərazilərdən xeyli uzaqda yerləşən yaşayış yerləri – Gəncə, Bərdə, Mingəçevir, Tərtər şəhərləri Ermənistan ərazisindən bormbardman edilmiş, onlarca dinc sakin həlak olmuşdur. Bu şəhərlərə hər gün yüzlərlə, minlərlə mərmi atılırdı! Qeyd etdiyimiz kimi, döyüş meydanında məğlub olan ermənilər bunun əvəzini namərdcəsinə və hərb qanunlarına zidd olaraq dinc sakinlərdən çıxırdılar. Mülki şəxslərə qarşı zorakılıq işğalçı ölkənin əsl simasını, gerçək mahiyyətini bir daha sübut edir. İşğalçı ölkənin digər məqsədi isə Azərbaycanı təxribata çəkmək və onu Ermənistana cavab atəşi vurmağa vadar etmək idi. Beləliklə, erməni terrorçuları KTMT-ni Azərbaycana qarşı döyüşə cəlb etməyə çalışırdılar. Lakin ordumuzun Ali Baş Komandanı İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan bunun əvəzini, həlak olmuş dinc sakinlərimizin qisasını döyüş meydanlarında, özü də işğalçı erməni ordusuna qarşı həyata keçirdi. Həm dinc sakinlərin, həm də hərbçilərimizin qanı yerdə qalmadı, bütün torpaqlarımız minimum





itki ilə azad edildi. Ümumilikdə, 44 günlük Vətən müharibəsi dövründə 300-dən çox yaşayış məntəqəsi birbaşa döyüşlər nəticəsində azad edildi və Ermənistan öz məğlubiyyətini etiraf etməyə məcbur oldu. Noyabrın 10-da kapitulyasiyaya imza atmaqla Ermənistan Respublikası Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarmaq məcburiyyətində qaldı. Azərbaycanın ərazi baxımından bu üç böyük rayonu heç bir itki olmadan, bircə güllə belə atılmadan işğaldan azad edildi.

Erməni hərbçiləri mövcud müharibə qanun-qaydalarını da pozmuş, beynəlxalq hüquq normalarını tapdalamışlar. İşğalçı qoşun birləşmələri müharibə zamanı qadağan olunmuş silahlardan, kasetli və fosforlu bombalardan geniş istifadə etmişlər. Ermənistan "Skad" və "Smerç" raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də dinc, mülki şəxslərə qarşı istifadə edib. Bu faktlar "Human Rights Watch" və "Amnesty International" kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmaqla, həmin əməllər "qəddar və ağılasığmaz" cinayət kimi qiymətləndirilmişdir.

Öz torpağında döyüşməyən ermənilər igid əsgərlərimizin cəsurluğunu və şücaətini görüb, bütün hərbi sursatları döyüş meydanlarında qoyub qaçmaq məcburiyyətindəydilər. Hazırda Ermənistan həbsxanalarında fərarilərin sayının çoxluğu səbəbindən sıxlıq yaranmışdır. Məlumatlara görə, fərarilərin sayı 10 000-dən yuxarıdır. Rusiyanın geniş oxucu auditoriyasına malik "Национальная оборона" jurnalı bununla bağlı yazmışdır ki, "İndiki müharibədə Ermənistanın məğlubiyyət səbəbləri strategiya, kəşfiyyat və

qismən də psixologiya məsələlərinə əsaslanır. Ermənistanın müharibəyə tamamilə hazırlıqsız vəziyyətdə olması ortaya çıxdı. Hərbi əməliyyatların artıq beşinci günündə Yerevanda etiraf etdilər ki, döyüşməkdən imtina edən 1500 erməni hərbi qulluqçu fərarilik edib. Müharibənin sonuna yaxın erməni fərarilərinin sayı artıq 10 min nəfərə bərabər idi. Özü də bütün səhvlərin bir hissəsi təkcə Paşinyan hakimiyyəti dövrünə deyil, həm də onun sələfləri – Robert Koçaryan və Serj Sarkisyan dövrünə də aid edilir. Lakin etiraf etmək lazımdır ki, məhz Nikol Paşinyan Azərbaycanı həmişə təhrik edərək, müharibənin reallığa çevrilməsi üçün əlindən gələni etdi"[87]. Məqalə müəllifləri qeyd etmişlər ki, Yerevan bu müharibədə faktiki olaraq uduzmasını artıq başa düşəndə Ermənistan ərazisindən Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən şəhərlərinə gecə saatlarında bir neçə raket zərbəsi endirildi. "Toçka-U" və "Elbrus" operativ-taktiki raket komplekslərindən istifadə olunmaqla endirilən raket hücumlarına, əsasən, Gəncə (Azərbaycanın ikinci böyük şəhəri) və Mingəçevir şəhərləri məruz qaldı. Bu, Azərbaycanı analoji hərbi cavaba təhrik etmək, sonra isə "təcavüz qurbanı" qismində kömək üçün Rusiya və KTMT-yə müraciət etmək məqsədi daşıyırdı. Lakin bu taktika Ermənistana uğur gətirmədi. Bakıda bəyan etdilər ki, Azərbaycan Ordusu Ermənistan şəhərlərinə hücum etməyəcək və düşmənlə döyüş meydanında savaşacaqlar. Hesab edirəm ki, əslində, bu cinayət əməli

[87] Е.Крутиков. В.Листовский. Вторая Карабахская война: Азербайджан победил. Армения капитулировала. "Национальная оборона" jurnalı. 26.12.20.





Ermənistanın labüd məğlubiyyətdən yaxa qurtarması üçün ümid etdiyi son "tədbir" idi və ölkəmiz, belə deyək, həm bu təxribata getmədi, həm də mərdi-mərdanə döyüş meydanlarında erməni hərbi birləşmələrinə layiqli cavab verdi, şəhidlərimizin qanı yerdə qalmadı.

Ermənilərin özlərini "məzlum" xalq kimi qələmə verərək, bütün dünyadan kömək istəmələri "erməni xəstəliyi"nin simptomlarından biridir. Möhtərəm İlham Əliyev Ermənistanın həmişə özünü "ərköyün" uşaq kimi aparması və daim hamıdan hər şeyi istəməsi faktına toxunaraq qeyd etmişdir ki, XXI əsrdə olduqca məhdud imkanlara malik, əhalisinin normal yaşayış standartlarını güclə təmin edən bir ölkə özündən ərazi baxımından 10 dəfə böyük və özündən 100 dəfə qüdrətli ölkəyə qarşı ərazi iddiası irəli sürür. Ancaq bu, yenə də onların psixologiyası ilə bağlıdır. Onlar hesab edirlər ki, bütün dünya onlara hər şeyi borcludur. Həmin psixologiya isə onları hazırkı alçaldıcı vəziyyətə salmışdır. Lakin yenə də hesab edirlər ki, hər kəs onlara kömək etməlidir: "rəsmi Ermənistan hakimiyyəti bağlı qapılar arxasında müzakirələr zamanı Avropa İttifaqını onlara lazımı dəstəyi verməməkdə ittiham edib. KTMT-yə, NATO-ya qarşı yaradılmış təşkilata üzv olan Ermənistan NATO-nu onlara kömək etməməkdə ittiham edir. Onlar Rusiyanı da günahlandırırlar ki, onlara yardım etməyib. Onlar özlərindən başqa hər kəsi ittiham edirlər. Onlar problemin məhz onlarda olduğunu dərk edə bilmirlər. Ermənistana olan ən böyük təhlükə özlərinin psixologiyasıdır"[88].

[88] Prezident ADA-da keçirilən "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda iştirak edib /

Qeyd etdik ki, qorxaq erməni ordusu Azərbaycan əsgərlərinin şücaət və qəhrəmanlığını görüb bütün silah və texnikanı ataraq qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Ermənilərdən hərbi qənimət götürülmüş bu silah-sursat və texnika o qədər çoxdur ki, Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır. Məlum olduğu kimi, bu silahların bir hissəsi 2020-ci il dekabrın 10-da "Azadlıq" meydanında keçirilkən Zəfər paradında nümayiş etdirilmişdir. İlham Əliyev Hərbi Qənimətlər Parkının yaradılması barədə təşəbbüs irəli sürmüşdür. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb. Cənab Prezidentin qeyd etdiyi kimi, burada nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş düşmən texnikası bir daha bizim gücümüzü, düşmənin isə məğlubiyyətini göstərir: "Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür"[89]. Hesab edirik ki, belə bir Parkın yaradılması mühüm əhəmiyyət kəsb edir. Ermənilərdən götürülmüş hərbi qəniməti bütün gələcək nəsillər, ölkəmizə gələn xarici nümayəndə heyətləri də

---

https://apa.az/az/xeber/daxili-siyaset/Prezident-ADA-da-kecirilin-Cnubi-Qafqaza-yeni-baxis-Munaqisdn-sonra-inkisaf-v-mkdasliq-adli-konfransda-istirak-edib-colorredVIDEOcolor-colorredYENILNIBcolor-637909

[89] İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib / https://president.az/articles/51067





görəcəklər. Cənab İlham Əliyev Parkın açılışı zamanı bildirmişdir: "Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər"[90]. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

---

[90] İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib / https://president.az/articles/51067

## ERMƏNİSTANIN KAPİTULYASİYASI TARİXİ ƏDALƏTİN QƏLƏBƏSİDİR

Bütün bu şərhlərimiz – 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük müharibənin nəticələrinin ilkin təhlili onu deməyə əsas verir ki, Azərbaycan rəhbərliyi həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır. Belə ki, noyabrın 10-da Ermənistanın hərbi-siyasi rəhbərliyi onlar üçün təslimçilik anlamı verən üçtərəfli bəyanatı imzalamalı oldu. Elə həmin gün Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla bağlı xalqa müraciətində demişdir: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar..."[91]. Adı çəkilən bəyanatda göstərilir ki, "20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq

[91] http.//www.azerbaijan-news.az/view-204024/qarabag-azerbaycandir-qelebemizin-remzidir





Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir..."[92].

Əslində, Ermənistanın kapitulyasiyası anlamına gələn bu sənəd Azərbaycanın nəinki işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarının boşaldılmasını, habelə Naxçıvanla Azərbaycan arasında nəqliyyat-kommunikasiya dəhlizinin də yaradılmasını nəzərdə tutur. Belə ki, Zəngilan-Mehri-Naxçıvan dəhlizi Azərbaycanın üzərindən keçən beynəlxalq tranzit layihələrin əhəmiyyətini daha da artıracaq. Artıq işğaldan azad edilmiş ərazilərdə hərtərəfli quruculuq işlərinə başlanmışdır. Müxtəlif nazirliklərin yerli bölmələri təşkil edilmiş, Şuşada çörək sexi fəaliyyətə başlamışdır, bütün rayonlarda elektrik yarımstansiyalarının quraşdırılması işləri həyata keçirilir, hər yer - barlı-bərəkətli Azərbaycan torpağı yenidən nura, işığa bürünür. 2020-ci il noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində oldular. Həmin gün 101,5 km-lik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun

[92] http://www.azerbaijan-news.az/view-204024/qarabag-azerbaycandir-qelebemizin-remzidir

təməli qoyuldu. 2021-ci il martın 15-də Füzuli-Hadrut avtomobil yolunun təməli qoyuldu. Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr təşkil edən bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpülərinin tikilməsi nəzərdə tutulur.

Artıq Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun da təməli qoyuldu. Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometr olan dörd hərəkət zolaqlı bu yol boyunca da avtomobil körpüləri tikiləcək.

Bax, doğma torpağa münasibət belə olar; 30 illik torpaq həsrəti aradan qalxan kimi dövlət-xalq əl-ələ verib onu yenidən dirçəltməklə məşğuldur. Böyük "Kitabi Dədə Qorqud" eposunda deyildiyi kimi, torpağı əkib-becərmədinsə onu qorumağa dəyməz, əgər torpağı qorumadınsa, o zaman onu əkib-becərməyə dəyməz. Ulu babalarımızın ruhu bu gün azad edilən qədim və müqəddəs torpaqlarımızın üzərindədir. Bəli, torpaqlarımızı azad etmişik və dərhal da qurub-yaratmağa başlamışıq. Budur, Qarabağda yaşayış məskənlərimizi bir-birinə birləşdirən yeni rahat yollar çəkilir. Yol həyat deməkdir, yol mədəniyyət deməkdir. Tezliklə ərazilər minalardan tamamilə təmizləndikdən sonra insanlarımız, bu qədim diyarın köklü sakinləri yenidən öz doğma ocaqlarına qayıdacaq, firavan həyat yenidən təmin ediləcək, yurddaşlarımız əkib-becərəcək, qurub yaradacaqlar. Bütün bunlar lap tezliklə olacaq...





İşğalçı erməni ordusu ərazilərimizi tərk etdikdən sonra vandal ermənilər özlərindən sonra öz "iz"lərini "müvəffəqiyyətlə" qoymuşlar. İşğaldan azad edilmiş və boşaldılmış torpaqlarımızda ermənilər tərəfindən bütün infrastruktur dağıdılmış, bütün yaşayış binaları və tarixi-dini memarlıq abidələri məhv edilmişdir. Bu cür vəhşiliyi İkinci dünya müharibəsi zamanı heç alman faşistləri də törətməmişlər. Belə bir vəhşilik eramızın V əsrində barbar tayfaların qədim Romanı büsbütün dağıtmasına bənzəyir. Erməni psixologiyası, erməni vəhşiliyi, "erməni xəstəliyi" bu qəbildən olan digər vəhşiliklərə oxşamır, Yer kürəsində onun heç bir analoqu yoxdur və erməni vəhşiliyi həmişə "birincidir". İşğaldan azad edilmiş əksər torpaqlarımızda, kənd və şəhərlərimizdə elə bil 12 ballıq maqnitudalı şkala üzrə zəlzələnin ən son həddi baş vermişdir. Prezidentimizin bildirdiyi kimi, Füzuli şəhərində bircə dənə də salamat qalmış bina tapılmamışdır ki, şanlı Azərbaycan bayrağı sancılsın. Erməni barbarlığı heç bir sərhəd tanımır, onlar məsciddə donuz saxlamış, qəbiristanlıqları dağıtmış, qəbirləri yerlə-yeksan etmişlər. Erməni vandalizminin daha bir nümunəsi Füzulinin Kürdlər kəndində tamamilə dağıdılmış qəbiristanlıqdır. İkinci Qarabağ müharibəsinin gedişi zamanı – 2020-ci il oktyabrın 15-də Ermənistan Silahlı Qüvvələrinin Tərtərdəki qəbiristanlığa hücumu nəticəsində 3 mülki şəxs həlak oldu, 3 nəfər isə yaralandı. Ordumuzun Ali Baş Komandanı, möhtərəm cənab Prezident İlham Əliyev Füzulidə olarkən bildirmişdir: "İkinci Qarabağ Müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Ermənistan tərəfindən vurulmuş

ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Artıq hamımıza yaxşı məlumdur ki, 30 ilə yaxın müddətdə ermənilərin zəbt etdiyi və rəşadətli Azərbaycan ordusunun gücü ilə işğaldan azad olunmuş torpaqlarda erməni hərbçiləri və əhalisi tərəfindən bütün infrastruktur dağıdılıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq"[93].

Tarix indiyə qədər bir çox müharibələrə şahidlik etmişdir; müxtəlif səbəblərdən – işğalçılıq, dini, etnik və digər amillərlə bağlı baş verən bu müharibələr təbiidir ki, dağıntılarla müşayiət olunmuşdur. Şəhərlər-kəndlər yandırılmış, əhali həlak olmuş, qiymətli əşyalar talan edilmiş və aparılmışdır. Lakin XXI yüzillikdə belə bir barbarlıq, vandalizm və dağıntılar, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyib. Prezidentimizin qeyd etdiyi kimi, yalnız "erməni əxlaqı" buna qadir ola bilər.

Ermənilərin torpaqlarımızı tərk edərkən qoyduğu "iz"lərdən biri də ərazilərin minalanmasıdır. Müzəffər Ali Baş Komadan İlham Əliyev bu problemə toxunarkən qeyd etmişdir ki, düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər

[93] İlham Əliyev Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı "Azərbaycan" qəzeti, 17 noyabr 2020-ci il.





tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə, bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləsinlər.

2020-ci il noyabrın 16-da müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci xanım, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə oktyabrın 4-də erməni qoşunlarından azad edilmiş Cəbrayıl şəhərində olarkən erməni vandalizminin şəhəri yerlə-yeksan etdiyinə diqqət çəkərək demişdir: "Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb"[94]. Bir daha xatırladaq ki, dövlətimizin başçısı ilk dəfə iştirak etdiyi 2003-cü ildə keçirilən prezident seçkiləri zamanı və sonrakı dövrlərdə də xalqa verdiyi bütün vədləri tamamilə yerinə yetirmiş, əməli ilə, fəaliyyəti ilə daim xalqının yanında olduğunu sübuta yetirmişdir. O, bu gün də ürəkdən sevdiyi xalqının yanındadır, erməni vandalları tərəfindən dağılmış bütün torpaqlarımızda quruculuq, abadlıq işlərinə başlanılacağını vurğulayır. Bu işlər artıq intensiv sürətlə gedir: yol çəkilir, tarixi binalar bərpa edilir, elektrik enerjisi ya-

[94] Azərbaycan Prezidenti: Otuz il ərzində vurulmuş ziyan hesablanacaq və Ermənistan beynəlxalq məhkəmələrdə cavab verəcək/"Azərbaycan" qəzeti, 17 noyabr 2020-ci il.

rımstansiyaları tikilir və s. Lakin prezidentimiz bununla kifayətlənmir, erməni cəlladlarının vurduqları hər bir ziyana görə - istər ekologiyaya, istər tarixi və dini abidələrə vurduqları ziyana, təbii sərvətlərimizi mənimsədiklərinə görə cavab verməli olacaqlarını və bunun mütləq baş verəcəyini bildirir. Ermənilər güman edirdilər ki, bu cür dağıntılardan sonra Azərbaycan əhalisi daha burada yaşaya bilməz. Elə məqsədləri də bu idi. Amma möhtərəm prezidentimizin rəhbərliyi ilə biz bütün sahələrdə uğur qazanacağıq, gecə-gündüz çalışacağıq və Qarabağ regionunu da yenidən cənnət məkanına çevirəcəyik. Cənab İlham Əliyev Cəbrayılda olarkən bildirdi ki, bütün azad edilmiş şəhərlərimizin xüsusi baş planı hazırlanacaq, inzibati, ictimai, yaşayış binaları, məktəblər, tibb ocaqları tikiləcək, lazımi infrastruktur yaradılacaq, küçələr, parklar, xiyabanlar salınacaq. Dağlıq Qarabağda və ətraf 7 rayonda həyat əvvəlkindən də gözəl və firavan olacaq[95].

Ermənilər qəddar, özgəninkini mənimsəyən, nankor və üstəlik, barbar olduqlarını hər addımda sübuta yetirmişlər. Onlar özlərinə aid olmayanı mənimsədiklərinə görə onun qədrini də bilmirlər. 30 il öncə yurddaşlarımız doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalanda özləri ilə nə vaxtsa qayıdacaqları ümidi ilə yalnız evlərinin açarlarını götürmüşdülər. Axı onlar min bir zəhmət və əziyyətlə tikdikləri evləri, əkib-becərdikləri, böyütdükləri yaşıllıqları necə məhv edə bilərdilər, buna heç qıyardılarmı? Bilirsinizmi, insan özününkü hesab etdiyini, doğma olanı, öz alın təri ilə yaratdığını qoruyub saxlayır, onun qədrini bi-

[95] Füzuli-Şuşa avtomobil yolu çəkilir. "Xalq qəzeti", 17 noyabr 2020-ci il.





lir. Bu, ermənilərə aid deyildir, onlara xas xüsusiyyət deyildir; onlar azərbaycanlıların evlərinə necə rahatlıqla yiyələnmişdilərsə, eləcə də onları yandırıb viran qoymuşlar. İkinci dünya müharibəsi illərində Avropada belə bir ibrətamiz əhvalat baş vermişdi: bir kəndin ahıl yaşlı iki sakini qoşunlar kəndə daxil olana qədər evlərini tərk etməli imiş. Qoca qadın evdən çıxarkən bir dəstə gül-çiçəyi vazada stolun üstünə qoyur. Bu zaman həyat yoldaşı deyir ki, onsuz da buraya düşmənlər gələcək, gülləri niyə onlar üçün qoyursan? Qadın isə cavabında deyir: "Qoy görsünlər ki, burada insanlar yaşayıb"[96]. Ermənilər isə bunun tam əksini əyani şəkildə göstərdilər: onlar özlərindən sonra yalnız xarabalıqlar qoydular. Ali Baş Komandanımızın dediyi kimi, azad etdiyimiz torpaqlarda Azərbaycan bayrağını sancmağa bəzən heç bir bina da tapılmır. Bu, vandallıqdır, vəhşilikdir və bunun başqa adı yoxdur. Lakin bu hələ harasıdır? Onlar 30 ilə yaxın azərbaycanlıların evlərində yaşayıb, tərk edərkən bu evləri yandırmaqla və yerlə-yeksan etməklə kifayətlənsəydilər, bunu vandallıq hesab etmək olardı. Onlar analoqu olmayan cinayətlər törədiblər. Belə ki, ermənilər çoxəsrlik ağacları, meşələri də yandırmış, dini ibadətgah yerlərini məhv etmişlər. Ermənilər tərəfindən qırılmış meşələrin həcmi peyklərdən istifadə olunmaqla müəyyən edilib. Meşələrimizin 54 min hektarı düşmən tərəfindən qırılıb, talan edilib və satılıb.

Ermənilər dini və tarixi abidələrlə, yaşıllıqlarla, çoxəsrlik qiymətli ağaclarla "döyüşmüşlər". Onlar dağıtmadıqları məscidlərdə donuz saxlamış, Şuşadakı Gövhər ağa məs-

[96] "Xalq qəzeti", 10 mart 2021-ci il.

cidinə isə yalnız ona görə toxunmamışlar ki, bu məscidi Azərbaycan məscidi hesab etməmişlər.

Ümumiyyətlə, ermənilər işğal dövründə 67 məscidimizi dağıtmışlar, alban-xristian kilsə və məbədlərini isə qriqorianlaşdırmış, erməniləşdirmişlər. Şuşa azad edildikdən sonra şəhərdəki "Saatlı" məscidində soydaşlarımız tərəfindən ilkin təmir işləri görülmüşdür. Lakin əsaslı təmir işləri üçün dövlətimizin başçısı tərəfindən lazımi göstərişlər verilmişdir. Bu missiyanı Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Yeri gəlmişkən, qeyd edək ki, Ağdam məscidi də Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq. Artıq bərpa işlərinə mütəxəssislər cəlb edilib. Heydər Əliyev Fondu Qarabağ ərazisində Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək.

Həmişə yalanı həqiqət kimi qələmə verməyə çalışan Ermənistan guya müsəlman ölkələrinə dostluq münasibəti bəslədiyini bəyan edir, bu ölkələrlə əlaqələr qurmağa səy göstərir. Lakin əslində, bu, riyakarlıqdan başqa bir şey deyil. İlham Əliyev də Şuşada olarkən bu məsələyə toxundu və ermənilərin ikiüzlülüyünü faktlarla sübut etdi: "Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır"[97].

İşğal dövründə Şuşadakı Yuxarı Gövhər ağa məscidi Ermənistanın cinayətkar rəhbərliyinin sifarişi ilə əcnəbi şirkət tərəfindən "təmir edilmişdir". Əslində, xarici şirkətin Azərbaycanın işğal altında olan torpaqlarına gələrək qanunsuz tikinti fəaliyyəti cinayətdir və ölkəmiz bununla razılaşa bilməz. Artıq qeyd olunduğu kimi, bu və digər dini-tarixi abidələrimiz bərpa ediləcək, təmir olunacaq və öz ilkin görkəmlərinə qaytarılacaqlar. Haqqında bəhs etdiyimiz Yuxarı Gövhər ağa məscidi 1884-1885-ci illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayi Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edilib. Ermənilər təmir-bərpa işləri adı altında məscidin daxili interyerində ciddi dəyişikliklər edərək, tariximi-





---

[97] https //qafqazinfo.az/news/detail/ermenistani-dost-olke-kimi-qebul-etmek-allahsizliqdir-311614

zi saxtalaşdırmağa çalışıblar. Bu məscid "fars məscidi" adı ilə təmir və bərpa edilib.

Ölkə Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan yenicə azad edilmiş Qubadlı və Zəngilan rayonlarını da ziyarət etmişlər. Cənab İlham Əliyev Qubadlıda əsgərlərimizin qarşısında çıxış edərkən bildirmişdir: "Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Ermənilər hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir"[108]. Müzəffər sərkərdəmizin sözlərinə görə, qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda, Kəlbəcərdə qızıl yataqları istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçi-

[108] Prezident İlham Əliyev: Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. "Yeni Azərbaycan" qəzeti, 25.12.20.





nin. Bütün bunların hesabını Ermənistan dövləti verməli olacaq.

Rəsmi məlumatlara görə, ermənilərin nəzarətinə keçmiş Azərbaycan ərazilərində uzunluğu 25 min kilometr olan avtomobil yolu, uzunluğu 3984 metr olan 160 körpü, 14,5 min kilometr uzunluğunda elektrik xətti, 2500 elektrik transformotoru, 2 min kilometr qaz boru xətti, 160 su deposu, 34-dən çox qaz paylayıcı stansiya dağıdılıb.

İşğal edilmiş bölgələrimizdə 140 min şagirdin oxuduğu 600 məktəb, 53 min şagirdin təhsil adlığı 65 peşə məktəbi, 2 texnikum tamamilə məhv edilib. Həmçinin 700 səhiyyə ocağı, o cümlədən 800 nəfərlik xəstəxanalar, poliklinikalar, doğum evləri, aptek binaları, təcili yardım xəstəxanaları dağıdılıb. Səhiyyə xidmətinə dəyən ümumi iqtisadi ziyan 1,2 milyard dollara yaxındır.

Azərbaycana aid 903 dövlət qeydiyyatında olan, 1500 dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələri, minlərcə əsərin qorunduğu 26 müzey, 8 şəkil qalereyası, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı talanıb. 40 min qiymətli muzey əyası və eksponatı qarət edilib.

16 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası və digər

beynəlxalq sənədlərə əsasən, beynəlxalq hüquqa görə məsuliyyət daşıyan dövlət özünün hüquqazidd əməli ilə digər dövlətə vurmuş olduğu ziyanı tam həcmdə ödəməlidir. Ermənistanın silahlı tacavüzü və işğalı nəticəsində Azərbaycana külli miqdarda maddi və mənəvi zərər dəymişdir. BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində göstərilir ki, "məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir"; "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərə görə tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər"[99]. Bu formaların hər birinə qısaca nəzər salaq.

Restitusiya – hüquqazidd əməllər törədilənə qədər mövcud olan vəziyyətin bərpasını nəzərdə tutur. O, dağılmışların bərpa edilməsi formasında, yaxud əmlak və ərazinin qaytarılması şəklində ola bilər. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə Əlavənin 35-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət restitusiyanı həyata keçirməlidir. Ermənistanın hüquqazidd əməli nəticəsində Azərbaycana vurulmuş zərərin restitusiya formasında ödənilməsi məsələsi bütün işğal olunmuş Azərbaycan ərazilərinin qaytarılmasını, əsirlikdə saxlanılan azərbaycanlıların azad edilmə-

[99] Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri / https://mod.gov.az/az/pre/24525.html





sini, onların insan hüquqlarından istifadə edə bilməsini, məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qayıda bilməsini, onların əmlakının qaytarılmasını və s. ehtiva edir.

Kompensasiya - əldən çıxmış mənfəət də daxil olmaqla, ziyanın ödənilməsidir və zərərin tam ödənilməsini təmin etmək məqsədi daşıyır. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə Əlavənin 36-cı maddəsinə əsasən, beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərərin restitusiya ilə ödənilməyən hissəsini kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya vurulmuş zərərin restitusiya ilə ödənilməsi mümkün olmadığı halda tətbiq edilə bilər. Maliyyə baxımından qiymətləndirilə bilən kompensasiya yolu beynəlxalq təcrübədə zərərin ən çox rast gəlinən ödənilmə formasıdır. Deməli, Ermənistan işğal zamanı Azərbaycana vurduğu ziyanların əvəzini maliyyə formasında ödəməlidir.

Satisfaksiya – məsuliyyət daşıyan dövlətin ziyanı tam ödəmək öhdəliyini yerinə yetirmək üçün daha bir əvəz formasıdır. Belə ki, ziyanın maliyyə baxımından qiymətləndirilə bilməyən hissəsinin - qeyri-maddi xarakterli ziyanın ödənilməsi məhz satisfaksiya deməkdir. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə Əlavənin 37-ci maddəsində göstərilir ki, beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət daşıyan dövlət bu əməllər nəticəsində vurulmuş zərərin restitusiya və ya kompensasiya ilə ödənilə bilməyən hissəsi qədər satisfaksiya təqdim etməlidir. Beynəlxalq hüquqda nəzərdə tutulan addımlardan biri olan sa-

tisfaksiya isə Ermənistanın ictimai qaydada Azərbaycandan üzr istəməsini, eyni, yaxud oxşar davranışların bir daha təkrarlanmayacağı ilə bağlı öhdəlik götürməsini əhatə edir. Öz hərəkətləri ilə beynəlxalq hüquqazidd əməllərə gətirib çıxarmış şəxslərin (məsələn, Koçaryan və Sarkisyan) cəzalandırılması da satisfaksiyanın bir forması ola bilər.

Biz beynəlxalq hüquqa uyğun olan bütün bu işləri görməliyik və artıq görürük. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kənd və obalarımızı bərpa edəcəyik. insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq.

Təbii ki, ərazilər minalardan tam təmizləndikdən sonra məcburi köçkün düşmüş vətəndaşlarımızın öz torpaqlarına qayıdışı təmin ediləcək. Lakin digər az əhəmiyyət kəsb etməyən problem – ermənilərin bizə vurduqları ziyanın qiymətləndirilməsi işləri də aparılmalıdır. Dövlətimizin başçısı bu yaxınlarda verdiyi müsahibələrin birində bununla bağlı olaraq aşağıdakıları söyləmişdir: "Mina təmizləməklə əlaqədar işlər, əlbəttə ki, başa çatmalıdır. Ondan sonra ziyanın qiymətləndirilməsi. Əgər biz ziyanın qiymətləndirilməsini etməsək, sabah təzminat davasında da uğur qazana bilmərik. Ona görə də, ilk növbədə, yerli qurumlar dağıdılmış bütün evlərin pasportlaşdırılmasını aparmalıdır. Video, foto çəkilişlər, dron çəkilişləri, protokollaşma aparmalıdır. Hər bir binanın, hər kənddə yerləşən binanın, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır. Bu məlumatı biz verəcəyik cəlb edilmiş beynəlxalq şirkətlərə, onlar özləri tədqiqat aparacaqlar, özləri monitorinq missiyaları həyata keçirəcəklər və onlar bizə Ermənistana qarşı açılacaq təzminat davasında kömək göstərəcəklər"[100].





Daha bir mühüm məsələ müdrik prezidentimizin diqqətindən kənarda qalmamışdır. Belə ki, bütün Qarabağ regionu, işğaldan azad edilmiş, lakin erməni işğalçıları tərəfindən demək olar ki, tamamilə dağıdılmış bütün şəhər və kəndlərimiz ölkə başçısının birbaşa rəhbərliyi altında və ciddi şəkildə yenidən qurulacaq, abadlaşdırılacaq. Bu, öz yerində. Prezidentimiz hər bir bölgədə erməni vəhşiliyinin qurbanı olmuş hər bir tikilinin konservasiya olunacağını, olduğu kimi - dağılmış vəziyyətdə saxlanılacağını bildirmişdir. Bu, erməni faşizminin əsl simasını göstərmək və gələcək nəsillərdə bu vəhşiliyin analoqu olmayan cinayətləri barədə əyani təsəvvür yaratmaq istiqamətində mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, xatırlatmaq istərdim ki, 1942-ci ildə İkinci dünya müharibəsi zamanı alman qoşunlarının məğlubiyyətində və geri çəkilməsində həlledici döyüş hesab edilən və həm Stalinqrad şəhərinin dağılması, həm də hər iki tərəfin canlı qüvvə və texnika sarıdan ciddi itkiləri ilə nəticələnən Stalinqrad döyüşlərindən sonra bu gün Volqoqrad adlanan şəhər tam bərpa edilsə də və hazırda Rusiyanın ən gözəl şəhərlərindən birinə çevrilsə də, bir tikili olduğu kimi saxlanılır. Stalinqradın bərpası zamanı çoxmərtəbəli Gerhardt (Qrudinin) dəyirmanına toxunulmamış, onun xarabalıqları olduğu kimi saxlanılmışdır. Belə ki, şəhər rəhbərliyi tərəfindən bu binanı müharibə haqqında xatirə olaraq simvolik tikili kimi şəhərə gələn qo-

---

[100] "Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq". "İki sahil" qəzeti, 1 fevral 2021

naqlara nümayiş etdirmək qərarını vermişdir.

Bu yaxınlarda İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) Azərbaycana gələn nümayəndə heyəti erməni işğalından azad edilmiş şəhər və qəsəbələrimizə, kəndlərimizə səfər etmiş, düşmənin ağlasığmaz vəhşiliyini öz gözləri ilə görmüşlər. İslam ölkələri üzrə təhsil, elm və mədəniyyət məsələləri ilə məşğul olan təşkilatın üzvlərinin etirafına görə, onlar əvvəllər heç vaxt görmədikləri bir faciəni görmüşlər: tamamilə dağıdılmış, yerləyeksan edilmiş şəhərlər, bu, tamamilə qeyri-insani əməldir və heç bir ölçüyə sığmır. Bu, bəşəriyyət əleyhinə cinayətdir. ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik dövlətimizin başçısı ilə görüşdə bildirdi ki, "Azərbaycan hər zaman bizim üçün prioritet olub və olmağa davam edəcək. Biz Qələbəni qeyd etdik, çünki bu, bizim bir parçamızdır, Sizin Qələbəniz ICESCO-nun qələbəsinin bir parçasıdır. Bizim üzv dövlətlərimiz çox önəmlidir və biz kimliyindən asılı olmayaraq onları hər zaman dəstəkləyəcəyik"[101].

Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev 30 ilə yaxın işğal altında olan torpaqlarımızı rəşadətli Azərbaycan Ordusunun misilsiz igidliyi sayəsində azad etdikdən sonra bütün yaşayış məskənlərimizin ermənilər tərəfindən darmadağın edildiyini həm İkinci Qarabağ müharibəsinin gedişi zamanı, həm də aktiv döyüş əməliy-

[101] ICESCO-nun Baş direktoru: Biz işğaldan azad edilmiş ərazilərə səfər zamanı heç vaxt görmədiyimiz bir faciəni gördük/ http://www.yap.org.az/az/view/news/48861/icesco-nun-bash-direktoru-biz-ishgaldan-azad-edilmish-erazilere-sefer-zamani-hech-vaxt-gormediyimiz-bir-facieni-gorduk





yatları Azərbaycanın tam qələbəsi ilə başa çatdıqdan sonra beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış, Ermənistanı və qondarma "Dağlıq Qarabağ respublikası"nı dəstəkləyənlərə erməni vandallığının heç bir sərhəd tanımadığını sübut etmişdir.

İSESKO-nun ölkəmizi ziyarət edən nümayəndə heyəti ilə görüşündə də Prezidentimiz bu məsələyə toxundu və erməni vandallığını faktlarla sübut etdi: "... biz dağıntıların bu qədər geniş vüsət almasını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, onu nümayiş etdirir ki, torpaqlarımızı işğal altında saxlayan ölkə Azərbaycan mədəniyyətinin izini silmək istəyirdi. Azərbaycan xalqının irsini məhv etmək istəyirdi. Biz açıq-aydın başa düşürük ki, bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra edilmişdir. Bu, müharibə zamanı edilməmişdir, çünki müharibə zamanı bu cür dağıntıları etmək mümkün deyil. Bu, Azərbaycan xalqına məxsus hər şeyi məhv etmək və gələcəkdə azərbaycanlıların geri qayıtmasına imkan verməmək üçün işğaldan sonra edilmişdir. Bu, bir daha onu nümayiş etdirir ki, demək olar, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olmuşdur, bu da danışıqları sonsuz və faydasız etmək idi və bu da baş verdi. Çünki demək olar ki, bu 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi. Yalnız danışıqlar, yalnız səfərlər, yalnız bəyanatlar var idi, lakin heç bir nəticə yox idi. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi"[102].

[102] Prezident: "30 illik danışıqlar prosesində heç bir nəticə yox idi", "Ədalət" qəzeti, 14 yanvar 2021-ci il.

Ermənilər işğal altında saxladıqları bütün şəhər və kəndlərimizdə tarixi, dini, memarlıq abidələrini tamamilə və qismən dağıtmış, dini abidələri saxtalaşdırmışlar. İşğaldan azad edilmiş Azərbaycanın şəhər və rayonları, kənd və qəsəbələri demək olar ki, büsbütün dağıdılmış vəziyyətdədir. Müasir dünyada ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin heç bir analoqu yoxdur. Ötən əsrin axırlarında başlayan Birinci Qarabağ müharibəsi ərəfəsində və müharibə zamanı insanların – qoca, qadın və uşaqların vəhşicəsinə qətlə yetirilməsi, Xocalı soyqırımı və digər kütləvi qətllər, kənd və qəsəbələrə od vurulması, meşələrə divan tutulması və bu kimi vəhşiliklər yalnız insani simasını itirmiş kütlə tərəfindən edilə bilərdi. Ordumuzun Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyev erməni vəhşilikləri barədə əcnəbi kütləvi informasiya vasitələrinin diqqətinə çatdırmış, nüfuzlu tədbirlərdə - bunu beynəlxalq tribunalardan bəyan etmişdir. Pezident İlham Əliyevin sözlərinə görə, "müasir dünya ikinci belə vəhşilik görməmişdir. Əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik.

Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək. O cümlədən erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq ki, biz onları bu bəladan xilas etmək istədik. Ümid edirəm ki, onlar xilas olunacaqlar. Əks-təqdirdə, Ermənistan dövlətinin dövlət kimi gələcəyi çox böyük şübhə altında olacaq"[103]. Tarix buna bənzər hadisələrə şahidlik etmişdir. Elə uzağa deyil, yaxın keçmişə də müraciət etmək olar. İkinci dünya müharibəsində Almaniyanın məğlub olması və kapitulyasiyası nəticəsində alman faşizmi məhv edildi. Bu faşizmin məhv edilməsi isə iki hissəyə - Almaniya Federativ Respublikasına və Almaniya Demokratik Respublikasına bölünmüş Almaniyanın sürətli inkişafına gətirib çıxardı. Üstəlik, Avropa qitəsində yerləşən çoxsaylı region dövlətləri də bu faşizm bəlasından birdəfəlik qurtuldular. Ona görə də eyni prosesin erməni faşizmi ilə də baş verəcəyini güman etmək olar. Prezidentimiz haqlı olaraq hesab edir ki, gələcəkdə erməni xalqı ilk növbədə onlara və qonşu xalqlara yalnız bəla gətirən bu xəstə erməni ideologiyasını məhv etdiyimiz üçün bizə minnətdar olacaqlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün görüş və müsahibələrində erməni vandalizminin nəyə qadir olduğunu fakt və dəlillərlə sübut etmiş, erməniləri haqsız yerə müdafiə edənlərə "erməni xəstəliyi"nin ağır "simptomları"nı bariz nümunələrini göstərmişdir. Ölkəmizə gələn xarici ölkələrin nümayəndə heyətləri və beynəlxalq təşkilatların təmsilçiləri, Azərbaycanda akkreditasiya olunan səfirliklərin rəhbərləri, həmçinin KİV nümayəndələri bu cinayətləri – mülki əhaliyə qarşı terror, aktiv döyüş əməliyyatlarının aparıldığı ərazilərdən xeyli uzaq məsafədə yerləşən yaşayış məskənlərimizin bombardman edilmə-





[103] İlham Əliyev: Erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq / https://1news.az/az/news/20210201074052677-Ilham-Eliyev-Ermeni-xalqi-vaxt-kechecek-bize-minnetdar-olacaq

sini, erməni əhalinin bizim dədə-baba yurdlarımızı tərk edərkən hər bir şeyi söküb-aparmasını, bütün infrastrukturu dağıtmasını, qanunsuz məskunlaşdıqları evlərə od vurmasını, hətta ekoloji terror da törətdiyini – meşə və ağaclarımızı yandırdığını öz gözləri ilə görmüşlər. 2021-ci il yanvarın 19-da cənab Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən bu məsələyə bir daha toxunmuş və qeyd etmişdir ki, "Siz Ağdamda və Füzulidə olmusunuz, işğalçı qüvvələrin bizim şəhərləri viran qoyduğunu özünüz görmüsünüz. Vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bircə salamat bina yoxdur. Ağdamda da bütün binalar sökülüb, yalnız qismən dağıdılmış məscid qalıb. O da, mənim dediyim kimi, sonradan məlum olub ki, yalnız Azərbaycan Ordusunun bu istiqamətdə hücum edəcəyi halda baş verə biləcək artilleriya zərbələrinin oriyentiri kimi ərazidə səmtləşdirmək üçün qalıb. Təsadüfi deyil ki, xarici jurnalistlər Ağdamı "Qafqazın Xirosiması" adlandırıblar. Fikrimcə, eyni sözləri Füzuli şəhəri, həmçinin işğal altında olmuş başqa şəhərlər haqqında da demək olar. Zəngilan da, Cəbrayıl da, Qubadlı da praktiki olaraq tamamilə dağıdılıb. Təkcə şəhərlər yox, kəndlər də"[104].

Qeyd etdiyimiz kimi, Ermənistan 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında əsl ekoloji soyqırımı törətmiş, Azərbaycan təbiətinə sağal-

[104] https://photo.azertag.az/post/prezident-ilham-eliyev-turkdilli-dovletlerin-emekdasliq-surasinin-bas-katibini-videoformatda-qebul-edib-30174?





maz ziyan vurmuşdur. Məsələn, bu ərazilərdə alp çəmənlikləri dəyişdirilmiş, flora və fauna aləminin təbii mühiti məhv edilmişdir. Ermənilərin törətdikləri yanğınlar nəticəsində torpaqlar eroziyaya məruz qalmış, 47 növ bitki tamamilə məhv edilmişdir. Laçının "Qaragöl" gölü çirkləndirilmiş, suyun səviyyəsi aşağı enmişdir. "Sərsəng" su anbarının suyu isə qışda buraxılır, əksinə, yayda Tərtər və Bərdənin quraq torpaqlarının suvarmaya ehtiyacı olan dövrdə bağlanırdı. "Qırmızı kitab"a daxil edilmiş bitkilərin əksəriyyəti məhv edilmişdir. Kəlbəcər və Zəngilan rayonlarındakı "Söyüdlü", "Vejnəli" və "Qızılbulaq" yataqlarından xarici şirkətlərin iştirakı ilə külli miqdarda qızıl ehtiyatları istismar edilmişdir. 2021-ci il fevralın 14-də dövlətimizin başçısı İlham Əliyev, birinci xanım, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Leyla xanım Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunda olmuşlar. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bəsitçay qoruğu nadir çinar ağacları meşəsi idi. Erməni işğalçılar unikal təbiətə, zəngin sərvətlərə malik Qarabağı işğal altında saxladıqları dövrdə onu viran etmiş, qiymətli təbii ehtiyatlarımızı talan etmiş, ekologiyaya böyük zərbə vurmuşlar. Düşmən tərəfindən Bəsitçay qoruğunda da ekoloji terror törədilmişdir: bu füsunkar ərazinin meşə örtüyünün, demək olar ki, yarısı məhv edilmiş, ağaclar yandırılmışdır. Nəticədə, regionda təbii ekosistemin tarazlığı pozulmuşdur.

Dövlət başçımız onu da diqqətə çatdırmışdır ki, Ermə-

nistan tərəfi Azərbaycanın dağıtmadığı yaşayış məskənlərində süni məskunlaşma siyasəti aparırdı ki, bu da Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır və hərbi cinayət sayılır.

2020-ci il noyabrın 10-da imzalanmış Birgə bəyanata əsasən, Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonları bircə güllə belə, atılmadan azad edildi. Bu, Azərbaycanın hərbi qələbədən sonra onun davamı olan diplomatik-siyasi qələbəsi idi. Güclü dövlətin, güclü ordunun şərtləri kapitulyasiya edilmiş Ermənistana diqtə edildi və ölkəmiz qələbənin tamlığını, bütövlüyünü təmin etdi.





# POST-MÜHARİBƏ DÖVRÜNDƏ QURUCULUQ İŞLƏRİ

Üçtərəfli bəyanatın imzalanmasından 10 gün sonra – noyabrın 20-də Azərbaycanın böyük regionlarından biri olan Ağdam rayonu işğaldan azad edildi. Ağdam rayonunun heç bir itki olmadan, döyüşsüz işğaldan azad olunması noyabrın 10-da imzalanmış bu Bəyanatın nəticəsidir. Artıq Ağdam üçün yeni dövr başlayır, rayonun inkişafında yeni mərhələyə qədəm qoyulur. Ölkə rəhbərinin qeyd etdiyi kimi, bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Fransanın “France-24” kanalı Ağdam haqqında hazırladığı video reportajda qeyd etmişdir ki, bu şəhər o qədər dağıdılıb ki, bəzən onu “Qafqazın Xirosiması” adlandırırlar. 1980-ci illərin sonlarında 40 min əhalisi olan Ağdam bu gün “ruhlar şəhəri”dir. Bu gün Ağdamda hələ də qalan yeganə bina bu məsciddir. Bu şəhər 30 il əvvəl Birinci Qarabağ müharibəsi zamanı böyük strateji əhəmiyyət daşıyırdı. Məhz buradan Azərbaycan ordusu Dağlıq Qarabağın yaxınlıqdakı dağlarında yerləşən erməni silahlı qüvvələrinin mövqelərini atəşə tuturdu. 1993-cü ildə bu şəhərin itirilməsi müharibənin dönüş nöqtəsi oldu. Məğlubiyyət ağdamlıları və ətraf ərazinin əhalisini köç etmək məcburiyyətində qoydu. Bu gün məcburi köçkünlər qayıdırlar və dağılmış binaları görürlər.

Ağdamda olan Azərbaycanın tarixi-mədəni irsi erməni vandalizminin qurbanı olmuşdur. Rayon ərazisində qədim abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar

dağıdılıb, təhqir edilib, bəziləri isə ermeniləşdirilib. Ağdamda erməni barbarlığı ilə üzləşən tarixi-memarlıq abidələrindən olan Qarabağ xanlığının banisi Pənahəli xanın imarəti XVIII əsrdə tikilmişdir. İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilmişdir. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xanının nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vandalizminə məruz qalıb. Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xanın türbələri və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşir. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini dağıdıblar. Şəhəri tərk edən ermənilər Şahbulaqda yerləşən muzeyi də dağıdıblar. Şahbulaq ərazisində Pənahəli xanın 1750-ci illərdə tikdirdiyi qalanın qalıqları üzərində ermənilər yeni qala inşa edərək tarixiliyinə xələl gətirib, tarixi saxtalaşdırmaq siyasətini davamlı apararaq, qalanın içində qondarma "Tiqranakert" adlı muzey də yaradıblar. 2010-cu ildə Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına məxsus Şahbulaq qalasında yaradılmış və "Tiqranakert Arxeoloji Muzeyi" adlanan muzeydə qədim eksponatlarımız yerləşdirilib. Şahbulaq ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən qiymətli eksponatları da ermənilər talan edərək özləri ilə Ermənistana aparıblar.

Tezliklə, Ağdamın Baş planı hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ağdam rayonunun bərpası ölkəmizin gələcək planlarında xüsusi yer tutacaq.





Ağdam rayonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə artıq əhəmiyyətli addımların atılmasına başlanılmış, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq sərəncam imzalanmışdır. Sərəncama əsasən, ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan "Azərbaycan Dəmir Yolları" QSC-yə ilkin olaraq 5 milyon manat ayrılıb. Bu yaxınlarda Rusiyanın Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin əməkdaşları Ağdam rayonu ərazisində ayrılan 100 hektar ərazinin minadan və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarını planlaşdırmışdır. Ekspertlərin fikrincə, münaqişə zonasında yüz minədək mina basdırılıb, onların ən çoxu Tərtər, Ağdam və Füzuli rayonlarının ərazisindədir.

Ağdamdan söz düşmüşkən, onu da vurğulamaq istərdik ki, Qarabağ ərazisində atəşkəsə nəzarət üzrə monitorinq mərkəzi məhz Ağdamda yerləşir. Müvafiq binanın tikintisi başa çatdırılmış və Türkiyə hərbçilərindən ibarət heyət fəaliyyətə başlamışdır. Coğrafi və hərbi-strateji baxımdan Ağdam əlverişli region olduğu üçün Türkiyə-Rusiya birgə monitorinq mərkəzinin də məhz Ağdamda yerləşdirilməsi

qərara alınmışdır. Ölkə Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşü zamanı bildirmişdir ki, bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür. Həmçinin, Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir. Bu, artıq reallıqdır[105].

2021-ci il yanvarın 10-da Ağdam rayonunda – işğaldan azad edilmiş Mərzili kəndi yaxınlığında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi açılmışdır. Mərkəzin əsas məqsədi Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir. Monitorinq mərkəzinin fəaliyyətə başlaması bölgədə uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcək. Birgə Mərkəzin mühafizəsi Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən həyata keçirilir. Monitorinq Mərkəzində Türkiyə və Rusiya tərəfdən 60 hərbi qulluqçu xidmət göstərəcək. Birgə Monitorinq Mərkəzinin Ağdamda yerləşməsinə gəlincə, məlum olduğu kimi, Ağdam Qarabağın strateji və coğrafi cəhətdən əhəmiyyətli regionlarından biridir. Təsadüfi deyil ki, erməni tərəfinin ən güclü müdafiə sistemi də məhz burada idi. Ekspertlərin fikrincə, bu mərkəzin Ağdamda yerləşdirilməsi sülhməramlı qüvvələrin nəzarəti altında olan ərazilərin monitorinqinin aparılması üçün çox

[105] Prezident: Biz artıq Azərbaycanın Ağdam rayonunda Türkiyə-Rusiya Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. "Yeni Azərbaycan" qəzeti, 12 dekabr 2020.





əlverişlidir. Ağdam Qarabağın coğrafi mərkəzində yerləşir və rayondan Xankəndiyə 25 km, Ağdərəyə təxminən 18-20 km, Xocavəndə təxminən 30 km-lik məsafə var. Bu isə o deməkdir ki, Birgə Monitorinq Mərkəzinin Ağdam ərazisində yerləşdirilməsi tamamilə qanunauyğun və əlverişli qərardır.

Üçtərəfli bəyanata əsasən, noyabrın 15-dək Kəlbəcər rayonu da boşaldılmalı idi. Lakin Ermənistan tərəfi Rusiya vasitəsi ilə Azərbaycana müraciət etdi. İşğalçı ölkə bu müddətin noyabrın 25-dək uzadılmasını xahiş etdi. Belə ki, soyuq hava şəraiti bir tərəfdən, o biri tərəfdən həmin istiqamətdən yalnız bir yol - Vardenis yolu və yolun məhdud ötürücülük qabiliyyəti olduğundan Kəlbəcər rayonunun boşaldılmasını ağırlaşdırırdı. Azərbaycan yaranmış bu çətin vəziyyəti nəzərə alaraq, Kəlbəcərdə yerləşdirilmiş erməni mülki əhalinin noyabrın 25-dək çıxarılmasına razılıq verdi. Bu, Azərbaycan dövlətinin öz humanist xarakterini bir daha nümayiş etdirməsinin bariz nümunəsidir. Amma unutmayaq ki, 1993-cü ildə Kəlbəcərin işğalı zamanı erməni hərbi birləşmələri əhaliyə rayonu tərk etmək üçün cəmi 10 saat vaxt vermişdilər. Bax, budur erməni xarakteri, erməni psixologiyası. Buna baxmayaraq, Azərbaycan humanistlik göstərərək daha 10 gün gözləməyə razılaşdı. Azərbaycan tərəfi Kəlbəcər rayonunun coğrafi baxımdan böyük bir ərazini əhatə etməsini, relyefin mürəkkəbliyini, hava şəraitinin ağırlaşmasını və rayondan çıxış üçün cəmi bir yolun mövcud olduğunu nəzərə aldı. Həmçinin nəzərə alındı ki, Ermənistanın işğal etdiyi Ağdam rayonu ərazisindəki qoşunlarını da Qarabağdan çıxarmaq

üçün Kəlbəcər yolundan istifadə etməyə məcburdur.

2020-ci il noyabrın 25-də qəhrəman Azərbaycan Ordusunun bölmələri Kəlbəcərə daxil oldular. Ölkəmizin ərazicə ən böyük rayonu – 3054 kv kilometrlik, 1 şəhər, 1 qəsəbə və 145 kəndi əhatə edən bu qədim, bərəkətli və füsunkar ərazi düşmən tapdağından tam azad edildi. Yeri gəlmişkən, maraqlı bir faktı da xatırlayaq ki, Kəlbəcər rayonunun ərazisi Avropanın 7 dövlətinin birgə ərazisindən daha çoxdur. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 822 saylı Qətnaməsi də yerinə yetirilmiş oldu.

Bundan bir neçə gün sonra - dekabrın 1-də növbəti rayonumuz – Laçın da Azərbaycana təhvil verildi. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanata əsasən, işğalçı qüvvələr rayonu artıq tərk etmişlər. 28 illik işğala son qoyulmuş Laçın Azərbaycanın ərazicə böyük, təbiətinə görə gözəl və zəngin rayonlarından biridir. Bununla bağlı xalqa müraciət edən Silahlı Qüvvələrin Ali Baş Komandanı, dövlət başçısı İlham Əliyev bildirmişdir: "Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq"[106]. Müraciətdə deyilir ki, azad edilmiş bütün bölgələrimizin

[106] Prezident: Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. "İki sahil" qəzeti, 1 dekabr 2020-ci il





iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Ölkəmiz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, həmçinin dünyanın ən gözəl, inkişaf etmiş bölgələrindən birinə çevirəcək.

Azərbaycan Prezidenti İlham Əliyev həm 44 günlük müharibə zamanı, həm də hərbi əməliyyatlar başa çatandan sonra keçirdiyi bütün görüşlərdə, verdiyi bütün müsahibələrdə İkinci Qarabağ müharibəsi haqqında, erməni silahlı qüvvələrinin dinc Azərbaycan şəhərlərini vəhşicəsinə bombardman etməsi barədə, igid Azərbaycan əsgərinin öz doğma və müqəddəs torpaqları uğrunda hünərlə döyüşməsi ilə bağlı müxtəlif dövlətlərin nümayəndə heyətlərinə və KİV-lərə dolğun məlumatlar vermişdir. Məsələn, dövlətimizin başçısı 2020-ci ilin axırlarında Rusiyadan gələn nümayəndə heyətlərini qəbul edərkən qeyd etmişdir ki, hərbi əməliyyatlar dövründə Ermənistan tərəfi müharibə aparılmasının bütün normalarını, habelə humanitar normaları kobud şəkildə pozurdu. Bizim şəhərlərimiz və kəndlərimiz hər gün bombardmana məruz qalırdı. Nəticədə, aralarında uşaqların və qadınların da olduğu 94 dinc Azərbaycan sakini həlak olmuş, 400-dən çox adam yaralanmış, 3 mindən çox ev yararsız vəziyyətə düşmüş, yaxud tamamilə məhv edilmişdi. Hərbi əməliyyatlar zonasının yaxınlığında yerləşən şəhərlər praktiki olaraq hər gün atəşlərə, minaatan və artilleriya atəşlərinə məruz qalırdı, dinc əhalinin məhv edilməsi üçün Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərə mütəmadi ballistik raketlərlə məqsədyönlü şəkildə hücum edilirdi. Erməni faşizminin bütün bu hərbi cinayətləri

– ballistik raketlərdən, kasetli və fosforlu döyüş sursatlarından istifadə edilməsi sənədləşdirilmiş və Azərbaycan tərəfinin görəcəyi sonrakı hüquqi tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar verilmişdir.

4 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalamışdır. Yuxarıda qeyd etdik ki, işğaldan azad edilmiş torpaqların əvvəlki həyatına qayıtması üçün artıq hərtərəfli işlərin görülməsinə başlanılmışdır. Bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat ayrılıb. Azad edilmiş ərazilərimiz strateji iqtisadi əhəmiyyət daşıyır. Sürətli quruculuq işləri nəticəsində tezliklə bu ərazilərdə həm kənd təsərrüfatı, həm turizm, həm də iqtisadiyyatın digər sahələri inkişaf etdiriləcək. İndiyə qədər işğal səbəbindən regiondan aralı keçən beynəlxalq səviyyəli nəqliyyat-kommunikasiya layihələri Qarabağ bölgəsində gerçəkləşəcək. "Qarabağ Dirçəliş Fondu"nun yaradılması ilə bağlı imzalanan fərmanda göstərilir ki, "Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaq. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq.





Bu sahədə bütün potensialın fədakarlıqla səfərbər edilməsi ölkəmizin inkişafında birgə uğur salnaməsi yaradaraq, qələbəmizi daha da parlaq edəcək"[107].

"Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. Fondun Nizamnaməsində onun fəaliyyət istiqamətləri ilə bağlı göstərilir ki, Fond işğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma və dayanıqlı inkişaf işinin həyata keçirilməsinə maliyyə dəstəyi göstərəcək; işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı inkişafı üçün sərmayələrin cəlb olunması, habelə bu istiqamətdə fəaliyyətin effektiv təşkili məqsədilə təbliğat-təşviqat və maarifləndirmə işi aparacaq; işğaldan azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və dayanıqlı inkişaf məqsədlərinin dövlət-özəl tərəfdaşlığı çərçivəsində təmin edilməsi istiqamətində işləri təşviq edəcək. "Qarabağ Dirçəliş Fondu"nun fəaliyyəti ilə əlaqədar olaraq mütəxəssislər qeyd edirlər ki, beynəlxalq təcrübədə post-konflikt bərpa fondları münaqişə nəticəsində dəymiş ziyanın təhlili, post-konflikt ərazilərinin minalardan təmizlənməsi, inf-

[107] Prezident: Biz artıq Azərbaycanın Ağdam rayonunda Türkiyə-Rusiya Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. "Yeni Azərbaycan" qəzeti, 12 dekabr 2020.

rastrukturun bərpası, səhiyyə və təhsil kimi xidmətlərin bərpası, məcburi köçkün icmalarının evlərinə qaytarılması, iqtisadi bərpa kimi bir çox məsələləri əhatə edir: "Qarabağın bərpası prosesində bir çox ölkələrdə tətbiq olunan diaspor-investisiya modelindən də istifadə edə bilərik. Bu investisiya modelinin əsas üç - "maliyyə gəliri", "sosial status" və "emosional motiv" adlı motivləri Azərbaycan diaspor üzvlərinin bir çoxunda var. Vətən müharibəsi zamanı diaspor üzvlərinin informasiya müharibəsində verdiyi dəstəyin davamı olaraq, xaricdə yaşayan azərbaycanlılar Qarabağın bərpasında da yaxından iştirak etmək istəyirlər. "Qarabağın Dirçəliş Fondu" bu dəstəyə mərkəzləşmiş, koordinasiyalı və şəffaf formada idarəetməni həyata keçirəcək"[108].

2021-ci il yanvarın 11-də dövlət başçısı İlham Əliyev Rusiya Federasiyasının Prezidenti V.Putinin dəvəti ilə Moskvada oldu; Rusiya paytaxtında Rusiya və Azərbaycan prezidentləri, həmçinin Ermənistanın baş naziri arasında üçtərəfli görüş keçirildi. Hesab edirik ki, İlham Əliyevin bu səfəri ölkəmizin növbəti siyasi qələbəsi sayıla bilər və post-müharibə dövründə yeni diplomatik uğurdur. Görüş zamanı 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli Bəyanatın reallaşdırılmasının gedişinə, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımlar müzakirə olunmuşdur. O cümlədən, regionda bütün

[108] İİTKM-in analitiki: ""Qarabağ Dirçəliş Fondu" sərmayə cəlbini sürətləndirəcək" http://www.iqtisadiislahat.org/news/iitkm_in_analitiki_qarabag_dircelis_fondu_sermaye_celbini_suretlendirecek-1098





iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı üçtərəfli işçi qrupun yaradılması qərara alınmışdır. Məlum olduğu kimi, 10 noyabr Bəyanatında nəqliyyat kommunikasiyalarının bərpa edilməsi nəzərdə tutulurdu. Sənədin 9-cu bəndinə əsasən, "bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir"[109].

Nəqliyyat əlaqələri iqtisadi inkişafın dayanıqlığı, ölkələrarası münasibətlərin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bu, əslində hər hansı regionda sülhün və sabitliyin bərqərar olmasına da əhəmiyyətli töhfə verir. İndiyə qədər Ermənistanın işğalçı və terrorçu siyasəti Cənubi Qafqaz regionunda əmin-amanlığa və siyasi sabitliyə təhdid olmaqla, bölgənin infrastruktur layihələrinin tam mənası ilə reallaşdırılmasına da ciddi maneə törədirdi. Düzdür, Azərbaycan Respublikası Cənubi Qafqazın lider, aparıcı ölkəsidir və heç bir transmilli layihə, enerji-kommunikasiya dəhlizləri Azərbaycanın iştirakı olmadan gerçəkləşdirilə bilməz. Bununla belə, Ermənistanın təcavüzkar siyasəti daha çox bu ölkənin öz milli iqtisadiyyatına ağır zərbə vurmaqla yanaşı, bütövlükdə regionda sülh və təhlükəsizliyin bərqərar olmasına da əngəldir. Lakin İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın şanlı qələbə qazanması, Ermənistanın faktiki olaraq kapitulyasiyaya uğraması, torpaqlarımızın işğaldan azad edilməsi nə-

[109] https://az.wikipedia.org/wiki/Dağlıq_Qarabağ_atəşkəs_bəyanatı_(2020)

inki Qarabağ bölgəsinin, eləcə də bütün regionun iqtisadi inkişafı üçün möhkəm zəmin yaradır. Prezidentimizin sözləri ilə desək, "Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq"[110]. Artıq Dağlıq Qarabağ münaqişəsi arxada qalmışdır, bu münaqişə başa çatmışdır, ona görə də hesab edirik ki, nəqliyyat marşrutlarının bərpası, yeni nəqliyyat arteriyalarının açılması, "nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsi"nin yaradılması artıq yaxın gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmləndirəcək amillərdir. Yeri gəlmişkən, 2021-ci il fevralın 2-də ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, Moskva görüşündə Ermənistanın heç bir şərti qəbul edilmədi. Ermənistanın birləşmiş

[110] İlham Əliyev: Nəqliyyat kommunikasiyalarının açılması mənafelərimizə cavab verir/"İki sahil" qəzeti. 11 yanvar 2021-ci il.





müxalif partiyalarının nümayəndələri yanvarın 11-də Moskvada keçirilən üçtərəfli danışıqları erməni tərəfi üçün növbəti uğursuzluq hesab etdilər. Müxalif Vətənin Xilası Naminə Hərəkatının baş nazirliyə vahid namizədi Vazgen Manukyan Ermənistan, Azərbaycan və Rusiya rəhbərlərinin imzaladığı bəyanatı "Ermənistan üçün növbəti biabırçı məğlubiyyət" adlandırıb: "Ermənistan bu görüşdən heç bir müsbət nəticə əldə etməyib, əsirlərlə bağlı məsələdə isə əliboş qalıb. Azərbaycan növbəti dəfə istədiyini möhkəmləndirib"[111].

Ermənistandan fərqli olaraq Azərbaycan öz qarşısına qoyduğu hədəflərə çatmağa müyəssər oldu. Məsələn, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR-i birləşdirəcək dəhlizin açılışı ilə bağlı işçi qrupun yaradılması mühüm nailiyyət hesab edilə bilər. 30 ilə yaxın müddət idi ki, bu əlaqə pozulmuşdu və Naxçıvanla əlaqə İran üzərindən hava xətləri vasitəsilə həyata keçirilirdi. Ölkəmiz habelə Naxçıvan Muxtar Respublikası ərazisindən keçməklə Türkiyə bazarına çıxış əldə edəcək, Türkiyənin və Rusiyanın dəmir yolu arteriyaları birləşəcək. Eyni zamanda, Ermənistan da Azərbaycan ərazisindən keçməklə Rusiyaya və İrana dəmir yolu çıxışı imkanına malik olacaq. Beləliklə, üç ölkə arasında imzalanmış son 11 yanvar Moskva bəyanatı bölgənin sürətli inkişafı istiqamətində yeni perspektivlər açır və nəzərdə tutulan bu nəqliyyat-kommunikasiya layihələrinin tezliklə reallaşdırılması bütün region xalqlarının mənafelərinə cavab verir.

[111] https //www.azerbaijan-news az/posts/detail/ilham-eliyev-postsovet-mekaninin-en-savadli-en-medeni-prezidentidir-1618518992

Lakin dəmiryol və avtomobil yollarının çəkilməsi, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi ilk növbədə məhz həmin layihələrin nəzərdə tutulduğu ərazilərin minalardan təmizlənməsini prioritet istiqamətə çevirir. Prezident bu məsələ ilə bağlı mühüm məsələlərə toxunmuş, dəyərli tövsiyələrini vermişdir: "Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə, biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın"[112]. Məhz bu məqsədlə ölkə Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılmışdır. Agentlik Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, həmçinin onların müvəqqəti saxlanılması, daşınması, zərərsizləşdirilməsi sahəsində fəaliyyət göstərən, habelə bu sahədə digər zəruri işlərin təşkilini, fəaliyyətin planlaşdırılmasını, əlaqələndirilməsini və idarə edil-

[112] Prezident Əliyev Qarabağda minalardan təmizləmə işlərini sürətləndirməyi tapşırıb/ http://interfax.az/view/826178/az





məsini həyata keçirən publik hüquqi şəxsdir[113].

Məlum olduğu kimi, ərazilərin minalardan təmizlənməsi sahəsində texnoloji yeniliklər özünü büruzə verməkdədir. Məsələn, əvvəllər minaların axtarılması və zərərsizləşdirilməsi mexaniki üsullarla, habelə əl metalaxtarıcıların köməyilə, xüsusi təlim görmüş itlərdən istifadə edilməklə həyata keçirilirdi. Lakin müasir minaların tərkibində metal ya az olur, yaxud da ümumiyyətlə olmur. Üstəlik, metal axtaranlar nə qədər təkmil olsalar da, onlar fəqət yerin altında olan anomaliyalar barədə məlumat verir, hər hansı partlayıcı ilə bağlı zəruri informasiya almaq isə mümkün olmur. Ona görə də minaların axtarılıb-tapılması və zərərsizləşdirilməsi məqsədilə müasir dövrdə daha mütərəqqi metod və texnikalardan, məsələn, radiolokasiya cihazlarından, infraqırmızı termoqrafiyadan, elektromaqnit metodlarından və s. istifadə edilir[114]. Dövlət başçısı Minatəmizləmə Agentliyi İdarə Heyətinin sədrini videoformatda qəbul edərkən məhz yeni texnikanın məqsədəuyğunluğuna böyük önəm vermiş və qeyd etmişdir ki, minatəmizləyən yeni texnikanın alınması əsas vəzifələrdən biridir. Bizə elə maşın və mexanizmlər lazımdır ki, minatəmizləmə əməliyyatını həm sürətlə, həm də keyfiyyətlə aparmağa imkan versin. Ölkə Prezidenti dünyanın bu sahədə ən aparıcı şirkətlərinin texnikasının ölkəmizə gətirilməsini vacib saymışdır. Yalnız ərazilər tam təmizləndikdən sonra 30 ilə

[113] Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılıb – Fərman. "Yeni Azərbaycan" qəzeti, 15 yanvar 2021.
[114] Разминирование в рамках гуманитарных операций Бюллетень МАГАТЭ, 43/2/2001, с. 16-19.

yaxın doğma torpaq həsrəti ilə intizarla gözləyən vətəndaşlarımız azad olunmuş regionlara rahat şəkildə köçürülə bilərlər.

Artıq qardaş Türkiyədən Mexaniki Minatəmizləmə Maşınları (MEMATT) gətirilməkdədir. Bu texnika çınqıllı, qumlu və palçıqlı ərazidə 8 saat fasiləsiz işləyə bilir. Mina təmizləyən avadanlıq bir saat ərzində 900 kvadratmetr ərazini təmizləməyə qadirdir. Aparılan testlər təmizləmə əməliyyatlarının effektivliyinin 90 faizə bərabər olduğunu göstərib. Saatda 4 km sürətlə hərəkət edən mina əleyhinə texnikanı 500 metr məsafədən idarə etmək mümkündür, onun tırtılı torpağın 25 santimetr dərinliyinə qədər nüfuz edərək mərmiləri zərərsizləşdirmək iqtidarındadır.

Nə xoşbəxtik ki, müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun erməni faşizmi üzərində möhtəşəm qələbələri nəticəsində artıq əzəli torpaqlarımızda – Suqovuşanda, Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində, Füzuli şəhərində, Horadiz qəsəbəsində, qədim Xudafərin körpüsündə, Zəngilanda, Ağbənd qəsəbəsində, Qubadlı şəhərində, Şuşada, Kəlbəcərdə, Laçında və Ağdamda Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda erməni hərbi qüvvəsini məhv etdiyi posta da Azərbaycanın dövlət Bayrağı sancılmışdır. İşğaldan azad edilən, doğma insanlara qovuşan, rahat nəfəs alan torpaqlarımıza təkcə üçrəngli Azərbaycan bayrağı sancılmır, həm də bu torpaqlara həyat qayıdır, bu torpağın əsl sahibinin, onun köklü əhalisinin nəfəsi qayıdır, bu torpaqlar sözün birbaşa mənasında nura bürünür, bu torpaqlar ağ günə çıxır, bu torpaqlar yenidən cənnətə çevrilir...





Müzəffər Ali Baş Komandanımızın göstərişi ilə Füzulidə beynəlxalq hava limanı tikiləcəkdir və artıq 2021-ci ildə uçuş-enmə zolağı istifadəyə veriləcəkdir. Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq. 2021-ci il yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu. Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək. Regionun sürətli inkişafında Horadiz-Zəngilan dəmiryolu, Zəngilan-Naxçıvan dəmiryolu, Naxçıvan-Türkiyə dəmiryolu layihələri əsas prioritet təşkil edir. Artıq Horadiz-Ağbənd dəmiryolunun layihələndirilməsi işinə başlanılıb. 2021-ci il fevralın 14-də ölkə Prezidenti İlham Əliyev Füzulidə səfərdə olarkən Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Bütövlükdə uzunluğu 100 kilometrə qədər olacaq bu dəmir yolu xətti böyük strateji əhəmiyyət kəsb edir. Belə ki, bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında

önəmli rol oynayacaq. Bundan başqa, Horadiz-Ağbənd dəmiryolu Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Bir baxın, dövlət başçımızın göstərişi və birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda – şəhər və kəndlərimizdə qısa müddət ərzində nə qədər möhtəşəm işlərin görülməsinə başlanılıb və hələ nə qədər də işlər görüləcəkdir. Təki qurub-yaratmaq əzmi, həvəsi olsun. Bizlər də hamılıqla cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, onun Qarabağ da daxil, bütün Azərbaycanımızı cənnətə çevirmək istiqamətində möhtəşəm fəaliyyətinə dəstək və kiçik əməyimizlə töhfə verməliyik.

Dövlətimiz təkcə dağıdılmış və tar-mar edilmiş torpaqlarımızın yenidənqurulması və bərpası istiqamətində intensiv işlər görmür, həmçinin şəhid ailələri və qazılər də diqqətdən qətiyyən kənarda qalmırlar. Onlara dövlət səviyyəsində hərtərəfli yardım edilir, mənzil-məişət problemləri, sosial məsələləri, işsizlik qayğıları, sağlamlıq durumları və s. məsələlər öz həllini tapır. Ən əsası isə onlar dövlət və cəmiyyət tərəfindən mənəvi dəstəklə əhatə olunmuşlar. Təkcə bir faktı qeyd edək: İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində 1500 şəhid ailəsi və müharibə əlili mənzillərlə təmin olunmuşlar. Bununla bağlı Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasını VII qurultayında bildirmişdir: "Keçən il şəhid ailələrinə verilən mənzillərin sayı 1572 idi, bu, rekord göstəricidir. Bu il isə 3 minə yaxın şəhid ailəsi və müharibə əlili yeni mənzillər alacaq. Bildirməliyəm ki, beləliklə, Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda növbədə dayanan, o cümlədən ilk növbədə Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin nümayəndələrinə tam şəkildə mənzillər, evlər veriləcəkdir. Növbəti illər ərzində bu gün növbədə dayanan Birinci və İkinci Qarabağ müharibəsinin şəhidlərinin yaxınlarına mənzillər veriləcəkdir. Ancaq şəhid ailələrimizə qayğımız mənzillərin, yaxud da ki, avtomobillərin verilməsi ilə bitmir"[115]. Belə ki, bütün qazilər dövlətin təmin etdiyi zəruri müalicə ilə əhatə olunmuşlar, buraya müasir protezlər, əlil arabaları və s. aiddir. Əminik ki, müharibə nəticəsində sağlamlığını itirmiş qazilərimiz qısa müddət ərzində yenidən normal həyata qayıdacaqlar.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2021-ci il yanvarın 19-da Prezidentin xüsusi nümayəndəliyi institutu yaradılmışdır. 30 ilə yaxın Ermənistanın zəbt etdiyi Azərbaycanın Qarabağ regionu və ətraf 7 rayon təbii ki, Azərbaycanın nəzarətindən çıxmışdı və bu bölgə xarici ölkələrdən gələn erməni-miqrantlar hesabına ermənilər məskunlaşdırılır, işğal olunmuş ərazidən narkotik qaçaqmalçılığı və terrorçu qrupların hazırlanması kimi cinayətkar məqsədlərlə istifadə edilirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun şücaəti sayəsində bütün torpaqlarımız işğaldan azad edilmiş, regionda sülh və əmin-amanlıq bəqrərar olmuşdur. Bu gün dağlıq və düzən Qarabağda sürətli quruculuq işlərinə başlanılmışdır. Təbii ki, bütün rayonlarımız, bütün yollar, bütün cığırlar ilk

[115]Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib/ https://www.fhn.gov.az/newspaper/?az/news/view/9339/1

növbədə minalardan təmizlənməli, zəruri infrastruktur yaradılmalıdır. İşğaldan azad olunmuş ərazilərin xüsusi vəziyyəti həmin bölgələrdə fərqli və yeni idarəetmə sisteminin təşkilini tələb edir. Ona görə də hesab edirik ki, prezidentin 19 yanvar 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" fərmanı prioritet əhəmiyyət kəsb edir. Fərmana əsasən, xüsusi nümayəndələrin əsas vəzifələrinə işğaldan azad olunmuş ərazilərdə quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu sahədə dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması daxildir. Azad olunmuş bütün regionlarda fəaliyyət göstərəcək xüsusi nümayəndələr Prezidentə tabe olmaqla, onun müəyyənləşdirdiyi səlahiyyətləri həyata keçirəcək[116].

Ölkə Prezidentinin fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"də göstərilir ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi işğaldan azad olunmuş ərazilərdə həmin Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının struktur bölməsidir. Bu məsul nümayəndələrin üzərinə əhəmiyyətli vəzifələr qoyulmuşdur: müvafiq ərazi üzrə əhalinin yaşayış yerlərinə qayıtması və məskunlaşması üçün zəruri təhlükəsizlik, iqtisadi, sosial, kommunal və digər tədbirlər planları layihələ-

[116] Qarabağda baş verən canlanma tezliklə ölkəmizin inkişafına təkan verəcək. "Səs" qzeti, 26 yanvar 2021





rinin hazırlanmasında iştirak etmək və təsdiq olunmuş planların icrasına nəzarət etmək; müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılmasına nail olunması üçün müvafiq dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək; müvafiq ərazidə mülkiyyətin, o cümlədən dövlət əmlakının mühafizəsi istiqamətində tədbirlər görülməsini təşkil etmək və onların icrasına nəzarət etmək; müvafiq ərazidə milli memarlıq ənənələrinin qorunub saxlanılmasına, tarixi və təbii landşaftın qorunmasına, inkişaf etdirilməsinə, memarlıq üslubuna riayət edilməsinin təmin olunmasına, landşaft və ya məkan görünüşündən səmərəli istifadə ilə bağlı tələblərin yerinə yetirilməsinə nəzarət etmək və s. Göründüyü kimi bu və qeyd etmədiyimiz digər mühüm vəzifələr xüsusi nümayəndələrə necə böyük səlahiyyətlər verildiyini sübut edir. Deməli, irəlidə hələ görüləsi işlər kifayət qədər çoxdur və ümid edirik ki, işğaldan azad edilmiş şəhər və rayonlara təyin ediləcək Prezidentin xüsusi nümayəndələri də onların üzərinə qoyulmuş məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirərək, yüksək etimadı doğruldacaqlar. Artıq Şuşa rayonuna xüsusi nümayəndə təyin edilmişdir. Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşa planlı və sistemli şəkildə yenidən qurulacaq, şəhərin çox zəngin tarixi və mədəni irsi bərpa ediləcək, keçmiş şuşalıların və artıq yenidən doğma şəhərə qayıtmağa hazırlaşan şuşalıların rahat və firavan yaşamaları üçün lazımi şərait yaradılacaq.

Tarixi abidələr mənsub olduğu xalqın, dövlətin tarixini bildirir və xalqın, necə deyərlər, "pasportu"dur. Ölkə ərа-

zisində nə qədər qədim və mühüm tarixi-mədəni abidə varsa, bu, həmin xalqın qədim, zəngin mədəniyyətə malik olmasını sübut edir. Dünyada yüzlərlə dövlət, minlərlə xalq yaşayır, lakin onların heç də hamısı zəngin mədəniyyətə, bəşəri sərvətlərə, qədim tarixə malik deyil. Azərbaycan torpağı, Azərbaycan xalqı isə yaşı nəinki əsrlərlə, hətta minilliklərlə ölçülən tarixi, qədim və qiymətli abidələri ilə, maddi-mədəniyyət nümunələri ilə fəxr edə bilər. Bu gün biz hamımız əminik ki, düşmən üzərində zəfər çaldıqdan sonra işğaldan azad edilmiş ərazilərdə dağıdılmış bütün dini-tarixi memarlıq abidələri Azərbaycan hökuməti tərəfindən yüksək səviyyədə bərpa ediləcək.

Azərbaycan multikultural ölkədir, multikulturalizm Azərbaycanda həyatımızın önəmli hissələrindən birini təşkil edir. 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilmişdir. Ölkə Prezidenti İlham Əliyev multikulturalizmin müsbət ənənələrindən bəhs edərkən bildirmişdir ki, Azərbaycanda məskunlaşmış bütün xalqlar uzun əsrlər ərzində multikulturalizm şəraitində yaşamışlar. Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və multikulturalizmin alternativi yoxdur. Ölkəmizdə bütün dini konfessiyalara tolerant münasibət var və bu, dünyanın heç bir ölkəsində özünü Azərbaycandakı kimi büruzə vermir. Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində səfərdə olarkən buradakı məscidləri və Qazançı kilsəsini ziyarət etdilər. Qarabağ regionunda – Laçın rayonunda yerləşən Ağoğlan monastırı, Kəlbəcər rayonunda Xudavəng monastırı, Xo-





cavənd rayonunda Amaras monastırı, Ağdərə yaxınlığında Müqəddəs Yelisey məbəd kompleksi, Kəlbəcər rayonunda Gəncəsər monastır kompleksi xalqımızın milli mədəni irsinə aiddir. Ermənilər bu abidələri erməniləşdirməyə, qriqrianlaşdırmağa çalışsalar da, bu abidələrin tarixini saxtalaşdırmağa cəhd göstərsələr də bunlar alban abidələridir və Azərbaycanın maddi-mədəni irsinin tərkib hissəsidir. Məsələn, Kəlbəcər rayonunun Bağlıpəyə kəndinin ərazisində, Tərtərçayın sol sahilində yerləşən Xotavəng və ya Xudavəng monastır kompleksi Qafqaz Albaniyasına aid dini memarlıq abidəsidir və Xaçın Alban knyazlığının dini mərkəzlərindən biri olmuşdur. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərmişdir. Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə qonşu xalqların kilsələrindən fərqlənir. Artıq Xudavəng kilsəsi udilərə qaytarılmışdır və onlar bu məbəddə öz ibadətlərini etmişlər.

Digər bir misal. Laçın rayonundakı V-VI əsrlərə aid alban monastırı - Ağoğlan məbədi Ağoğlan çayının sahilində yerləşir. Bu tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir. 1992-ci ildə ermənilər Laçını işğal etdikdən sonra Ağoğlan məbədini erməniləşdirməyə başlamışlar. Ermənistan tərəfindən Azərbaycan əraziləri işğal olunduqdan sonra qeyri-qanuni olaraq Ağoğlan monastırının memarlıq

quruluşunda və interyerində dəyişikliklər edilmişdir. Abidənin mühafizə divarı dağıdılaraq ikinci giriş qapısı açılmışdır. Ermənilər məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə daş yazıları, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə silmiş, formalarını dəyişdirmişlər. Məbədin guya xristianlığın qriqorian məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər.

Saxtakarlıqlarında daha da irəli gedən erməni millətçiləri kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını söküb kirəmid və dəmirlə əvəzləmişlər[11]. Ermənilər ərazini tərk edəndə monastırda quraşdırılan şamdanları və bəzi tarixi materialları da aparmışlar. Azərbaycanın Alban-udi xristian icmasının nümayəndələri işğaldan azad edilmiş Laçın rayonundakı Ağoğlan monastırını ziyarət etmiş və ölkəmizin multikultural ölkə olmasının dünyaya bir daha sübut olunduğunu bildirmişlər.

Ermənistanın xalqımıza məxsus abidələri dağıtması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Yeri gəlmişkən, onu da xatırladaq ki, Xocavənd rayonu ərazisində xalqımızın milli mədəni irsinə aid edilən Amaras monastırından başqa, digər mühüm əhəmiyyət kəsb edən tarixi obyekt Azıx mağara düşərgəsidir. Onu da vurğulayaq ki, bu mağara dünya əhəmiyyətli arxeoloji abidədir. Azıx mağarası dünyanın ən qədim insan məskənlərindən biridir. Yaxşı yadımdadır, biz hələ indiki Bakı Dövlət Universitetinin Tarix fakültəsinin tələbələri ikən Azıx mağarasını ziyarət etmiş, azı 300-400 min il yaşa malik neandertal insanın – azıxantropun nadir yaşayış məskənini öz gözlərimizlə görmüşdük. Mağaradan tapılmış bəzi əmək alətlərinin 1-1,5 milyon il, hətta bəzi mənbələrə görə isə 2 milyon il yaşı olduğu bildirilir. Azıx paleolit düşərgəsi Xocavəndin Azıx kəndində, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşir. Alt paleolit dövrünə aid bu unikal abidə 30 ilə yaxın idi ki, erməni işğalı altında idi. 2001-2009-cu illərdə - 10 il müddətində qondarma "Dağlıq Qarabağ respublikası"nın himayəsi altında beynəlxalq tədqiqatçılar qrupu Azıx mağarasında müvafiq qurumların icazəsi olmadan qanunsuz araşdırmalar aparmışdır. Ermənistan alimləri də bir müddət Xocavənd rayonunun Azıx və Salaketin kəndləri arasında, Quruçay çayının sol sahilində yerləşən Azıx mağarasında qanunsuz arxeoloji tədqiqat işləri apararaq, bu maddi mədəniyyət nümunəsini dünyaya öz abidələri kimi təqdim edirdilər. Bu qanunsuz tədqiqatlar zamanı əldə edilmiş maddi mədəniyyət nümunələri tədqiq olunmaq üçün Londona aparılmışdır. Əldə edilmiş bir çox qiymətli tapıntılar təəssüf ki, Ermənistan ərazisinə də daşınmışdır.

Ekspertlər hesab edirlər ki, orada həm qazıntı, həm də kəşfiyyat işləri aparmaq bəşəriyyətə qarşı cinayət kimi də-

[11] http://www.dqdk.gov.az/az/view/objects/9

yərləndirilə bilər. 2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsi zamanı – noyabrın 9-da tarixi Azıx mağarasının yerləşdiyi Salaketin və Azıx kəndləri Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildi. Təkcə Azərbaycan tarixi üçün deyil, həmçinin bütün dünya mədəni irsi üçün mühüm əhəmiyyət kəsb edən bu qədim və unikal abidə artıq Azərbaycanın nəzarətindədir. Dünyada cəmi 2 yerdə - Fransada və Afrikada Aşel dövrünə aid neandertalların yaşadığı ərazilər aşkarlanmışdır. Azərbaycanda yerləşən Azıx mağarası da məhz həmin dövrə aiddir. Artıq düşməndən azad edilmiş Azıx mağarasında davamlı olaraq arxeoloji tədqiqat işləri aparılarsa, Azərbaycan tarixi üçün yeni-yeni nailiyyətlər əldə oluna bilər. Bu abidə təkcə Azərbaycan tarixi, Qafqaz tarixi üçün əhəmiyyətli deyil, eyni zamanda qədim dünya tarixinin öyrənilməsində də prioritet önəmə malikdir.

Artıq azad edilmiş və erməni vandalları tərəfindən viran edilmiş cənnət simalı, behişt camallı Qarabağın dağlıq hissəsində və ətraf 7 rayonda gecəli-gündüzlü quruculuq işləri gedir, dövlətimizin hərtərəfli qayğısı və diqqəti ilə regionun bütün kənd, qəsəbə və şəhərlərində intensiv şəkildə infrastruktur yenidən bərpa olunmaqdadır. Tezliklə bu ərazilərimiz yenidən əvvəlki gözəlliyinə qovuşacaq və hətta daha da möhtəşəm olacaq, daha da yüksək səviyyədə inkişaf etdiriləcək. Dövlətimizin başçısı İlham Əliyev post-müharibə dövründə işğaldan azad edilmiş torpaqlarımızın – şəhər, rayon və kəndlərimizin bərpa olunması işləri ilə yanaşı, digər mühüm istiqamətdə də fəaliyyət göstərir, Ermənistanın ölkəmizə vurduğu maddi, mənəvi zıyan-





lara görə beynəlxalq hüquq qarşısında məsuliyyəti ilə bağlı zəruri işləri görür, erməni vandallığının inanılmaz cinayətlərini beynəlxalq ictimaiyyətə də bəyan edir.

Bu yaxınlarda – 2021-ci il fevralın 26-da Xocalı soyqırımının 29-cu ildönümü günü Prezidentimiz yerli və xarici KİV təmsilçiləri üçün mətbuat konfransı keçirmişdir. Dünya ölkələri mediasının diqqət mərkəzində olan mətbuat konfransı məhz Xocalı soyqırımı günü keçirildiyindən Prezident İlham Əliyev ilk öncə bu soyqırımı barədə məlumat vermişdir. 1992-ci il fevralın 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərinin sakinləri məhz azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdilər. Soyqırımı nəticəsində 106-sı qadın, 63 uşaq olmaqla, 613 nəfər xüsusi qəddarlıqla öldürülmüşdü. Soyqırımı törədənlər sonradan Ermənistana rəhbərlik etmişdilər. Bu, erməni faşizminin xarakterik xüsusiyyətidir: dinc əhaliyə qarşı xüsusi qəddarlıq göstərənlər "qəhrəman"a çevrilir, ölkənin prezidenti olurlar. Ölkə Prezidenti İlham Əliyevin sözlərinə görə, Xocalı soyqırımı Ermənistan faşizminin təzahürü idi. 1992-ci ildən son hadisələrə qədər erməni faşizmi Azərbaycan xalqına böyük zərbə vurmuşdur. Hərbi təxribatlar, terror aktları, dinc əhaliyə qarşı qəddarlıq, şəhərlərimizin, kəndlərimizin atəşə tutulması, eyni zamanda, İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması – bütün bunlar erməni faşizminin təzahürləridir.

Soyqırımı törədilən zaman Azərbaycan çox pis vəziyyətdə idi, ölkəmiz hərbi-silahlanma baxımından, həm də informasiya nöqteyi-nəzərindən ermənilərdən geri qalırdı,

hərbi-siyasi hakimiyyət dərin böhran içində idi. Soyqırımı baş verəndə informasiya blokadası səbəbindən bu qanlı cinayət barədə dünya ictimaiyyətini lazımi şəkildə məlumatlandıra bilməmişdik. Erməni diaspor təşkilatları və güclü erməni lobbisi bütün baş verənləri əksinə təqdim edir, yalan və saxta informasiyalar yayırdılar. Lakin Azərbaycan rəhbərliyinin – Ulu öndər Heydər Əliyevin və onun daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində informasiya blokadası yarıldı, hadisə barədə formalaşmış yanlış fikirlər təkzib olundu. Bu məqsədlə dövlət səviyyəsində də, ictimai qurumlar formatında da hərtərəfli fəaliyyətlər göstərildi. Konfransda qeyd olunduğu kimi, qeyri-hökumət təşkilatları sırasında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə nəzərə çarpmaqdadır. Belə ki, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində "Xocalıya ədalət!" şüarı altında müxtəlif tədbirlər keçirilmiş, Xocalı faciəsi barədə dolğun məlumatlar verilmişdir. Hazırda Xocalı soyqırımı barədə beynəlxalq aləmin kifayət qədər geniş məlumatının olduğunu, lakin zaman keçdikcə Xocalı həqiqətlərinin daha da genişlənərək, bütün dünya ölkələrini əhatə edəcəyinə əmin olduğunu vurğulayan dövlətimizin rəhbəri demişdir: "Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. Azərbaycan dövləti, eyni zamanda, ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır.





Ermənistan dövlətinin hərbi cinayətləri sənədləşdirilib, video, foto materiallar kifayət qədər geniş auditoriyaya təqdim edilibdir. İndi bütün dünya görür və bilir ki, Azərbaycan xalqı XX əsrin sonunda soyqırımına məruz qalmışdır"[118]. Ölkə rəhbərliyi Xocalı soyqırımını rəsmən tanıyan dünya ölkələrinin sayının artması üçün bundan sonra da çalışacaq və bu istiqamətdə müvafiq işlər ardıcıl olaraq davam etdiriləcək.

Məlum olduğu kimi, Ermənistanın faktiki olaraq kapitulyasiyası anlamına gələn 10 noyabr 2020-ci il Bəyanatının imzalanmasından sonra bu ölkədə daxili ictimai-siyasi vəziyyət gərginləşmişdir. Artıq bir neçə aydır ki, paytaxt Yerevanda və digər şəhərlərdə etiraz aksiyaları səngimir. Ermənilər İkinci Qarabağ müharibəsində böyük itkilər verərək, ağır məğlubiyyətə uğradıqlarının, ölkədə yaşam səviyyəsinin aşağı düşdüyünün, əhalinin sosial durumunun acınacaqlı vəziyyətdə olmasının səbəbkarı kimi baş nazir N.Paşinyanı günahkar hesab edir və onun istefasını tələb edirlər. Lakin təbii ki, Ermənistanın dərin siyasi-hərbi-sosial uçuruma düşməsinə görə təkcə Paşinyan deyil, həmçinin əvvəlki illərdə bu ölkəyə rəhbərlik edən Köçəryan-Sarkisyan cütlüyü də məsuliyyət daşımalıdır. Mətbuat konfransında Türkiyə jurnalistinin Ermənistanda baş verən hadisələrə - daxili siyasi qarışıqlığa münasibətdə ölkə Prezidentinin belə bir fikri qeyd olundu ki, iyirmi il ərzində Köçəryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Öl-

[118] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738

kə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi işğalçılıq siyasətidir. Çünki onlar torpaqlarımızı işğal altında nə qədər çox saxlamaq istəyirdilərsə, o qədər də asılı vəziyyətə düşürdülər. Bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd etmişdir ki, "Biz Ermənistanı ardıcıl olaraq bütün beynəlxalq, regional layihələrdən təcrid etmişdik. Ermənistanı iqtisadi cəhətdən sarsıtmaq, çökdürmək, təcrid etmək bizim siyasətimiz idi. Mən bunu heç vaxt gizlətmirdim və dəfələrlə açıq deyirdim, torpaqlarımız nə qədər ki, işğal altındadır, biz bu siyasəti aparacağıq. Deyirdim ki, Ermənistan öz silahlı qüvvələrini bizim torpaqlarımızdan çıxarsın, ondan sonra bölgədə işbirliyi də ola bilər, əməkdaşlıq da ola bilər və bizim siyasətimizdə dəyişiklik də ola bilər. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də ki, 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət bizim bu çağırışlara qulaq asmadı. Əgər vaxtında qulaq assaydılar, bu gün belə rəzil duruma düşməzdilər"[119]. Kapitulyasiya aktının imzalanmasından sonrakı dövrdə Azərbaycanın 3 böyük rayonu – Ağdam, Kəlbəcər və Qubadlı bir güllə belə atılmadan, heç bir qan tökülmədən işğaldan azad edildi. Sonuncu Vətən müharibəsindən sonra Azərbaycan bölgədə yeni reallıq yaratdı. Bu gün Ermənistanın qarşısında yalnız bir seçim – 10 noyabr bəyanatının bəndlərini ardıcıl icra etməkdən başqa çıxış yolu qalmamışdır. Bu bəyanatın müddəalarına əməl etməmək isə onsuz da ağır durumda olan Ermənistan üçün daha kəskin problemlər yarada bilər.

[119] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738





Dağlıq Qarabağ və ətraf 7 rayon işğaldan azad edildikdən sonra torpaqlarımızda quruculuq abadlıq işlərinə başlanmış, infrastrukturun bərpası istiqamətdə ciddi layihələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Artıq avtomobil və dəmiryolları çəkilir, elektrik stansiyaları quraşdırılır və s. Mətbuat konfransında da məhz bu məsələyə toxunuldu. Məsələn, Füzulidə beynəlxalq hava limanı barədə suala cavab olaraq ölkə Prezidenti İlham Əliyev bildirdi ki, şübhəsiz, hava limanının tikiləcəyi ərazi əvvəlcə minalardan təmizlənir və bu iş yaxın vaxtlarda yekunlaşacaq. Uçuş-enmə zolaqları ən ağır təyyarələr və yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək. Aeroportun bu il istifadəyə veriləcəyi gözlənilir. Jurnalistin sualını ətraflı cavablandıran Prezident nəinki Füzulidə hava limanının, həmçinin Laçın və Zəngilanda da aeroportların tikilməsindən danışdı: "Bizim aeroportlar tikmək planlarımız təkcə Füzuli şəhəri ilə məhdudlaşmır. Biz ərazinin abadlaşdırılması proqramlarını, Zəngilanın çox mühüm logistika mərkəzinə çevriləcəyini nəzərə almaqla Laçında və Zəngilanda da aeroportlar tikməyi planlaşdırırıq. Bildiyiniz kimi, keçən il 10 noyabr tarixli Bəyanatın bir bəndi Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin Azərbaycanı Türkiyə ilə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən dəhliz açılması barədə idi. Buna görə də bizim böyük planlarımız var və biz onları reallaşdıracağıq. Bu il ərazilərin bərpası üzrə kifayət qədər geniş xüsusi investisiya proqramı təsdiq edilib. Biz bağlanmış müqavilələr əsa-

sında ilk ödənişləri həyata keçirməyə başlayırıq"[120].

Dövlətimizin başçısı İlham Əliyev bu yaxınlarda – 2021-ci il aprelin 26-da Zəngilan rayonunda olarkən Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoydu. Deməli, yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq. Prezidentimizn bildirdiyinə görə, Zəngilan rayonunun coğrafi mövqeyi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır[121]. Səfər zamanı, həmçinin Zəngilan-Horadiz avtomobil yolunun da təməli qoyuldu. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarət olacaq.

Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir. Artıq Füzuli Beynəlxalq Hava Lima-

[120] Prezident İlham Əliyev: Ərazilərin bərpası üzrə böyük planlarımız var və onları reallaşdıracağıq/ http://yap.org.az/az/view/news/50048/prezident-ilham-eliyev-erazilerin-berpasi-uzre-boyuk-planlarimiz-var-ve-onlari-reallashdiracagiq

[121] https://president.az/articles/51295





nının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcəkdir. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik.

Terror və təxribat törətmək ermənilərin səciyyəvi xüsusiyyətləri olduğundan İkinci Qarabağ müharibəsi başa çatandan və üçtərəfli bəyanat imzalandıqdan sonra da bütün erməni silahlı dəstələrinin ərazilərimizi dərhal tərk edəcəklərini gözləmək və ya yeni təxribatçı qrupların göndərilməyəcəyini güman etmək sadəlövhlük olardı. Bəyanatın imzalanmasından təxminən 10 gün sonra – noyabrın 20-də Ermənistanın Şirak rayonundan, Gümrü şəhərindən və digər ərazilərdən 60-dan yuxarı yaraqlını əhatə edən silahlı dəstə Azərbaycan ordusunun nəzarətində olan ərazilərə göndərilmişdi. Prezidentimiz bu məsələyə də aydınlıq gətirdi və KİV nümayəndələrinə həqiqəti olduğu kimi çatdırdı: "Hərbi əməliyyatlar başa çatandan sonra biz aşkar etdik ki, arxa cəbhənin dərinliyində erməni silahlı dəstələri var. Əvvəlcə, aldığımız məlumata görə, bu adamlar azıb mühasirədən çıxa bilməyənlərdir. Azərbaycan hərbi qulluqçuları onların azdıqlarını zənn edərək bir müddət sülhməramlı missiya ilə birlikdə həmin adamlara kömək göstərməyə və onları geri qaytarmağa çalışdılar. Lakin məlum oldu ki, bu, belə deyilmiş. Məlum oldu ki, bu, həm bizim hərbi qulluqçulara, həm də dinc vətəndaşlara hücumlar edən təxribat qrupudur"[122]. Aparılan anti-terror əməliyyatı nəticəsində bir neçə terrorçu zərərsizləşdirildi, digərləri isə - 60-a yaxın cinayətkar həbs edildi. Ermənistan rəhbərliyi isə bu terrorçuların guya hərbi əsirlər olduğunu iddia edə-

[122] https://mod.gov.az/az/pre/35063.html

rək, məsələnin mahiyyətini təhrif edir.

Azərbaycan Respublikası sülhsevər ölkədir, burada multikultural dəyərlərə önəm verilir və multikulturalizm dövlət siyasəti səviyyəsinə qaldırılmış, tolerant cəmiyyət formalaşdırılmışdır. Sülhə daim önəm verən ölkəmizin rəhbəri İkinci Qarabağ müharibəsinin gedişində dəfələrlə bəyan etmişdi ki, erməni tərəfi torpaqları tərk etmək qrafikini verən kimi biz döyüşü dayandıracağıq. Həqiqətən elə belə də oldu – 10 noyabr üçtərəfli Bəyanatın imzalanmasından sonra aktiv döyüş əməliyyatları dayandırıldı. Azərbaycan hər iki tərəfdən itki verilməsinin qarşısını aldı. Təbiidir ki, müharibə davam etsəydi, bu, Ermənistan üçün daha ağır nəticələrlə sonuclanacaqdı. Ölkəmiz 30 il idi ki, münaqişənin yalnız dinc, danışıqlar yolu ilə həllinə çalışırdı, regionda sülh və əmin-amanlığın bərqərar olması üçün Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə çağırırdı. Lakin Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və ölkəmizin suverenliyinin bərpası istiqamətində yol hərbi sahədə əldə edilən uğurlardan başlayıb, sonra isə siyasi-diplomatik müstəviyə keçdi. Ölkə Prezidentinə 26 fevral 2021-ci il tarixli mətbuat konfransında verilən suallardan biri də məhz bu məsələ ilə bağlı idi: Azərbaycan bundan sonra davamlı sülhü təmin etmək üçün nə edəcək? Prezidentimizin cavabı Azərbaycan xalqının, Azərbaycan dövlətinin nə qədər sülhpərvər olduğunu xarici jurnalistlərin diqqətinə bir daha çatdırdı: "... davamlı sülh necə ola bilər, bu, yalnız imzalanmış 10 noyabr Bəyanatına sadiqlik nümayiş etdirməklə olar. Həmin sənəd Ermənistanın baş naziri tərəfindən imzalanıb: Ağdamın bir hissəsi, Kəlbəcər və Laçın boşaldılacaq. Biz müharibəni dərhal dayandırdıq. Mən öz sözümə əməl etdim. Ancaq bunu hər kəs çox gözəl anlayır ki, biz müharibəni davam etsəydik, Ermənistan üçün nəticələr daha ağır və acınacaqlı ola bilərdi. Ancaq biz istəmədik ki, daha artıq itkimiz və qurbanlar olsun və biz bunu nümayış etdirdik. Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır. Bu baş tutsa, burada Ermənistan da mənfəət əldə edəcək, onlar sülhün xeyrini görəcəklər. Daha bir şərtimiz, sülh üçün şərt ondan ibarətdir ki, Ermənistan siyasi dairələri anlamalıdırlar, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır"[123].

Bu məsələnin davamı olaraq yapon jurnalistinin sualı azərbaycanlıların və ermənilərin birlikdə yaşamalarının mümkünlüyü ilə bağlı idi. Məlum olduğu kimi, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bu 30 illik münaqişə dövründə də Azərbaycan paytaxtını tərk etməmişlər. Digər bölgələrimizdə də ermənilər dinc şəraitdə yaşayır, heç bir problemlə üzləşmirlər. Məsələn, Ermənistanın keçmiş müdafiə nazirinin bacısı 60 ilə yaxındır ki, Kürdəmirin Şıxımlı kəndində yaşayır. Azərbaycan monodövlətə çevrilən Ermənistandan fərqli olaraq çoxmillətli tolerant

[123] Prezidentimiz Azərbaycanın qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi/ https //sesqazeti.az/news/politics/856858.html

bir dövlətdir. Media nümayəndələri ilə görüşdə ölkə Prezidenti də bu məsələni şərh etdi: "Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlərboyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Yəni, bütün xalqların nümayəndələri bir bayraq altında bir yumruq kimi birləşdi və bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var"[124].

Rusiyanın "Bolşaya Aziya" mediaholdinqinin nümayəndəsi 44 günlük müharibə dövründə Azərbaycan Prezidentinin sülhməramlı kimi çıxış etdiyini bildirdi. O, dövlət başçımıza müraciət edərək qeyd etdi ki, "Siz 23 dəfə sülh haqqında danışdınız, halbuki digər tərəf bir dəfə də olsun, bu cür bəyanat vermədi. Siz bundan sonra Ermənistan ilə dövlət səviyyəsində münasibətləri necə qurmaq niyyətindəsiniz? Erməni xalqı ilə yox, məhz bir dövlət olaraq Ermənistanla"[125]. 44 günlük müharibə zamanı Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdi ki, Ermənistan işğal altında saxladığı ərazilərdən çıxmaq qrafikini bizə təqdim edərsə, biz dərhal döyüş əməliyyatlarını dayandırarıq. Baxmayaraq ki, Azərbaycan ordusu hər gün çox sayda yaşayış məskənlərimizi düşməndən azad edirdi. Deməli, döyüşlərin dayandırılması erməni tərəfinə daha çox sərf edirdi; çünki hər gecikdirilən gün yeni ərazilərin işğaldan azad

[124] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738

[125] Yenə orada.





olunması ilə nəticələnirdi. Azərbaycan tərəfi güclü və qalib tərəf olsa da, sülhə hər zaman hazır idi və bunu əməli şəkildə sübut edirdi. Bu haqda Prezident İlham Əliyev demişdir: "Əgər erməni tərəfi mənim sözlərimə qulaq assaydı, o halda onların məğlubiyyəti bu dərəcədə alçaldıcı və ağrılı olmazdı, bu qədər tələfat da olmazdı"[126].

Şuşa şəhəri rəşadətli Azərbaycan ordusu tərəfindən azad edildikdən sonra ermənilər təslimçilik bəyanatını imzalamağa məcbur oldular, daha doğrusu məcbur edildilər. Çünki onların fikrincə, alınmaz qala olan Şuşanın işğaldan azad edilməsi Xankəndi üçün ciddi təhlükə demək idi. Azərbaycan isə həm müharibə dövründə, həm post-müharibə zamanı yalnız sülhün dəstəklənməsi istiqamətində fəaliyyət göstərmişdir. Müharibənin başlanması yenə də Ermənistanın günahı üzündən baş vermiş, Azərbaycan əks-hücum əməliyyatları ilə öz torpaqlarını azad etməyə başlamışdı. Ölkə Prezidenti xarici jurnalistlərə onu da bildirdi ki, bizim hədəfimiz sülhdür: "Müharibə bizə lazım deyildi. Bu, məcburi tədbir idi. Bu tədbir bütün otuz illik səmərəsiz danışıqlardan daha effektli oldu. Beləliklə, hər şey Ermənistan rəhbərliyinin müasir reallıqlara düzgün qiymət verməsindən, düzgün nəticə çıxarmasından və revanşist cəhdlərin istisna edilməsindən asılı olacaq. Biz bütün olanları izləyirik, daha da diqqətlə izləyəcəyik"[127].

Azərbaycanın 30 ilə yaxın işğal altında qalan torpaqları

[126] Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır/"Xalq qəzeti", 20 may 2021-ci il

[127] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738

azad edildikdən sonra ən aktual olan və məcburi köçkünlərimizi, həm də beynəlxalq KİV-ləri maraqlandıran məsələlərdən biri həmin ərazilərdə məskunlaşma ilə bağlıdır. Bu məsələ mətbuat konfransında da əcnəbi KİV-lərin təmsilçiləri tərəfindən səsləndirildi. Prezidentimiz uzun illər həsrətlə torpaqların işğaldan azad olunacağını, öz doğma ev-eşiklərində yenidən yaşayacaqları günü səbirsizliklə gözləyən vətəndaşlarımızın təhlükəsizliyinin hər şeydən irəli olduğunu dəfələrlə vurğulamışdır. Ona görə də Azərbaycan dövləti tərəfindən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonrakı dövrdə prioritet olaraq ərazilərin minalardan tam və tezliklə təmizlənməsi məsələsini irəli sürmüşdür. Bu istiqamətdə müvafiq addımlar atılmaqla yanaşı, quruculuq işləri də genişlənir. Hələlik ilk növbədə bütün yaşayış məskənlərinin və yolların minalardan təmizlənməsi prosesi gedir və hazırkı texniki imkanlarla bu, müəyyən vaxt tələb edir.

KİV təmsilçilərinin diqqətinə çatdırıldı ki, hələlik cəmi bir neçə min hektar ərazi minalardan təmizlənmişdir. Prezidentimiz tərəfindən yeni hərbi bölmələrin, Azərbaycan Müdafiə Nazirliyinin yeni mühəndis-istehkamçı taborların formalaşması barədə göstərişlər verilib. Bu bölmələr artıq formalaşıb. Bu yaxınlarda Türkiyədən müasir texnika alınıb. Bundan başqa, distant xarakterli robotlar, minatəmizləyən maşınlar da alınacaq. Eyni zamanda, dövlət rəhbəri bu yaxınlarda Minatəmizləmə üzrə Dövlət Agentliyinin yaradılması barədə Sərəncam imzalamışdır. Ərazilərin minalardan təmizlənməsində iştirak etmək və istehkamçılarımıza treninqlər keçirilməsi üçün Türkiyə Müdafiə Nazirli-





yindən 100-dən çox mütəxəssis ezam edilmişdir. Ağdam rayonu ərazisinin minalardan təmizlənməsində Rusiya Fövqəladə Hallar Nazirliyinin bir qrupu da iştirak edir. Ölkə Prezidenti media quruluşlarının nümayəndələrinin diqqətinə onu da çatdırdı ki, artıq işğaldan azad edilmiş və minalardan təmizlənmiş 7 min hektardan çox ərazidə kənd təsərrüfatı fəaliyyətinə başlanılmış, buğda əkinləri aparılmışdır.

Məcburi köçkünlərin doğma torpaqlara qayıdışı ilə bağlı ikinci əsas problem ondan ibarətdir ki, erməni vandalları bütün yaşayış və inzibati binaları, kommunikasiya xətlərini darmadağın etmiş və insanların yaşaması və yenidən məskunlaşması üçün yararsız hala salmışlar. Mətbuat konfransında iştirak edən əcnəbi jurnalistlər də Azərbaycanın azad edilmiş bir sıra ərazilərində olmuş və erməni vandalizminin səviyyəsini öz gözləri ilə görmüşlər. Yunanıstanı təmsil edən jurnalist Ağdam şəhərinin darmadağın edildiyini, bəşər sivilizasiyasına, dini abidələrə qarşı hörmətsizliyin və təhqirin şahidi olduğunu dilə gətirdi. O, etiraf etdi ki, mən Ağdamın bu dərəcədə dağıdıldığını təsəvvür edə bilməzdim. Prezident Qarabağdakı bütün yaşayış məskənlərimizin eynilə bu cür dağıdıldığını və hazırda yaşayış üçün heç bir şərait olmadığını xatırlatdı. O, Ağdamın bugünkü vəziyyətini görən əcnəbi KİV işçilərinə şəhərin yaxın perspektiv inkişaf planı barədə də ətraflı məlumat verdi. Qeyd etdi ki, işğaldan əvvəl şəhərdə 40 min nəfər yaşayırdısa da, 30 il sonra Ağdam əhalisi təxminən 70 min nəfər təşkil edir. Ona görə də 70 min nəfərlik şəhərin baş planı hazırlanmalıdır: “Biz Ağdam şəhəri haqqında danışı-

rıqsa, bu şəhər hesab edirəm ki, 2-3 il ərzində tam bərpa oluna bilər. Ancaq bundan öncə minadan təmizləmə, infrastruktur layihələri həyata keçirilməlidir. Elektrik infrastrukturuna gəldikdə, biz bütün şəhərlərimizin, bölgələrimizin bir-biri ilə bağlı enerji şəbəkəsini yaradacağıq. Artıq büdcə, proqram təsdiq edilib və bu ilin sonuna qədər elektrik enerjisi təminatı başa çatdırılacaqdır. Su təminatı, qaz təminatı, yollar... Biz təkcə evlər tikməli deyilik, orada xəstəxanalar, məktəblər, bağçalar tikilməlidir. Orada iş yerləri yaradılmalıdır. Çünki orada yaşayan insanlar işlə təmin edilməlidir. Yəni bütün bu işlər bizim Böyük Qayıdış adlandırdığımız proqramımızın tərkib hissəsidir"[128].

Enerji şəbəkəsindən danışarkən, Azərbaycan işğaldan azad edilmiş regionlarımızın fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təminatı ilə bağlı işlərə artıq start vermişdir. Lakin regionun prioritetliyi ondadır ki, burada təkcə su elektrik stansiyaları deyil, habelə külək və Günəş elektrik stansiyaları kimi alternativ və bərpa oluna bilən enerji növlərindən də istifadə ediləcək. Ölkə Prezidenti bu məsələni ətraflı şərh edərkən göstərdi ki, Günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə qoymaq istəyən şirkətlər işğaldan azad edilmiş ərazilərə cəlb olunurlar. Çünki Qarabağ regionunda bu məqsədlə yaxşı imkanlar mövcuddur. Belə ki, Kəlbəcər-Laçın zonasında güclü küləklər olduğuna görə, orada külək elektrik stansiyaları, Zəngilan-Cəbrayıl ərazisində isə günəşli günlər digər regionlarla müqayisədə daha çox olduğu üçün orada Günəş elektirk

[128] https://xeber.media/news/16293241/azerbaycan-dovlet-bascisi-hesab-edirem-ki-agdam-seheri-2-3-il-erzinde-tam-berpa-oluna-biler





stansiyaları tikmək əlverişlidir. Prezidentimizin sözlərinə görə, "Biz artıq Qarabağı "yaşıl enerji" zonası elan etmişik və bunun üçün, ilk növbədə, investorları gözləyirik". Yeri gəlmişkən, haşiyə çıxaraq qeyd edək ki, 2021-ci mayın 3-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalanmışdır. Sərəncamda göstərilir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkət cəlb ediləcək. Bərpa olunan enerji mənbələri – külək, günəş, su, biokütlə, geotermal mənbələr "yaşıl enerji" sayılır. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr edilmiş müşavirədə də bu məsələyə xüsusi toxunmuş və bildirmişdir ki, "Azad edilmiş torpaqlarda, eyni zamanda, böyük enerji potensialı var. Bəri başdan demək istəyirəm ki, mən azad edilmiş əraziləri yaşıl enerji zonası kimi görmək istərdim. Kifayət qədər imkanlar var"[129]. Məlum olduğu kimi, Qarabağın dağlıq və düzən hissələri külək, günəş və su ehtiyatları ilə zəngin ərazilərdir. Məsələn, burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovatsaatdır. Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürəti saniyədə hətta 7-8 metr təşkil edir. Bundan başqa, ölkəmizin bütün su ehtiyatlarının 25%-i - bu da 2 milyard 560 milyon kub-

[129] İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib/ https://president.az/articles/49933

metr su deməkdir – məhz bu ərazidə formalaşır.

Yerli və xarici KİV təmsilçiləri üçün mətbuat konfransında jurnalistləri maraqlandıran məsələlər qismində əhalinin reinteqrasiyası prosesi də prioritet əhəmiyyət kəsb edirdi. Hələ 44 günlük müharibə zamanı əcnəbi media qurumlarının nümayəndələri ölkə Prezidenti İlham Əliyevdən müsahibələr alarkən məhz bu məsələyə dəfələrlə toxunurdular. Təbii ki, fevralın 26-da keçirilən mətbuat konfransında da bu səpkili suallar oldu. Dövlət başçısı bildirdi ki, müharibə təzə başa çatdığından azərbaycanlılar hələ işğaldan azad edilmiş regionlara köçürülməyib. Artıq bildirildiyi kimi, bu məqsədlə ərazilər minalardan təmizlənməli və tam təhlükəsiz olmalıdır. Digər tərəfdən azərbaycanlıların öz doğma torpaqlarına qayıdışının qarşısını almaq və ya bunu ləngitmək üçün erməni tərəfi bütün yaşayış yerlərimizi tanınmaz hala salmışdır. Müharibədən sonra dövlət başçısı bir neçə dəfə bu regionlara səfər etmiş, erməni vəhşiliyinin analoqu olmadığını bütün dünyaya bəyan etmişdir. Hətta bəzi şəhərlərimizdə dağıntılar o dərəcədədir ki, Azərbaycanın dövlət bayrağını sancmaq üçün heç bir bina tapılmamışdır. Ona görə də ilk növbədə minaların zərərsizləşdirilməsi problemi həll edilməyincə və yaşayış üçün ən elementar şərait yaradılmayana qədər köçkünlərimizin doğma torpaqlara dönüşü bir müddət ləngiyəcək. Ermənilər isə Qarabağda Rusiya sülhməramlıların nəzarəti altında olan ərazilərdə yaşayırlar. Ölkə Prezidentinin sözlərinə görə, erməni və azərbaycanlı əhali arasında gündəlik əlaqələrin başlanması üçün şərait yetişməlidir. Bu, ilk növbədə, siyasi şəraitə aiddir. Ermənistan dövləti Azərbaycanın suveren ərazisini onun əlindən almaq üçün hər hansı cəhdlərdən, "Arsax müstəqil dövlətdir" tipli hər cür ifadələrdən, bütün bu boş və cəfəng sözlərdən imtina etməlidirlər. Onlar, sadəcə, özlərini və bütün dünyanı aldatmaq və orada yaşayan insanları çaşdırmaq cəhdlərindən imtina etməlidirlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar.





Prezident İlham Əliyev 2021-ci il aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edərkən də bu məsələyə toxunmuş, Ermənistandan tam fərqli olaraq Azərbaycanın mövqeyinin həmişə konstruktiv olduğunu xatırlatmışdır. Dövlət başçısının sözlərinə görə, biz münaqişədən sonrakı inkişafdan danışırıq və gələcək barışığa apara biləcək müəyyən elementlər üzərində diqqətimizi cəmləşdirməliyik: "Ermənistanda o qədər uzun müddət ərzində Azərbaycana qarşı demonizasiya siyasəti, uydurmalar, azərbaycanlıları düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal edən formada təqdimatı hökm sürüb ki, cəmiyyətin bunun əksini dərk etməsi üçün vaxt tələb olunacaq. Yalnız müharibə zamanı deyil, biz müharibədən sonra da eyni davranış nümayiş etdirdik. Biz 1500-dən çox erməni əsgərinin cəsədlərini Ermənistana təhvil vermişik. Biz Rusiya sülhməramlıları ilə birlikdə axtarış əməliyyatlarında iştirak edirik. Onu da deməliyəm ki, Birinci Qarabağ müharibəsində bizim 4 min hərbçimiz itkin düşüb və bir cəsəd belə bizə

qaytarılmayıb"[130].

Ermənistanın vətəndaş cəmiyyətinin çox azsaylı nümayəndələri var ki, Azərbaycanla sülh barəsində danışsın. Belə fikir söyləyənlər isə ictimai təqiblərə, bəzən fiziki hücumlara məruz qalırlar. Onlara xəyanətkar deyilir və erməni siyasətçiləri onları türk adlandırırlar. Bu isə onların siyasi jarqon dilində yəqin ki, təhqir deməkdir. Yəni, siyasətçilər onlara hədə-qorxu gəlirlər. Biz, hətta münaqişə dövründə vətəndaş cəmiyyəti nümayəndələri arasında körpü yaratmağa cəhdlər etmişik. Azərbaycanlılar və ermənilər arasında gələcək münasibətlərin necə qurulması həmişə əcnəbi siyasətçilərin, KİV nümayəndələrinin diqqət mərkəzində olub və onlar Prezident İlham Əliyevlə görüşlərində bu məsələyə aydınlıq gətirilməsini xahiş ediblər. Əslində, sülhpərvər Azərbaycanın, tolerant Azərbaycan xalqının mövqeyi bəllidir – bölgədə daim sülh və əmin-amanlığın bərqərar olması. Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti bununla bağlı son çıxışlarında demişdir: "Azərbaycanlıların və ermənilərin gələcəkdə necə qarşılıqlı əlaqədə olacağını proqnozlaşdırmaq çətindir. Düşünürəm ki, bu, əhəmiyyətli dərəcədə siyasətçilərin iradəsindən və siyasi müdrikliyindən asılı olacaq. Çünki düşünürəm ki, körpülər yaratmağa çalışmaq üçün burada və İrəvanda bizim daha fəal olmağımıza ehtiyac var. Əlbəttə ki, əgər Ermənistan bunu istəyirsə. Biz onların niyyətlərinin nə olduğunu bilmirik. Onlar heç vaxt bu barədə ətraflı məlumat

[130] Müharibə artıq tarixdə qalıb, biz gələcəyə baxmalıyıq "Mədəniyyət" qəzeti, 16 aprel 2021.





verməyiblər. Mən artıq dəfələrlə açıq şəkildə bildirmişəm ki, biz münaqişə səhifəsini bağlanmış hesab edirik. Biz, hətta Ermənistanla mümkün sülh razılaşması barədə danışa bilərik və mən bunu bir neçə dəfə demişəm. Bizim planlarımız budur. Lakin biz Ermənistan tərəfdən bu cür mesajlar almamışıq"[131].

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərin tikinti-abadlıq işləri "ağıllı şəhər", "ağıllı kənd" layihələri əsasında gerçəkləşdiriləcək. Məsələn, Zəngilan rayonunun üç kəndində - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihə həyata keçiriləcək. Ölkə Prezidentinin sözlərinə görə, orada təqribən 1000-ə yaxın insan yerləşəcək. Bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və insanlar oraya qayıdacaqlar. Belə pilot layihələr çox olacaq.

Erməni vandalları Azərbaycan torpaqlarını işğal altında saxladıqları dövrdə dağıdıcılıq qabiliyyətlərinin yüksək səviyyədə olduğunu sübut etmiş, ekoloji terror törətmiş, hətta ağaclara qarşı da "soyqırımı" gerçəkləşdirmişlər. Onlar alban məbəd və kilsələrini saxtalaşdıraraq, erməniləşdirmiş, müsəlman ibadət yerlərini, məscidləri darmadağın etmişlər. Dağıtmadıqları məscidlərdə erməni vandalları donuz və inək saxlamışlar. Bu vandalizmi öz gözləri ilə görən xarici diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media işçiləri heyrətlərini gizlədə bilmirlər. Mətbuat konfransında İraq media şəbəkəsini təmsil edən jurnalist isə Ağdamın misli görünmə-

[131] Milli maraqları layiqincə təmin edən informasiya strategiyası/"Azərbaycan" qəzeti, 15 aprel 2021-ci il

miş dağıntılarla üzləşdiyini vurğulayaraq, burada işğal dövründə daşlara qədər qarət edildiyini bildirdi. O, əlavə etdi ki, Ermənistan tərəfindən işğal edilmiş bütün digər ərazilərdə məscidlər, türbələr, qəbiristanlıqlar və ümumiyyətlə, tarixi-memarlıq abidələri dağıdılmışdır. Azərbaycan hökuməti beynəlxalq hüquqi müstəvidə Ermənistana qarşı hansısa konkret iddialar qaldıracaqmı? Prezident İlham Əliyev bildirdi ki, Ağdam məscidindən tövlə kimi istifadə edilməsi əslində bütün müsəlman aləmi üçün təhqir sayılmalıdır: "Mən dəfələrlə müxtəlif tədbirlərdə, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində və digər beynəlxalq tədbirlərdə qeyd edirdim ki, bu cinayəti törədənlər, islam müqəddəslərinin təhqirini özünə rəva bilənlər heç vaxt müsəlman ölkələri ilə dost ola bilməzlər. Mən müsəlman ölkələrinin liderlərinə üz tutub deyirdim ki, sizin əl sıxdığınız insanlar müsəlman məscidlərini dağıdan, sökən, orada inək, donuz saxlayanlardır"[132]. Bu, bir həqiqətdir ki, işğal olunmuş Azərbaycan torpaqlarında ümumilikdə 67 məscid var idi. Onların 66-sı dağıdılmış, yalnız bir məscid normal vəziyyətdə qalmışdır. Dağıdılan məscidlərin bəziləri isə tamamilə uçurulmuşdur və ona görə də onlar yenidən tikilməlidir. Azərbaycan hökuməti bütün məscidləri bərpa edəcək. Bu yaxınlarda İCESCO-nun nümayəndə heyəti Azərbaycanda olmuş və bu dağıntıların şahidi olmuşlar. Bu nüfuzlu qurum dağıdılmış tarixi abidələrimizin bərpası işinə kömək etmək istədiyini bildirmiş-

[132] https://apa.az/az/xeber/xarici_siyaset/Prezident-Muslman-olklrinin-liderlrin-deyirdim-ki-l-sixdiginiz-insanlar-mscidlri-dagidan-sokn-orada-ink-donuz-saxlayanlardir-631421





dir.

Ermənistan 30 ilə yaxın müddət ərzində Azərbaycan ərazilərini işğal altında saxladığı zaman nəinki xalqımızın tarixi və mədəni irsinə böyük ziyan vurmuş, həmçinin regionun ekologiyasına, insanların əmlakına, infrastruktura qarşı da görünməmiş vəhşilik etmişdır. Lakin bu vandallıq hətta 10 noyabr 2020-ci il Bəyanatından sonra da davam etdirilmişdir. Bunu bölgəyə səfər edən KİV nümayəndələri gözləri ilə görmüş və mətbuat konfransında da bu problemə aydınlıq gətirilməsini xahiş etmişdilər. Prezident çox sərrast qeyd etdi ki, bütün dünya bizim kiminlə üz-üzə gəldiyimizin və hansı bəlanı məğlub etdiyimizin şahidi oldu. Eyni zamanda, onu da vurğuladı ki, ermənilərin ölkəmizə və xalqımıza vurduğu bu ziyanlar və dağıdıcı fəaliyyətlər onlara baha başa gələcək: "İkinci Qarabağ müharibəsinin əhəmiyyəti təkcə ərazilərimizin, ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmır. Bütün dünya erməni faşizminin əsl real sifətini gördü. Biz, əlbəttə ki, bütün dəymiş ziyanı hesablamalıyıq və hesablayırıq. Mənim göstərişimlə indi Azərbaycanın müvafiq qurumları video, foto çəkilişlər aparırlar, dron çəkilişləri aparılır. Dəymiş bütün ziyan hesablanacaq. Dağılmış bütün evlərin protokollaşdırılması işlərinə start verilib ki, vətəndaşlar fərdi qaydada dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrə, ilk növbədə, Azərbaycan məhkəmələrinə və sonra beynəlxalq məhkəmələrə müraciət etsinlər"[133].

Dünyada bu cür münaqişələrdə dəymiş ziyanın hesab-

[133] https://apa.az/az/xeber/dagliq_qarabag/Prezident-Dymis-ziyanin-tzminatin-odnilmsi-ucun-beynlxalq-mhkmlrd-iddialar-qaldirilacaq-631430

lanması üzrə ixtisaslaşan bir sıra təşkilatlar var ki, Azərbaycan da onlarla müvafiq sənədlər imzalamışdır. Bu şirkətlər ölkəmizə gələrək, müvafiq tədqiqat və araşdırmalar aparacaqlar. Bundan sonra dəymiş ziyanın ödənilməsi və Ermənistanın təzminat ödəməsi üçün beynəlxalq məhkəmələrdə iddialar qaldırılacaq. Məlum olduğu kimi, işğal zamanı bəzi xarici şirkətlər bizim təbii sərvətlərimizi, qiymətli faydalı qazıntılarımızı istismar etmişlər. Məsələn, Kəlbəcər qızıl yataqlarında Ermənistanın dəvət etdiyi şirkət tərəfindən qızıl hasil edilmişdir. Bu, beynəlxalq cinayət sayıldığından Azərbaycan tərəfi cinayəkarların məsuliyyətə cəlb edilməsi istiqamətində də zəruri işlər görməkdədir. "Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır"[134]. Təbii sərvətlərimizdən qanunsuz istifadə etmiş Ermənistan və onun xarici tərəfdaşları da beynəlxalq məhkəmə ilə üzləşəcəklər. Çünki qızıl yataqlarımızın, mis yataqlarımızın, digər təbii sərvətlərimizin ermənilər tərəfindən talanması, qanunsuz istismarı beynəlxalq cinayət hesab olunur və bu istiqamətdə də hüquqi prosedurlara start verilib. Xarici tərəfdaşlar artıq bu işlərə cəlb olunublar.

Yaxşı xatırlayırıq ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda Azərbaycan rəhbərliyi torpaqların qeyd-şərtsiz azad olunmasını və məcburi köçkünlərin öz əzəli və doğma yurd-yuvalarına qayıtmalarını prioritet məsələ hesab edir. Azərbaycanın yalnız

[134] Əli Hüseynlı: Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlıdır "Azərbaycan" qəzeti, 2 mart 2021-ci il.





bu halda Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək status verilə biləcəyini bəyan edirdi. Lakin reallıqlar dəyişdi, status-kvo dəyişdi və Azərbaycan öz gücü ilə işğal edilmiş ərazilərini azad etdi. Belə olan halda Dağlıq Qarabağa hər hansı status verilməsindən artıq söhbət belə, gedə bilməz. Mətbuat konfransında statusla bağlı məsələyə aydınlıq gətirən cənab Prezident bir daha bildirdi ki, "...status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni xalqı yaşayır. Biz buna etiraz etmirik. Baxmayaraq ki, erməni əhalisi ora XIX əsrin əvvəllərində köçürülmüşdür. Biz etiraz etmirik. Bizim başqa yerlərimizdə də erməni əhalisi yaşayır və heç bir problem yaşanmır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir. Bundan sonra Azərbaycan və erməni xalqlarının birgə yaşaması ilə bağlı da bizdə aydın təsəvvür var..."[135].

Mətbuat konfransında İspaniya qəzeti müxbirinin Qarabağda rəsmi dil məsələsi ilə bağlı sualı Prezident tərəfindən öz maraqlı cavabını aldı. Artıq Qarabağın heç bir statusunun olmadığını bir daha bəyan edən dövlət başçısı ölkəmizdə bu adda inzibati ərazi vahidinin olmadığını da dedi – Dağlıq Qarabağ mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır: "Azərbaycanda ye-

[135] İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738/print

ganə rəsmi dil Azərbaycan dilidir və Azərbaycan ərazisində digər heç bir dilin rəsmi statusu ola bilməz. Eyni zamanda, biz heç bir dilə hər hansı məhdudiyyət qoymuruq. Rus dili Azərbaycanda bildiyiniz kimi, çox geniş istifadə edilir. Bu gün bizdə sovet dövründən fərqli olaraq rus dilində daha çox qəzet və internet saytları fəaliyyət göstərir. 340-a yaxın rus bölməsi olan məktəbimiz var. Ermənistanda isə neçə belə məktəb var? Sıfır. Ermənistanda yalnız orada olan rus hərbi kontingentinin övladları üçün bir məktəb fəaliyyət göstərir. Onlarda hətta təqribən belə bir qanun da qəbul edilib ki, erməni uşaqları rus məktəblərinə gedə bilməz. Yəni bu, özlərinin qeyd etdiyi kimi, strateji tərəfdaşlarına olan diskriminasiya, ayrı-seçkilikdir"[136]. Azərbaycanda isə bütün dinlərə, bütün dillərə tolerant münasibət var və bu münasibət dövlət səviyyəsində aparılır və dəstəklənir. Ölkə Prezidentinin sözlərinə görə, Azərbaycanda fərqli dildə danışan insanların hər cür hüquq və imtiyazları mövcuddur. Onların təhsilə çıxışları təmin edilir, bizim bütün dövlət universitetlərimizdə rus bölmələri var. Qarabağ regionunda yaşayan erməni icması öz aralarında erməni dilində danışa bilərlər, sovet dövründə bizim o bölgədə erməni dilində qəzetlər dərc edilirdi, orada xüsusi proqramlar var idi. Digər bütün dillər kimi erməni dili də Azərbaycanda qorunacaqdır.

Türkiyəli jurnalist Qarabağda fəaliyyətə başlamış Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin nə kimi işlər görməsi ilə maraqlandı. Məlum olduğu kimi, Qarabağ ərazisində atəşkəsə nəzarət üzrə monitorinq mərkəzi məhz Ağdamda yerləşir. 2021-ci il yanvarın 10-da Ağdam rayonunda işğaldan azad edilmiş Mərzili kəndi yaxınlığında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi açılmışdır. Mərkəzin əsas məqsədi Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən tərəfindən imzalanmış üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir. Coğrafi və hərbi-strateji baxımdan Ağdam əlverişli region olduğu üçün Türkiyə-Rusiya birgə monitorinq mərkəzinin də məhz Ağdamda yerləşdirilməsi qərara alınmışdır. Ölkə Prezidenti bildirdi ki, Mərkəz post-müharibə dövründə regiona nəzarət edəcək, pilotsuz uçuş aparatlarından da istifadə edərək monitorinq aparacaq ki, bu münaqişə zonasında hər hansı bir qarşıdurma olmasın. Qarşıdurma olduğu təqdirdə isə, bunu kimin törətdiyini, təşəbbüskarın kim olduğunu, günahkarın kimliyini təsbit edəcək.

Birgə Monitorinq Mərkəzinin yaradılması Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan torpağına gəlməsi deməkdir – ölkə Prezidenti məhz belə dedi. Bu, tarixi hadisə sayılmalıdır. Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması üç ölkənin müştərək qərarıdır. Ümumiyyətlə, Türkiyə-Azərbaycan silahlı qüvvələri arasında kifayət qədər sıx əlaqə vardır. 2019-cu ildə həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə hərbi təlim keçirilmişdir. Türkiyədən gəlmiş mütəxəssislər tərəfindən minaların təmizlənməsi və bu istiqamətdə təlim kursları təşkil olunmuşdur.

30 ilə yaxın işğal altında qalan, ekologiyası pozulan, tə-

[136] Qarabağdakı ermənilər Azərbaycan dilini öyrənsələr, daha yaxşı olar/ "Azərbaycan" qəzeti. 1 aprel 2021-ci il.

bii və maddi sərvətləri talan edilən, mədəni-tarixi abidələri dağıdılan ərazilərimizdən narkotik ticarəti, terrorçu dəstələrin hazırlığı üçün istifadə edilirdi. Budur, işğala son qoyulmuş, region azad edilmişdir. Bundan sonra Qarabağ bölgəsinin həyatında yeni mərhələ başlayır: çiçəklənmə, inkişaf mərhələsi. Artıq bu işlərə start verilmişdir. Üçtərəfli 10 noyabr Bəyanatında da regionun inkişafı, infrastrukturların bərpası, nəqliyyat dəhlizlərinin açılması nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev bu məsələyə toxunarkən demişdir: "...post müharibə dövrü doğrudan da yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Biz əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistanın maraqlarına cavab vermir, bu, qonşu ölkələrin maraqlarına da cavab verir. Yəni, Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Əgər bu müsbət meyillər üstünlük təşkil edərsə, əlbəttə ki, icra edilən hər bir layihə özündən sonra digər layihəni də gətirib çıxaracaq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik"[137].

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da keçirdiyi mətbuat konfransı bir sıra cəhətlərinə görə, indiyə qədər bu sahədə olan rekordları təzələmişdir. 4 saatdan

[137] Prezident İlham Əliyev: Hesab edirəm ki, regionun gələcək inkişafı üçün bu gün nadir imkanlar yaranıb. "Yeni Azərbaycan" qəzeti, 3 mart 2021-ci il.





çox davam edən tədbirdə 35 nüfuzlu media qurumu nümayəndəsinin 50-ə yaxın sualını ətraflı, tutarlı və nəzakətlə cavablandırmışdır. Dövlət başçımızın 4 dildə verdiyi cavablarda jurnalistlərin toxunduqları bütün məsələlər dəmir məntiqlə, sərrast və faktlarla şərh edilmişdir. Uzun illərin zəngin təcrübəsi olan əcnəbi media təmsilçiləri hələ indiyə qədər belə uzun sürən və 4 dildə aparılan mətbuat konfransı görmədiklərini etiraf etmişlər. Bu mətbuat konfransı Azərbaycan barədə həqiqətlərin bütün dünyaya çatdırılmasında, ölkəmizin informasiya cəbhəsindəki mövqeyinin daha da möhkəmləndirilməsində əhəmiyyətli rol oynamışdır.

İşğaldan azad edilmiş və düşmən tərəfindən demək olar ki, tamamilə dağıdılıb viran edilmiş Azərbaycan ərazilərinin bərpa edilməsi və yenidən ölkəmizin inkişaf etmiş digər regionları səviyyəsinə qaldırılması dövlət başçımızın ən prioritet hesab etdiyi məsələlərdəndir. Fikrimcə, Prezidentin bu istiqamətində atdığı bütün düşünülmüş addımlar, onun gerçək və məhsuldar fəaliyyəti, imzaladığı sənədlər, qəbul etdiyi qərarlar və yaradılan hüquqi baza yalnız ona xidmət edir ki, bu gözəl yurdumuza yenidən və özü də tezliklə yeni həyat qayıtsın, ölkəmizin bu dilbər guşəsi sürətlə dirçəldilsin. Ölkə rəhbərinin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı da özündə məhz bu mühüm istiqaməti ehtiva edir. Sərəncamda göstərilir ki, "Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin hərbi qüdrətini də yüksəltmişdir. Bu nailiyyətlər

torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi qələbəyə transformasiya olundu. 2020-ci il noyabrın 10-da imzalanmış tarixi Bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradır. Əldə edilmiş qələbə qarşıdakı illərdə sistemli və davamlı islahatlarla yeni imkanlara çevriləcəkdir". Sərəncamla təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafı 5 Milli Prioritet üzrə həyata keçiriləcək[138]. Bu prioritetlər aşağıdakılardır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu Milli Prioritetlər Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Xatırladaq ki, Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığının təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" təsdiq edilmişdir. "Gündəlik-2030"dan irəli gələn öhdəliklərin ölkəmizdə milli səviyyədə yerinə yetirilməsi üçün dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə 2016-cı ilin oktyabr ayında ölkəmizdə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Yuxarıda qeyd etdiyimiz "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə görə belə bir məqsəd diqqəti cəlb edir: "Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir"[139].

Göründüyü kimi, sosial-iqtisadi inkişafın 5 Milli Prioritetindən sayca dördüncüsü işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış"ın həyata keçirilməsini nəzərdə tutur. Çox böyük fəxarət hissi ilə deyə bilərik ki, 44 günlük Vətən muharibəsindən sonra əldə etdiyimiz şanlı qələbə və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması çoxəsrlik

[138] Növbəti onillikdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritet reallaşdırılacaq. "Yeni Azərbaycan" qəzeti, 4 fevral 2021





[139] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər/ https://president.az/articles/50474/print

tariximizdə möhtəşəm yer tutacaq. Ali Baş Komandanımızın qətiyyəti və müdrik qərarları, habelə qəhrəman Azərbaycan əsgərinin misilsiz şücaəti sayəsində respublikamız tarixdə əbədi qalacaq zəfərə imza atdı – bu, hərbi və diplomatik sahələrdə böyük zəfər idi. Artıq azad etdiyimiz torpaqlara yeni həyat qayıtmaqdadır, bu torpaqlarda yeni nəfəs duyulmaqdadır. Lakin qələbənin əbədiləşdirilməsi üçün 30 ilə yaxın müddət ərzində Azərbaycanın müxtəlif şəhər, rayon, qəsəbə və kəndlərində məskunlaşmaq məcburiyyətində qalmış köçkün vətəndaşlarımız öz vətənlərinə qayıtmalıdırlar və bu, yüksək səviyyədə təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. "Milli Prioritetlər"də də qeyd olunduğu kimi, "İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür"[140]. Sənəddə haqqında bəhs etdiyimiz "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" prioritetinin həyata keçirilmə yolları da təsbit olunmuşdur. Böyük qayıdış üçün iki yol məqsədəuyğun sayılır;

[140] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/articles/50474 print





- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya.

Fikrimizcə, bu iki yol çox əhəmiyyətli məsələlərin icrasını nəzərdə tutur. Artıq dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətində prinsipcə çoxşaxəli işlər görülməkdədir, biz bu fəaliyyətlərin bir qismini qeyd etdik. İşğaldan azad edilmiş ərazilərdə insanlarımızın təhlükəsiz yaşayışı təmin edilməlidir, bu məqsədlə ərazilərin minalardan intensiv təmizlənməsi gerçəkləşdirilir. Əslində bu, təhlükəsiz qayıdışın birinci mərhələsidir. Qarabağ regionu Azərbaycanın abad yaşayış mühitinə çevrilməlidir və bunun üçün həyatın bütün sahələrində yenidənqurma və quruculuq işləri aparılmalı, zəruri kommunikasiya strukturu formalaşdırılmalıdır. "Milli Prioritetlər"ə əsasən, hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir.

Qeyd etdiyimiz kimi, böyük qayıdışın təmin olunması istiqamətində ilk və önəmli fəaliyyət işğala məruz qalmış və rəşadətli ordumuzun əks-hücum əməliyyatları nəticəsində artıq azad edilmiş bütün ərazilərimizin minalardan təmizlənməsini ehtiva edir. Çünki torpaqlarımızın, yol və cığırlarımızın, çöl və tarlalarımızın minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsini tam təmin etmə-

dən məcburi köçkünlərimizin doğma yurd-yuvalarına təhlükəsiz qayıdışını gerçəkləşdirmək də mümkün deyil.

İqtisadi fəaliyyətə reinteqrasiyaya gəlincə, Azərbaycanda aparılan iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinə uyğun olaraq işğaldan azad edilən ərazilər hərtərəfli şəkildə inkişaf etdiriləcək və ölkə həyatına reinteqrasiya olunacaqdır. Ekspertlərin fikrincə, işğaldan azad edilmiş ərazilərin dekontominasiyası və şəhər, qəsəbə və kəndlərin yeni baş planları əsasında quruculuq-abadlıq fəaliyyəti başlayacaq. Ərazidə iqtisadi infrastrukturun, o cümlədən, yol, meliorasiya-irriqasiya, elektrik, qaz, su, kanalizasiya və s. sistemlərinin yaradılması, bərpası və inkişaf etdirilməsi zəruridir. Məcburi köçkünlərin mərhələlərlə iqtisadi və sosial məsələlər nəzərə alınmaqla doğma yaşayış məskənlərinə köçməsi, insan kapitalının inkişafı, dövlət sərmayələri ilə yanaşı, xarici və yerli sərmayələrin də cəlb olunması, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafının dəstəklənməsi, iqtisadiyyatın innovativ həllər, yeni texnologiyalar, "yaşıl iqtisadiyyat" və dövri iqtisadiyyat prinsiplərinə uyğun inkişaf etdirilməsi də prioritetlər sırasındadır[141].

İşğaldan azad edilmiş şəhər və kəndlərin bərpası zamanı texnoloji yeniliklərdən istifadə edilməli və bu yeniliklər "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulmalıdır. Ölkəmizdə "Ağıllı kənd" layihəsinin reallaşdırılmasına hələ 2018-ci ildən – Qax Damazlıq İpəkçilik Stansiyasında başlanılmışdır. "Ağıllı kənd" layihəsi bir çox

[141] http://www.iqtisadiislahat.org/news/vusal_qasimli_qarabag_azerbaycanda_iqtisadi_artimin_yeni_drayveri_olacaq-1079





mühüm elementləri özündə birləşdirir. Onların arasında məktəblərdə elektron tədris və təlim mərkəzləri, onlayn təlim platforması, elektron tibbi xidmətlər, alternativ və bərpa olunan enerjidən istifadə, ağıllı suvarma sistemləri, elektron və SMS məlumatlandırma daxildir. Bundan başqa, ağıllı biznes və təsərrüfatın qurulması məqsədilə layihə bazara rahat çıxış platformaları, təchizatçılar və istehsalçılar üçün daxili və xarici bazara rəqəmsal çıxış, onlayn bank xidmətləri və digər xidmətlər təqdim edir. Prezident İlham Əliyevin bildirdiyinə görə, yaşıl enerji zonası ilə bərabər, kənd təsərrüfatında ən müasir texnologiyalar tətbiq edilməlidir.

Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə torpaqlar çox münbitdir, həm bitkiçilik, həm heyvandarlıq üçün çox böyük imkanlar var, çox böyük örüş sahələri var, orada kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı mütləq təmin edilməlidir. Biz bu işi indidən planlaşdırmalıyıq ki, məhsuldarlıq yüksək olsun. Dağıdılmış şəhər və kəndlərin bərpası zamanı texnoloji yeniliklərdən istifadə edilməli və bu yerlər yeni konsepsiya əsasında qurulmalıdır. Azad olunmuş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "smart-city", "smart-village", - yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında bərpa edilməlidir: "Bu işləri indidən planlaşdırın ki, şəhərsalma aparılarkən, layihələr icra edilərkən mütləq dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunsun. Ondan sonra və bəlkə də bununla paralel olaraq, bizim digər şəhər və kəndlərimizdə

buna oxşar layihələri də icra etmək lazımdır"[142]. Fevralın 14-də Azərbaycanın işğaldan azad edilmiş regionlarında – Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında səfərdə olan dövlətimizin başçısı cənab İlham Əliyev Zəngilanın İkinci Ağalı kəndinin yeni inkişaf planı ilə bağlı bildirdi ki, bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi "ağıllı kənd" konsepsiyası əsasında qurulacaq.

Prezidentin göstərişinə əsasən, işğaldan azad edilmiş torpaqlarımızda su elektrik stansiyaları ilə yanaşı, alternativ stansiyaların da tikiləcəyi və bərpa olunan enerji növlərindən istifadənin genişlənəcəyi yaxın perspektivdə reallaşacaq. Məlum olduğu kimi, Kəlbəcər və Laçın rayonlarında böyük külək enerjisi, Zəngilan və Cəbrayıl rayonlarında isə çoxlu Günəş enerjisi potensialı var. Bu enerji növlərindən istifadə etmək iqtisadi cəhətdən kifayət qədər sərfəlidir: belə ki, alternativ enerji mənbələri uzunmüddətli və dayanıqlı olmaqla bərabər, ən vacibi isə ekologiyanın qorunması baxımından da yetərincə faydalıdır. Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi məhz bərpaolunan enerji ilə təchiz ediləcək. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd

[142] Prezident İlham Əliyev: Ölkəmizdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməli və tətbiq edilməlidir / https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Olkemizde_agilli_seher_agilli_kend_konsepsiyasi_islenmeli_ve_tetbiq_edilmelidir_VIDEO-1697141





təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər[143].

Məsələn, bərpa edilən enerji qurğusu – "Arximed" vasitəsilə "ağıllı kənd"in bütün daxili elektrik enerjisi ehtiyacı ödəniləcək. Hətta artıq qalan enerjini xaricə satmaq da mümkün olacaq. Bundan başqa, sistemdən çıxan isti su kənddəki evlərə və hotellərə ötürüləcək. "Arximed" qurğusu Türkiyə şirkəti tərəfindən quraşdırılacaq. Çinin "Huayvei-Azərbaycan" şirkəti isə rəqəmsal texnologiyaları Qarabağın yenidən qurulmuş ərazilərində tətbiq edəcək. Aparıcı "Ağıllı şəhər" və "Ağıllı kənd" texnologiyalarının təchizatçısı kimi bu şirkət informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük təcrübəyə malikdir və dünyada 100-dən çox qlobal layihəsi mövcuddur. Qarabağda "Ağıllı kənd" üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün ən son məhsul və texnologiyalar gətiriləcək. Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasın-

[143] https://president.az/articles/51295

dan istifadə ediləcək. "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradılaraq, "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemləri həyata keçiriləcək. İsrail Zəngilanda, əvvəlcə, 300-400 başlıq camış ferması tikəcək, sonra isə onu 1000 başa çatdırmaq planlaşdırılır. İsrail şirkəti ağıllı fermalar üzrə texnologiya ilə işləyir. Belə ki, bütün fermanı məlumatların təhlili üzrə proqram təminatına birləşdirən ötürücülər var ki, bu da mal-qaranın yemlənməsi, sağlamlığı və sağılması ilə əlaqədardır[144]. İtaliyadan camışlar gətiriləcək və məşhur İtaliya brendi olan "motsarella di buffalo" pendirləri məhz Azərbaycan torpağında, Zəngilanın "ağıllı kənd"i olan Ağalıda istehsal ediləcək. Beləliklə, Prezidentimizin Cəbrayıl və Zəngilan rayonlarına son səfəri zamanı – 2021-ci il aprelin 26-da Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoyuldu.

Artıq işğaldan azad olmuş bütün ərazilərin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təminatı istiqamətində sürətli işlər həyata keçirilməkdədir. Məsələn, bu yaxınlarda (2021-ci il fevral) Laçının Güləbird kəndində su elektrik stansiyasının açılışı gerçəkləşmişdir. Prezident stansiyasının açılışında iştirak edərək, bu stansiyanın birinci olduğunu, lakin sonradan Qarabağ bölgəsində təkcə su elektrik stansiyalarının deyil, həmçinin Günəş və külək elektrik stansiyalarının da inşa ediləcəyini bildirmişdir. Kəlbəcər-Laçın zonası su elektrik stansiyalarının inşası üçün əlverişli şəraitə malikdır. Əvvəllər bu regionda bir sıra stansiyalar fəaliyyət göstərirdi. Ermənilər də azad edilmiş əraziləri tərk edənə qədər bu stansiyalardan istifadə edirdilər. Lakin onlar bütün stansiyaları dağıtmış, avadanlıqları aparmışlar. İlham Əliyevin sözlərinə görə, generasiya gücü 8 meqavat olan Güləbird su elektrik stansiyası Həkəri çayından istifadə etməklə fəaliyyət göstərəcək və təxminən 7000 nəfər əhalini elektrik enerjisi ilə təmin edəcək. Bundan başqa, stansiya Qubadlı rayonunun Xanlıq kəndinin, Laçın rayonunun cənub hissəsinin və bu ərazilərdə yerləşən digər infrastruktur layihələrinin də həmçinin enerjiyə olan tələbatını ödəyəcək: "Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik"[145].

2021-ci il martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının XIV Zirvə toplantısı keçirildi. Məlum olduğu kimi, təşkilata Türkiyə sədrlik edirdi. Onlayn formatda təşkil olunan tədbirdə bir sıra mühüm məsələlərlə yanaşı, Azərbaycanın 30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarını azad

[144] https://president.az/articles/51295

[145] Qarabağımızı cənnətə çevirəcək böyük layihələr – ŞƏRH. "Səs" qəzeti. 18 fevral 2021-ci il

etməsi və post müharibə dövrü məsələlərinə də toxunuldu. Həmişə Azərbaycana dəstək verən qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan böyük qələbə nəticəsində bölgədə yeni bir dövrün qapılarının açıldığını bildirdi. Türkiyə öz prinsiplərinə sadiqdir, yəni müharibə bitsə də, bu ölkə yenə də Azərbaycanın yanındadır. Prezident Ərdoğanın Zirvə toplantısındakı çıxışı da Türkiyənin bu mövqeyini bir daha təsdiq edir: "Bundan sonra hədəfimiz Qarabağda təhlükəsizlik və sabitliyin formalaşmasına yardım etmək, 30 illik işğalın fəsadlarını birlikdə aradan qaldırmaqdır. Bu prosesdə də təşkilat olaraq Azərbaycan ilə tam həmrəylik içində olacağımıza inanıram. Ermənistanın da atacağı sülhsevər addımlarla regional sabitliyin bir hissəsi olacağına ümid edirik"[146].

[146] İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının onlayn Zirvə toplantısında çıxış edib / https://president.az/articles/50795





# NƏTİCƏ

2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük müharibə nəticəsində Cənubi Qafqazda status-kvo kökündən dəyişildi. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dövlətimiz, xalqımız həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır. Belə ki, noyabrın 10-da Ermənistanın hərbi-siyasi rəhbərliyi onlar üçün təslimçilik anlamı verən üçtərəfli bəyanatı imzalamalı oldu.

2020-ci il noyabrın 10-da imzalanmış Birgə bəyanata əsasən, Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonları bircə güllə belə, atılmadan azad edildi. Bu, Azərbaycanın hərbi qələbədən sonra onun davamı olan diplomatik-siyasi qələbəsi idi. Güclü dövlətin, güclü ordunun şərtləri kapitulyasiya edilmiş Ermənistana diqtə edildi və ölkəmiz qələbənin tamlığını, bütövlüyünü təmin etdi.

Ermənilər işğal altında saxladıqları bütün şəhər və kəndlərimizdə tarixi, dini, memarlıq abidələrini tamamilə və qismən dağıtmış, dini abidələri saxtalaşdırmışlar. İşğaldan azad edilmiş Azərbaycanın şəhər və rayonları, kənd və qəsəbələri büsbütün dağıdılmış vəziyyətdədir. Müasir dünyada ermənilərin azərbaycanlılara qarşı törətdiklərin vəhşiliklərin heç bir analoqu yoxdur.

İşğaldan azad edilmiş və düşmən tərəfindən demək olar ki, tamamilə dağıdılıb viran edilmiş Azərbaycan ərazilərinin bərpa edilməsi və yenidən ölkəmizin inkişaf etmiş digər regionları səviyyəsinə qaldırılması ölkə rəhbərliyinin

ən prioritet hesab etdiyi məsələlərdəndir.

Artıq azad edilmiş və erməni vandalları tərəfindən viran edilmiş cənnət simalı, behişt camallı Qarabağın dağlıq hissəsində və ətraf 7 rayonda gecəli-gündüzlü quruculuq işləri gedir, dövlətimizin hərtərəfli qayğısı və diqqəti ilə regionun bütün kənd, qəsəbə və şəhərlərində intensiv şəkildə infrastruktur yenidən bərpa olunmaqdadır. Tezliklə bu ərazilərimiz yenidən əvvəlki gözəlliyinə qovuşacaq və hətta daha da möhtəşəm olacaq, daha da yüksək səviyyədə inkişaf etdiriləcək. Artıq avtomobil və dəmiryolları çəkilir, elektrik stansiyaları quraşdırılır, hava limanları tikilir və s.

Azad edilmiş ərazilərimiz strateji iqtisadi əhəmiyyət daşıyır. Sürətli quruculuq işləri nəticəsində tezliklə bu ərazilərdə həm kənd təsərrüfatı, həm turizm, həm də iqtisadiyyatın digər sahələri inkişaf etdiriləcək. İndiyə qədər işğal səbəbindən regiondan aralı keçən beynəlxalq səviyyəli nəqliyyat-kommunikasiya layihələri Qarabağ bölgəsində gerçəkləşəcək.

Nəqliyyat əlaqələri iqtisadi inkişafın dayanıqlığı, ölkələrarası münasibətlərin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bu, əslində hər hansı regionda sülhün və sabitliyin bərqərar olmasına da əhəmiyyətli töhfə verir.

10 noyabr Bəyanatına əsasən, Naxçıvanla Azərbaycan arasında nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması nəzərdə tutulur. Zəngilan-Mehri-Naxçıvan dəhlizi Azərbaycanın üzərindən keçən beynəlxalq tranzit layihələrin əhəmiyyətini daha da artıracaq.

Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. İcra edilən beynəlxalq layihələr Azərbaycanı beynəlxalq nəqliyyat habına çevirir və bu da ölkə iqtisadiyyatı üçün xüsusi imkanlar açır. Nəqliyyat və telekommunikasiya infrastrukturunun qurulmasına yatırılan investisiyalar uzunmüddətli perspektivə hesablanmışdır. Bu sərmayələr ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün vacib addım hesab edilir. Azərbaycan artıq kosmik sahəyə ayrılan investisiyaların bəhrəsini görməkdədir. İkinci Qarabağ müharibəsi dövründə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq Azərbaycana əlavə üstünlük yaratdı. Müharibədən sonra yaranmış vəziyyət region ölkələri üçün geniş imkanlar açdı.





İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Ermənistanın kapitulyasiyasına qədər olan 44 gün ərzində Azərbaycanın yanında olan qardaş Türkiyə post-müharibə dövründə də dövlətimizi və xalqımızı siyasi və mənəvi cəhətdən dəstəkləməkdə davam edir. Azərbaycanda səfərdə olan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il iyunun 15-də Qarabağı da ziyarət etdi və bu tarixi səfər zamanı qədim Şuşada Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Bəyannamə imzalandı. Onu da vurğulayaq ki, ölkələrimiz arasında indiyə qədər bir neçə strateji əhəmiyyət daşıyan sənəd imzalanmışdır. Məsələn, 9 fevral 1994-cü il tarixli "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə", "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol", 16 avqust 2010-cu il tarixli "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni göstərmək olar.

"Şuşa Bəyannaməsi" adlanan bu mühüm sənəd isə ikitərəfli münasibətlərin ən yüksək həddə çatdırılacağını ehtiva edir. Belə ki, Bəyannaməyə əsasən, Türkiyə və Azərbaycandan hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olacağı təqdirdə bu ölkələr bir-birini qorumaq üçün birgə addımlar atacaqlar.

Bəyannaməyə əsasən, hər iki ölkənin Təhlükəsizlik Şuraları arasında milli təhlükəsizlik məsələləri üzrə ortaq toplantılar keçiriləcək. Türkiyə ilə Azərbaycan arasında həyatımızın ən müxtəlif sahələrində olduğu kimi, hərbi sahədə də sıx əməkdaşlıq var, hər iki ölkənin ərazisində mütəmadi birgə hərbi təlimlər keçirilir, hərbi-texniki sahədə də əlaqələr getdikcə güclənir. Lakin bu münasibətlərin Təhlükəsizlik Şuraları səviyyəsinə çatdırılması o deməkdir ki, iki qardaş ölkənin müdafiə və təhlükəsizlik siyasətləri bundan sonra koordinasiya olunacaq, regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə obyektinə çevriləcək. Şuşa Bəyannaməsində silahlı qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, onların müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi mühüm məsələlərdən sayılmalıdır.

Qeyd edək ki, Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsindən düz 100 il sonra imzalanmışdır. 1921-ci il oktyabrın 13-də imzalanan bu müqavilə bəyan edirdi ki, Naxçıvanın təhlükəsizliyinin qarantı Türkiyədir. Şuşa Bəyannaməsi isə Qarabağın qarantının Türkiyə olduğunu təsbit etdi. Bəyanatda göstərilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır"[147].





Bundan başqa, müqavilə nəqliyyat-kommunikasiya kimi strateji məsələləri də əhatə edir. Dövlət başçısı İlham Əliyev bununla bağlı bildirmişdir ki, "Bəyannamədə Zəngəzur koridorunun açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapıb. Bu da İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışı-

[147] Şuşa Bəyannaməsinin TAM MƏTNİ / https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/

rıq, biz əməli-praktik işlərlə bu dəhlizi, bu koridoru yaradırıq”[148]. Sənədə əsasən, Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin açılması və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi bundan sonra ölkələrimiz arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcək.

Bəyannamədə tərəflərin ticarət-iqtisadi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səylərin artırılacağı öz əksini tapmışdır. Bu, perspektivdə birgə istehsal sahələrinin yaradılmasını, Azərbaycan və Türkiyə mallarının sərbəst hərəkət mexanizmlərinin yaradılması və s. istiqamətləri nəzərdə tutur.

Şuşa Bəyannaməsinin həm 15 iyun – Qurtuluş günü, həm də Qars müqaviləsinin bağlanmasının 100-cü ildönümü günü məhz Şuşa şəhərində imzalanması təsadüfi sayılmamalıdır. Bu Bəyannamə Azərbaycana və Türkiyəyə qarşı ikili standartlar mövqeyindən yanaşan, regionda siyasi maraq və nüfuz uğrunda mübarizə aparan dövlətlərə dərin mənalı bir ismarıcdır. Prezident İlham Əliyev Bəyannamənin imzalanması zamanı bu məsələyə toxunaraq qeyd etmişdir: “Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin

[148] Türkiyə və Azərbaycan "üçüncü ölkədən təhlükə olarsa" bir-birini qoruyacaq - Şuşa bəyannaməsi / https://www.bbc.com/azeri/azerbaijan-57479811





istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır”[149] [ Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL / https://apa.az/az/xeber/siyasi/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-648256].

Belə bir mühüm əhəmiyyət kəsb edən Bəyannamənin imzalanmasından sonra əminliklə deyə bilərik ki, bu, Azərbaycan və Türkiyə üçün yeni bir dövrün başlanması deməkdir. Artıq Türkiyənin təkcə mənəvi və hərbi-texniki baxımdan deyil, habelə birbaşa əsgəri yardım baxımından da Azərbaycanın yanında olacağı regiondakı güc balansının Azərbaycan-Türkiyə alyansına tərəf istiqamətləndiyini sübut edir. Türkiyə-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni - ən yüksək səviyyəyə çatması və Bəyannamədə təsbit edilmiş mühüm müddəaların həyata keçirilməsinə başlanması iki ölkə arasında əbədi dost və qardaşlıq münasibətlərinin bütün dünyada alternativi olmadığının ən bariz nümunəsidir.

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə, habelə işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma

[149] Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL / https://apa.az/az/xeber/siyasi/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-648256

torpaqlarına qayıdışı istiqamətində dövlətimiz tərəfindən görülən genişmiqyaslı tədbirlərdən biri də Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanı olmuşdur. Hesab edirik ki, bu mühüm sənəd 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə regionun inkişafı istiqamətində böyük əhəmiyyət daşıyan hüquqi aktdır[150] və bu, azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına sürətli reinteqrasiyasını təmin edəcək. Sənəddə göstərilir ki, "...nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir"[151]. Fərmana əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsündə Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən Qarabağ iqtisadi rayonu yaradılır. Şərqi Zəngəzur iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxil edilir. Hesab edirik ki, bu, tarixi ədalətin bərqərar olması və Azərbaycanın ərazi bütövlüyünün bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırılmasıdır.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" artıq keçmişdə qalsa da, bu gün Qafqaz regionunda bir çox ərazi münaqişələri mövcuddur. Bütün bunlar bölgənin

[150] http://yap.org.az/az/view/news/53014/iqtisadi-rayonlarin-yeni-bolgusu-haqqinda-imzalanmish-ferman-cenab-ilham-eliyevin-tarixi-ve-siyasi-uzaqgoreliyinin-daha-bir-numunesidir

[151] Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://president.az/articles/52389





qeyri-sabit məkana və regional silahlı münaqişələr və lokal müharibələr meydanına çevrilməsinə səbəb olmuş, böyük qurbanlar və maddi itkilərlə nəticələnmişdir. Etnik-siyasi vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də islahatlar dövründə bütövlükdə Qafqazda sosial-iqtisadi durumun çətinləşməsidir. Aydındır ki, sosial-iqtisadi və siyasi baxımdan intensiv inkişaf edən Qafqaza sülh lazımdır. Sülhü bərqərar etmədən Şərqlə Qərb arasında inteqrasiyadan danışmaq olmaz[152].

Eyni zamanda inanırıq ki, Qafqazda əvvəl-axır regional və etnik münaqişələrə də son qoyulacaq, Qafqaz dünyanın inkişaf etmiş, iqtisadi cəhətdən dünya ilə inteqrasiya olunmuş sabit bölgəsinə çevriləcəkdir. Tarixi keçmişin təhlili və ibrət dərsləri, yeni əsrin inkişaf tendensiyası, zəmanəmizin siyasi, iqtisadi və mədəni inkişafının məntiqi bu həqiqətin yaxın zamanlarda gerçəkliyə çevriləcəyinə gətirəcək.

1977-1981-ci illərdə ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi olmuş məşhur politoloq Zbiqnev Bjezinski Azərbaycanın iqtisadi inkişaf və demokratikləşmə istiqamətində qazandığı uğurları təqdir etmişdir: "İlk növbədə, Prezident İlham Əliyev Gürcüstan üçün böyük yardımçı olmaqla, beynəlxalq sabitliyin təmin edilməsinə doğru mühüm töhfə vermişdir. Amerika Birləşmiş Ştatları Qafqazı sabit region kimi görmək istəyir. Qafqazdakı müstəqil dövlətlərin təhlükəsiz və şantajdan uzaq olması Amerika üçün vacibdir. Azərbaycanın Bakı-Tbilisi-Ceyhan kəmərində iştirakı geosiyasi və iqtisadi cə-

[152] Hüseynova İ. Tarix Zaman Düşüncələr. III cild. Bakı, 2020, s.396.

hətdən Qafqazın sabitlik amili hesab olunur. Biz bunu alqışlayırıq. Amerika Dağlıq Qarabağ məsələsində irəliləyişin əldə edilməsinə tərəfdardır və bu məsələnin həlli məlum səbəblərə görə çox çətindir. Hamı bunu başa düşür. Prezident İlham Əliyev həm Qafqazda, həm də GUAM təşkilatında öz konstruktivliyi ilə seçilir. Mən onu on ildən artıq bir müddətdir ki, tanıyıram. Bu müddət ərzində onun Prezident vəzifəsinə kimi yüksələ bilmək qabiliyyəti mənə yaxşı təəssürat bağışlayır. O, enerjili, ağıllı bir gənc idi. İndi isə o, özünəinamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir"[153].

Qeydlərimizi xalqımızın sevimli oğlu, hərbçilərimizin fəxri, igid sərkərdə, müzəffər Ali Baş Komandan, ölkəmizin rəhbəri möhtərəm cənab İlham Əliyevin elə öz dəyərli sözləri ilə başa çatdırırıq: "...Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar, ilk növbədə, öz dədə-baba torpaqlarına qayıdacaqlar, öz yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Azərbaycan dövləti mütləq bu işlərdə onlara maksimum kömək göstərəcək. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati bina-

[153] Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. IV cild. Bakı, 2020, s.58.





lar, məktəblər tikiləcək. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində hesab edirəm ki, müsbət meyillər daha da güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik. Beləliklə, ölkəmizin gələcək inkişafı əminəm ki, çox uğurlu olacaq. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir"[154].

[154] İlham Əliyev "BBC News"a müsahibə verib / https://president.az/articles/45845

## İstifadə olunmuş ədəbiyyat


1. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, fond 2941, siy la, sax.vah 239.
2. Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, fond 2941, siy la, sax.vah 239.
3. Azərbaycan Respublikası Prezidentinin Işlər Idarəsinin Siyasi Sənədlər Arxivi (bundan sonra- AR PII SSA), fond 1, siy 56, sax.vah. 5.
4. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 276.

   siy.8, sax.vah 1
5. AR PII SSA, fond 1, siy.33 sax.vah. 230
6. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi yaradılıb – Fərman "Yeni Azərbaycan" qəzeti, 15 yanvar 2021
7. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Xalq qəzeti", 1998, 27 mart, №80
8. "Azərbaycan" jurnalı 1988, №2, s.189
9. Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır / "Xalq qəzeti", 20 may 2021-ci il
10. Azərbaycanı Cənubi Qafqazda yenilməz güc sahibinə çevirən 44 möhtəşəm gün / "İki sahil" qəzeti, 2 dekabr 2020-ci il







11. İlham Əliyev Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı. "Azərbaycan" qəzeti. 17 noyabr 2020-ci il
12. İlham Əliyev: Nəqliyyat kommunikasiyalarının açılması mənafelərimizə cavab verir/"Iki sahil" qəzeti, 11 yanvar 2021-ci il
13. Hüseynova İ Dövlətçilik naminə Bakı, 2001, 287 s.
14. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı Bakı, 2003, 504 s.
15. Hüseynova İ Müstəqil Azərbaycan dövlətinin qurucusu Bakı Təhsil, 2004, 472 s.
16. Hüseynova İ Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, 2008, 672 s
17. Hüseynova İ Tarix. Zaman Duşüncələr I cild Bakı: Elm və təhsil, 2016, 512 s.
18. Hüseynova İ Tarix. Zaman Duşuncələr II cild Bakı Elm və təhsil, 2019, 552 s.
19. Hüseynova İ. Tarix Zaman Düşüncələr III cild. Bakı: Elm və təhsil, 2020, 432 s
20. Hüseynova İ Tarix Zaman Düşüncələr IV cild Bakı Elm və təhsil, 2020, 544 s
21. Hüseynova İ. Azərbaycan Xalq Cümhuriyyəti - Dövlətçilik ənənələrinin davamı kimi, "Səs" qəzeti, № 92, 15 may 2018-ci il
22. "Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə unudur, biz onun yadına salarıq". "Iki sahil" qəzeti, 1 fevral 2021

23. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı, 2016, 175 s.
24. İşxanyan B. Qafqaz xalqları. Petroqrad, 1916, 18 c.
25. Kalankatuklu M. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm,1993, 272 s.
26. Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı, 2008, 135 s.
27. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" / "İki sahil" qəzeti, 15 oktyabr 2019-cu il.
28. Milli maraqları layiqincə təmin edən informasiya strategiyası/"Azərbaycan" qəzeti, 15 aprel 2021-ci il.
29. Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018, 270 s.
30. Müharibə artıq tarixdə qalıb, biz gələcəyə baxmalıyıq. "Mədəniyyət" qəzeti, 16 aprel 2021.
31. Naxçıvan MR Ali Məclisinin Arxivi, fond 1, siy. 1, sax.vah. 0-2
32. Növbəti onillikdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair 5 Milli Prioritet reallaşdırılacaq. "Yeni Azərbaycan" qəzeti, 4 fevral 2021.
33. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib. "Respublika" qəzeti, 26 sentyabr 2020.





34. Prezident Ilham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi. "Respublika" qəzeti, 1 noyabr 2020-ci il
35. Prezident Ilham Əliyev: Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. "Yeni Azərbaycan" qəzeti, 25.12.20.
36. Prezident: "30 illik danışıqlar prosesində heç bir nəticə yox idi". "Ədalət" qəzeti, 14 yanvar 2021-ci il.
37. Prezident: Biz artıq Azərbaycanın Ağdam rayonunda Türkiyə-Rusiya Monitorinq Mərkəzinin yaradılması mərhələsindəyik. "Yeni Azərbaycan" qəzeti, 12 dekabr 2020.
38. Prezident: Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. "Iki sahil" qəzeti, 1 dekabr 2020-ci il
39. Səmədov V., Vəlizadə R. "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) Bakı, 2014, II cild, 376 s
40. Şavrov N.N. Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın yadellilərə satışının gözlənilməsi. SPB, 1911.
41. Təhlükəsizlik Şurasının rəsmi hesabatları, qırx səkkizinci il, 1993-cü ilin oktyabr, noyabr və dekabr ayları üçün əlavə. Sənəd S/26718
42. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı. "Azərbaycan" qəzeti, 19 dekabr 1997-ci il.

43. Füzuli-Şuşa avtomobil yolu çəkilir. "Xalq qəzeti", 17 noyabr 2020-ci il

44. Qarabağda baş verən canlanma tezliklə ölkəmizin inkişafına təkan verəcək. "Səs" qəzeti, 26 yanvar 2021.

45. Qarabağımızı cənnətə çevirəcək böyük layihələr – ŞƏRH."Səs" qəzeti, 18 fevral 2021-ci il

46. Qarabağdakı ermənilər Azərbaycan dilini öyrənsələr, daha yaxşı olar/ "Azərbaycan" qəzeti, 1 aprel 2021-ci il.

47. "44 günlük diplomatiya dərsləri" / ideya müəllifi A.Mustafazadə. Bakı: Elm və təhsil, 2021, 251 s.

48. Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi Bakı,1993,133 s.

49. Rusiya Federasiyasının Dövlət Sosial-Siyasi Tarixi Arxivi, fond 7523, siy. 72, sax.vah. 256

50. Rusiya Dövlət Ən Yeni Tarixi Arxivi, fond 1, siy. 7, sax.vah. 5

51. Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. М. Наука, 1978, 312 с

52. Аннинский А. История армянской церкви.Кишинев, 1900, 324 с.

53. Абегян М. История древнеармянской литературы Ереван, 1975

54. Адонц Н. Армения в эпоху Юстиниана. СПб., 1908





55. Большая медицинская энциклопедия, в 35 томах. Том XIX. Москва: Советская энциклопедия, 1931, 406 с.

56. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.) Историко-демографическое исследование (II издание, с изменениями, дополнениями). Баку, 2016, 420 с.

57. Геродот. История в девяти книгах. I:180, 194; III:93; V 49,52; VII 73

58. Гурбанов А. Сказки армянских мудрецов. Bakı: Elm və təhsil, 2005, 468 s.

59. Гусейнова И. Гейдар Алиев -- от политического руководителя к общенациональному лидеру. Баку, 2005, 504 с.

60. Гусейнова И. История народов Кавказа. Баку, 2006, 604 с.

61. Гусейнова И. История народов Кавказа (с древнейших времен до сегодняшнего дня). Баку, 2016. 1021 с.

62. Гусейнзаде Р. Журнал "İRS-НАСЛЕДИЕ", 2004, № 10

63. Дьяконов И.М. Предыстория армянского народа Ереван, 1968, 266 с.

64. Капанцян Г.А. Хаяса-колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947, 242 с.

65. Крутиков Е., Листовский В. Вторая Карабахская война. Азербайджан победил, Армения

капитулировала. "Национальная оборона" jurnalı, 26.12.20.

66. Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722 гг.) Bakı: Elm,1989, 48 s.

67. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва:Аквариус, 2014, 280 с.

68. Разминирование в рамках гуманитарных операций Бюллетень МАГАТЭ, 43/2/2001

69. Советская военная энциклопедия. в 8 т. Т.5. – М.: Воениздат, 1978

70. Чавчавадзе И. Армянские ученые и вопиющие камни. Баку, 1990, 225 с.

71. Шопен И. Новые заметки на древнюю историю Кавказа и его обитателей. С.-Петербург, 1896

72. Jackson R. J. NATO and Peacekeeping, Cambridge, 1997

73. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://president.az/articles/52389

74. I hissə HÖKUMƏTƏ MƏRUZƏ/ http://soyqirim.az/link/6524

75. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI/ http://www.e-qanun.az/framework/4099





76. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüquqi aspektləri / https://mod.gov.az/az/pre/24525.html

77. İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib / https://president.az/articles/51067

78. İlham Əliyev "BBC News"a müsahibə verib / https://president.az/articles/45845

79. İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib/ https://president.az/articles/50738

80. İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüş keçirib / https://president.az/articles/23230

81. İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib / https://president.az/articles/50785

82. İlham Əliyev: Erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq / https://1news.az/az/news/20210201074052677-Ilham-Eliyev-Ermeni-xalqi-vaxt-kechecek-bize-minnetdar-olacaq

83. İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının onlayn Zirvə toplantısında çıxış edib / https://president.az/articles/50795

84. Fransa Senatı terrorçuları "tanıdı": Paris Qarabağda yeni müharibə istəyir - GÜNÜN MOVZUSU / https://news.milli.az/politics/900086.html

85. Hadrutdan verilən mesaj: Bu əməliyyat dünya hərb elmində xüsusi yer tutacaq – TƏHLİL / https://apa.az/az/xeber/siyasi/Hadrutdan-veriln-mesaj-Bu-mliyyat-dunya-hrb-elmind-xususi-yer-tutacaq-colorredTHLILcolor-634092

86. Prezident Əliyev Qarabağda minalardan təmizləmə işlərini sürətləndirməyi tapşırıb/ http://interfax.az/view/826178/az

87. Prezident: "Ermənistanla sərhədlərin qurulması istiqamətində təxirəsalınmaz işlər aparılmalıdır" / https://pravda.az/news/34171

88. Prezident ADA-da keçirilən "Cənubi Qafqaza yeni baxış Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda iştirak edib / https://apa.az/az/xeber/daxili-siyaset/Prezident-ADA-da-keciriln-Cnubi-Qafqaza-yeni-baxis-Munaqisdn-sonra-inkisaf-v-mkdasliq-adli-konfransda-istirak-edib-colorredVIDEOcolor-colorredYENILNIBcolor-637909

89. Prezident İlham Əliyev: Ölkəmizdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməli və tətbiq edilməlidir / https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Olkemizde_agilli_seher_agilli_kend_konsepsiyasi_islenmeli_ve_tetbiq_edilmelidir_VIDEO-1697141

90. Şuşa şəhəri işğaldan azad edildi! https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540

91. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://azertag.az/xeber/Susa_seherinin_Azerbaycanin_medeniyyet_paytaxti_elan_edilmesi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1775545





92. Şuşa Bəyannaməsinin TAM MƏTNİ / https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/

93. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL / https://apa.az/az/xeber/siyasi/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-648256

94. Türkiyə və Azərbaycan "üçüncü ölkədən təhlükə olarsa" bir-birini qoruyacaq - Şuşa bəyannaməsi / https://www.bbc.com/azeri/azerbaijan-57479811

95. IITKM-in analitiki: ""Qarabağ Dirçəliş Fondu" sərmayə cəlbini sürətləndirəcək" http://www.iqtisadiislahat.org/news/iitkm_in_analitiki_qarabag_dircelis_fondu_sermaye_celbini_suretlendirecek-1098

96. Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib/https://www.fhn.gov.az/newspaper/?az/news/view/9339/1

97. Армянские террористические организации / www.mns.gov.az/armenian_terjrgs_ru.html

98. https://mod.gov.az/az/pre/21662.html

99. https://president.az/articles/47685

100. https://mod.gov.az/az/pre/23254.html

101. https://president.az/articles/41712

102. https://president.az/articles/48792

103.https://president.az/articles/41172

104.https://president.az/articles/41429

105.https://president.az/articles/49937

106.https://www.lemonde.fr/international/article/2020/11/07/la-bataille-de-chouchi-cle-du-conflit-au-haut-karabakh-fait-rage_6058893_3210.html?utm_medium=

107.https://ordu.az/az/news/173302

108.https://president.az/articles/45845

109.https://ikisahil.az/post/mene-qardash-deyen-diline-qurban

110.https://azertag.az/bolme/politics

111.http://www.azerbaijan-news.az/view-204024/qarabag-azerbaycandir-qelebemizin-remzidir

112.https://photo.azertag.az/post/prezident-ilham-eliyev-turk-dilli-dovletlerin-emekdasliq-surasinin-bas-katibini-video-formatda-qebul-edib-30174?

113.https://az.wikipedia.org/wiki/Dağlıq_Qarabağ_atəşkəs_bəyanatı_(2020)

114.http://www.dqdk.gov.az/az/view/objects/9

115.http://www.iqtisadiislahat.org/news/vusal_qasımlı_qarabag_azerbaycanda_iqtisadi_artimin_yeni_drayveri_olacaq-1079

116.https://president.az/articles/51295

117.https://vestikavkaza.ru/news/filipp-ekozanc-ne-vrite-sebe-i-vsemu-miru-o-nagorno-karabahskom-konflikte.html





# MÜNDƏRİCAT

Giriş ........................................ 4

Ermənilər Qafqazın allohton əhalisidir– tarixə qısa ekskurs .... 8

Ermənilərin Cənubi Qafqazda əsassız ərazi iddiaları və “erməni sindromu” ........................................ 20

XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı ............... 26

İkinci dünya müharibəsi illərindən sonra xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi .......................... 33

Ümummilli Lider Heydər Əliyevin Ermənistanın işğalçı siyasətinə qarşı mübarizəsi ........................................ 37

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkənin ərazi bütövlüyünün bərpası uğrunda mübarizəsi ........................................ 54

İkinci Qarabağ müharibəsi – zəfər tariximizin şanlı səhifəsidir........................................70

Ermənistanın kapitulyasiyası tarixi ədalətin qələbəsidir.. 114

Post-müharibə dövründə quruculuq işləri ............................ 137

Nəticə ........................................ 201

İstifadə olunmuş ədəbiyyat ........................................ 212



**Hüseynova İradə Mehtiqulu qızı**

Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor, dövlət medalı – "Tərəqi" medalı ilə təltif edilən, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə Beynəlxalq "Sokrat" mükafatı, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü və həmin akademiyanın Beynəlxalq Qızıl ulduz mükafatı laureatı, Birləşmiş Millətlər Təşkilatının Təltiflər Şurası (İsveçrə, Cenevrə) tərəfindən Dünya elminə və Təhsilinə göstərdiyi xidmətlərə görə "Elm və sülh səfiri" Beynəlxalq titulu və Mukafatı laureatı, eyni zamanda həmin təşkilat tərəfindən Dunya Elminə göstərdiyi





xidmətlərinə görə "Avropa Xidmət Ordeni" ilə təltif edilmişdi.

İradə Hüseynova görkəmli dövlət və siyasi xadim, ümummilli lider Heydər Əliyev haqqında "Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" adlı ilk doktorluq dissertasiyasının müəllifidir. Bu doktorluq dissertasiyasının müdafiəsi ilə elmin yeni istiqaməti – Əliyevşünaslıq elminin əsası qoyulmuşdur.

Əliyevşünas və qafqazşünas alim professor İradə Hüseynova 300-dən artıq elmi əsərin – Əliyevşünaslıq elminə dəyərli töhfələr olan "Dövlətçilik naminə" (Bakı, 2001, 286s.), "Mustəqilliyimizin təminatçısı" (Bakı, 2003, 502 s.), "Müstəqil Azərbaycan dövlətinin qurucusu" (Bakı, 2004, 472 s.), "Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру" (Bakı, 2005, 503 с.), "Tarix. Zaman. Duşuncələr". 1-4 cildlər (Bakı 2016, 2018,2020, 512 s.) adlı monoqrafiyaların, Qafqazşünaslıq sahəsində - "Qafqaz xalqlarının tarixi" (Bakı, 2006, 603 s.), "Heydər Əliyev və Qafqazda sülh prosesi" (Bakı, 2008, 670 s.) adlı fundamental dərsliklərin, postsovet məkanında ilk dəfə olaraq "Историческая энциклопедия Кавказа" (Bakı, 2010, 956 с.) adlı ensiklopedik nəşrin müəllifidir.

Rusiya Federasiyası Pedaqoji Akademiyasının, Nyu-York Elmlər Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının həqiqi uzvüdür.

İradə Huseynova Azərbaycan elmini və təhsilini ABŞ, İtaliya, Fransa, Kanada, İsveç, İsveçrə, Ruminiya, Bolqarıstan, Rusiya, Turkiyə, Gürcüstan, Türkmənistan, Belarus,

İsrail, Şri-Lanka, Yaponiya və s. ölkələrdə keçirilmiş nüfuzlu beynəlxalq elmi simpozium və konfranslarda yüksək səviyyədə təmsil etmiş, orada maraqlı elmi məruzələrlə çıxışlar etmişdir.

E-mail: prof.irada.huseynova@gmail.com





**ИЛЬХАМ АЛИЕВ**
**И**
**СЛАВНЫЕ СТРАНИЦЫ**
**ПОБЕДОНОСНОЙ ИСТОРИИ**

**доктор исторических наук, профессор**
**Ирада Гусейнова**

**ILHAM ALIYEV**
**AND**
**THE GLORIOUS PAGES OF**
**OUR VICTORY HISTORY**

**doctor of historical sciences, professor**
**Irada Huseynova**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova

Çapa imzalanıb: 15.07.2021.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi: 14
Tiraj: 500.
"Füyuzat" nəşriyyatında çap edilmişdir
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26